**AZƏRBAYCAN RESPUBLİKASININ**
**İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ**
**(OMBUDSMAN)**

# Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)

## 2024-cü il üzrə məruzəsi

**Bakı - 2025**

*“Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında” Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsi “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 14-cü maddəsinə uyğun olaraq hazırlanmışdır.*

*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) cari il bitdikdən sonra iki aydan gec olmayaraq illik məruzəni Azərbaycan Respublikasının Prezidentinə təqdim edir və həmin məruzə ilə Azərbaycan Respublikasının Milli Məclisi qarşısında çıxış edir.*

*İllik məruzə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş prokuroruna göndərilir.*

*Məruzə “Azərbaycan” qəzetində və “Azərbaycan Respublikasının qanunvericilik toplusu”nda dərc olunur.*

## Giriş sözü

Ölkə həyatının bütün sahələrində ardıcıl olaraq həyata keçirilən, əhalinin iqtisadi vəziyyətinin və sosial rifahının dəstəklənməsinə yönələn tədbirlər insan və vətəndaş hüquqlarının və azadlıqlarının səmərəli təmin edilməsində və etibarlı müdafiəsində mühüm əhəmiyyət kəsb edir.

İctimai-siyasi sabitliyin davamlı xarakter alması, dövlət idarəçilik sistemində tətbiq olunan yeniliklər, habelə vətəndaşların qərarqəbuletmə prosesində iştirakının təmin edilməsi insan hüquqlarının etibarlı müdafiəsində başlıca amillərdəndir.

2024-cü il ölkəmizin ictimai-siyasi həyatında mühüm xarakterə malik tədbirlərlə əlamətdar və yaddaqalan olmuşdur.

İlk dəfə olaraq suveren respublikamızın bütün ərazisində keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər mühüm hadisəyə çevrilmişdir.

Zəfər seçkisi kimi tarixə düşmüş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri vətəndaşların xüsusi seçici fəallığı ilə keçirilmiş, seçicilərin böyük əksəriyyətinin səs çoxluğu ilə cənab İlham Əliyev yenidən ölkə Prezidenti seçilmişdir. Bununla da xalqımız, əslində, son 20 ildə qazanılmış uğurlara, sürətli və davamlı inkişafa, növbəti nailiyyətlərə böyük inam və etimadla səs vermişdir. Azad və demokratik şəraitdə şəffaf və ədalətlə keçirilmiş bu seçkilər ölkəmizin demokratik dəyərlərə və milli dövlətçilik ənənələrinə sədaqətini bir daha təsdiq etmişdir.

Ölkəmiz istər regional, istərsə də beynəlxalq səviyyədə sülh və sabitliyin qorunub saxlanılması naminə öz səylərini əsirgəməmişdir. Ölkə Prezidentinin dünya liderləri ilə birlikdə qlobal əhəmiyyətli məsələlərinin müzakirələrində yaxından iştirakı Azərbaycanı beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevirmişdir.

2024-cü ildə respublikamız bir çox ölkələrin dövlət və hökumət başçılarının, rəsmi şəxslərinin, nüfuzlu ictimai, siyasi, elm və mədəniyyət xadimlərinin qatıldığı beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etmişdir.

İqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə respublikamızda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi böyük əhəmiyyət daşımışdır. Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi, habelə ölkəmizin uğurlu moderatorluğu və yüksək diplomatik məharəti sayəsində hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan Bakı Maliyyə Məqsədi barədə razılığın əldə olunması və digər mühüm qərarların qəbul edilməsi iqlim dəyişmələrinə qarşı mübarizədə mühüm nəticə olaraq tarixə düşmüşdür.

Ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq, Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı, ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində işlərin ötən il də davam etdirilməsi həmin şəxslərin pozulmuş hüquq və azadlıqlarının bərpası baxımından da olduqca əhəmiyyətlidir.

2024-cü ilin faciəvi hadisəsi kimi yadda qalan Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması bütün ictimaiyyəti dərindən sarsıtdı. Ölkə Prezidenti tərəfindən faciənin nəticələrinin aradan qaldırılması ilə bağlı məsələlərin nəzarətə götürülməsi, təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə müvafiq dövlət komissiyasının yaradılması, həlak olanların xatirəsinin yad edilməsi üçün respublika

ərazisində matəm elan edilməsi, həlak olanların ailələrinə və yaralanmış şəxslərə dövlət səviyyəsində hərtərəfli dəstək verilməsi dövlətin öz vətəndaşlarına diqqət və qayğısının bariz ifadəsidir.

Təyyarə qəzası nəticəsində xəsarət alan vətəndaşlarımıza təxirəsalınmaz köməkliyin göstərilməsi məqsədilə Ombudsmanın təşəbbüsünə əsasən Azərbaycan, Qazaxıstan və Rusiya ombudsmanlarının birgə işçi qrupu yaradılmış və zəruri məlumat mübadiləsi həyata keçirilmişdir. Ombudsman, eyni zamanda ölkəmizdə müalicəsini davam etdirən yaralılara baş çəkmiş, onlara göstərilən tibbi xidmətlə tanış olmuş, qayğıları ilə maraqlanmışdır.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması, ölkə Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq, Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi dövlətin ali məqsədinin təsbit olunduğu Azərbaycan Respublikasının Konstitusiyasının hüquqi qüvvəsinin ölkəmizin bütün ərazisində bərqərar olduğunu bir daha bəyan etmişdir.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, Azərbaycan Respublikasının dövlət orqanları, bələdiyyələr, habelə dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər) və büdcə təşkilatları, onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması, habelə nəzarət və monitorinq funksiyalarının həyata keçirilməsi məqsədilə Ombudsman müvafiq qurumlarla səmərəli əməkdaşlıq şəraitində fəaliyyətini davam etdirmişdir.

2024-cü ildə Ombudsmanın ünvanına 29.371 müraciət daxil olmuşdur.

Müraciətlər poçt və ya elektron poçtla, Ombudsmanın rəsmi internet səhifəsindəki onlayn müraciət (“Birbaşa müraciət” və “İnformasiya sorğusu”) və «E-gov» bölmələri üzərindən, rəsmi sosial şəbəkə hesabları vasitəsilə göndərilmiş, Ombudsman Aparatında və regional mərkəzlərdə keçirilən qəbullar zamanı, Ombudsmanın, onun Aparatının və regional mərkəzlərinin əməkdaşlarının respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlama yerlərinə, qarnizon hauptvaxtlarına, qanunsuz miqrantların saxlanılması mərkəzlərinə, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə, o cümlədən müvafiq sosial, tibb və təhsil müəssisələrinə başçəkmələr zamanı təqdim edilmişdir. Ombudsmanın 7/24 rejimində fəaliyyət göstərən “916” Çağrı Mərkəzinə il ərzində 11008 zəng daxil olmuşdur ki, onlardan 7691-i şifahi cavablandırılmış və hüquqi məsləhətlər verilmiş, 3317 zəng üzrə müraciət isə icraata qəbul edilmişdir.

Müraciətlərə “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu (bundan sonra – Konstitusiya Qanunu) ilə müəyyən olunmuş qaydada baxılaraq araşdırmalar aparılmış, insanların üzləşdikləri problem və çətinliklərin həlli məqsədilə aidiyyəti dövlət qurumlarına müraciətlər edilmiş, pozulmuş hüquqların bərpası istiqamətində zəruri tədbirlər görülmüş, həmçinin səlahiyyətli dövlət qurumlarına insan hüquqlarının səmərəli təmin edilməsinə və etibarlı müdafiəsinə yönəlmiş təklif və tövsiyələr təqdim olunmuşdur.

Ərizəçilərə həm qəbulda, həm də müraciətləri əsasında şifahi və yazılı qaydada hüquqi məsləhətlər, habelə insan hüquq və azadlıqlarının müdafiəsinin forma və üsulları, bu və ya digər məsələlərlə əlaqədar aidiyyəti dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlara müraciət etmələrinə dair izahatlar verilmişdir.

Hüquq mədəniyyətinin yüksəldilməsi məqsədilə Ombudsman tərəfindən bütün ölkə ərazisində maarifləndirmə tədbirləri davam etdirilmişdir.

18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ərəfəsində Ombudsman tərəfindən elan edilmiş “İnsan Hüquqları Aylığı”, habelə BMT-nin Uşaq

Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümünə həsr edilmiş "Uşaq Hüquqları Aylığı" çərçivəsində ölkənin şəhər və rayonlarında dövlət və yerli özünüidarə orqanlarının, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirlər, orta məktəblərdə və uşaq müəssisələrində təşkil olunmuş müsabiqə və sərgilər, televiziya və radio kanallarında insan hüquqları ilə bağlı yayımlanmış proqramlar, mətbuatda dərc edilmiş məlumatlar nəticə etibarilə ölkəmizdə insan hüquq və azadlıqlarının təbliği və təşviqinə, habelə səmərəli müdafiəsinə xidmət etmişdir.

Seçkilər ərəfəsində Ombudsman təsisatı və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən paytaxtda və regionlarda "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda silsilə maarifləndirmə tədbirləri təşkil olunmuşdur.

Ombudsman, habelə onun aparatının və regional mərkəzlərinin əməkdaşları beynəlxalq tədbirlərdə insan hüquqlarının ayrı-ayrı sahələrinə aid mövzularda məruzə və çıxışlar etmiş, müzakirə və təcrübə mübadilələri aparmışlar.

Məlum olduğu kimi, Ombudsman Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 yanvar tarixli Sərəncamına əsasən yaradılmış BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin üzvləri sırasında yer almışdır.

Qeyd olunanlardan irəli gələrək, habelə COP29-un keçirilməsi ilə bağlı qəbul edilmiş Tədbirlər Planında nəzərdə tutulmuş hədəflərin həyata keçirilməsinə dəstək məqsədilə Ombudsman tərəfindən Aparatın məsul əməkdaşlarından ibarət işçi qrupu yaradılmış, "Ombudsman Aparatının 2024-cü il üzrə hüquqi maarifləndirmə sahəsində Tədbirlər Planı"na daxil edilmiş müvafiq mövzular üzrə ölkəni əhatə edən silsilə tədbirlər keçirilmişdir.

COP29 ərəfəsində Ombudsman tərəfindən qlobal iqlim problemlərinin insan hüquqlarının təmini baxımından yaratdığı çətinliklərlə bağlı milli və beynəlxalq səviyyədə tətbiq oluna biləcək innovativ yanaşmalar və strategiyaların müzakirəsi məqsədilə "İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Bakı Forumu keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Forum iştirakçılarına müraciəti ölkəmizdə insan hüquq və azadlıqlarına ən yüksək səviyyədə dəyər verilməsinin bariz təzahürüdür. Bu müraciət Azərbaycanın beynəlxalq aləmdə insan hüquqları sahəsindəki müsbət inkişafını və bu sahədəki qlobal səylərə verdiyi töhfələri vurğulamaqla yanaşı, eyni zamanda ölkəmizin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq, insan hüquqlarının müdafiəsi və ətraf mühitin qorunması məsələlərinə nə qədər böyük diqqət yetirdiyini bir daha ortaya qoydu. Müraciətdə səsləndirilən fikirlər, irəli sürülən tövsiyələr iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində milli insan hüquqları institutlarının gələcək fəaliyyət istiqamətlərinin müəyyən olunması baxımından əhəmiyyətli olmuşdur.

Forumda 30-a yaxın ölkəni təmsil edən 60-dan çox nümayəndə, o cümlədən ombudsman və milli insan hüquqları təsisatlarının təmsilçiləri, informasiya komissarları, milli insan hüquqları təsisatlarının beynəlxalq və regional şəbəkələrinin nümayəndələri, beynəlxalq ekspertlər, ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatların rəhbər və nümayəndələri, icra strukturları, məhkəmə hakimiyyəti orqanlarının rəsmiləri, Milli Məclisin deputatları, vətəndaş cəmiyyəti institutlarını təmsil edən yerli və xarici qonaqlar da daxil olmaqla ümumilikdə 200-dən çox şəxs iştirak etmişdir. Yekunda Ombudsmanların Beynəlxalq Bakı Forumu iştirakçılarının Bəyannaməsi qəbul olunmuşdur.

Ümumilikdə, il ərzində həyata keçirilmiş fəaliyyətin nəticələri onu deməyə əsas verir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının səmərəli təmini məqsədilə dövlət qurumları və bələdiyyələr tərəfindən Ombudsmanın müraciətlərinə Konstitusiya

Qanunu ilə müəyyən edilmiş müddətlərdə baxılmasına, şikayətlərdə əks etdirilmiş halların təxirə salınmadan yoxlanılmasına, sorğuların düzgün, mahiyyəti üzrə və vaxtında cavablandırılmasına, eyni zamanda müraciətlərin təhlili prosesində formalaşmış, səlahiyyətli dövlət qurumlarına təqdim edilmiş, habelə illik məruzələrdə öz əksini tapmış təklif və tövsiyələrin həyata keçirilməsinə diqqət daha da artırılmalıdır.

Qeyd etmək istərdim ki, məruzə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin təhlilini əks etdirməklə yanaşı, hüquq pozuntularının qarşısının alınması istiqamətində strateji yanaşmaların vacibliyini bir daha vurğulayır. İnsan hüquq və azadlıqlarının daha səmərəli təmin olunması istiqamətində həyata keçirilən fəaliyyət dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında səmərəli dialoqun və əməkdaşlığın dərinləşdirilməsini tələb edir. Hüquqi və institusional islahatların davamlı şəkildə aparılması, maarifləndirmə tədbirlərinin genişləndirilməsi və insan hüquqları üzrə müsbət beynəlxalq təcrübənin tətbiqi insan hüquqlarının daha etibarlı müdafiəsinə zəmin yarada bilər.

Ümid edirəm ki, bu məruzə insan hüquqlarının daha effektiv müdafiəsinə və hüquqi islahatların dərinləşdirilməsinə, dövlət qurumları ilə ictimaiyyət arasında qarşılıqlı məsuliyyət və tərəfdaşlıq ruhunun gücləndirilməsinə yeni bir təkan olmaqla yanaşı, insan hüquq və azadlıqlarının təmin olunmasında sistemli və davamlı irəliləyişlərə, habelə hüquq mədəniyyətinin yüksəlməsinə töhfə verəcəkdir.

**Səbinə Əliyeva**

Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

## I fəsil

## İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ

### 1.1. Mülki və siyasi hüquqların müdafiəsi

***Azadlıq hüququ.*** Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, azadlıq hüququ Azərbaycan Respublikasının ərazisində olan hər kəsin qanuni surətdə sərbəst hərəkət etmək, özünə yaşayış yeri seçmək, Azərbaycan Respublikasının ərazisindən kənara getmək və Azərbaycan Respublikası vətəndaşlarının maneəsiz öz ölkəsinə qayıtmaq hüququnu əhatə edir.

Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi onun azadlıq hüququnun və digər hüquqlarının qanunvericiliklə müəyyən edilmiş qaydada sərbəst və maneəsiz həyata keçirilməsini təmin edir.

İl ərzində şəxsiyyət vəsiqəsi, yaşayış yeri və olduğu yer üzrə qeydiyyatla əlaqədar Ombudsmanın ünvanına daxil olmuş şikayətlər əsas etibarilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 aprel tarixli, 55s saylı Sərəncamına əsasən, polis orqanlarının inzibati binalarının ünvanı üzrə qeydiyyatda olan şəxslərin qeydiyyatdan çıxarılması, yaşayış yeri olmayan şəxslərin müvafiq sərəncama uyğun olaraq polis orqanlarının inzibati binalarının ünvanı üzrə qeydiyyata alınmalarından imtina edilməsi halları ilə bağlı olmuşdur. Həmin şikayətlər üzrə qanunvericiliklə müəyyən olunmuş qaydada araşdırmalar aparılaraq qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi Ə. (9483-24) Ombudsmana müraciət edərək, yaşayış yeri üzrə qeydiyyatı olmadığından etibarlıq müddəti bitmiş şəxsiyyət vəsiqəsinin dəyişdirilməsindən imtina edildiyini, bu səbəbdən Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş hüquqlarından məhrum olunduğunu bildirmiş, qeydiyyata alınaraq yeni şəxsiyyət vəsiqəsi ilə təmin olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış sorğuya verilmiş cavabda ərizəçinin yaşayış yeri üzrə qeydiyyata alınması üçün müvafiq sənədlərlə “ASAN xidmət” mərkəzinə müraciət edəcəyi təqdirdə yaşayış yeri üzrə qeydiyyata alına biləcəyi qeyd edilsə də, həmin şəxsin qeydiyyat məsələsinə baxılarkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 aprel tarixli, 55s saylı Sərəncamının tələbləri nəzərə alınmamışdır. Lakin nazirliyə təkrar müraciətdən sonra ərizəçinin qeydiyyata alınması təmin edilmişdir.

Bir sıra hallarda qeydiyyatdan çıxarılmış şəxslərin şəxsiyyət vəsiqələrinin etibarsız olması əmək müqavilələrinin bağlanmasını, təhsil müəssisələrinə qəbulu, tibbi və digər xidmətlərdən istifadəni mümkünsüz edir ki, bu da nəticə etibarilə həmin şəxslərin sosial təminat, sağlamlığın qorunması, təhsil və digər hüquqlarının məhdudlaşdırılmasına səbəb olur.

Yeri gəlmişkən, bir çox insanların yaşayış yeri və olduğu yer üzrə qeydiyyatla əlaqədar üzləşdikləri problemlərin aradan qaldırılması və onların öz hüquqlarından yetərincə istifadə etmələrinə şərait yaradılması məqsədilə özbaşına tikililərin və yeni tikililərdə olan mənzillərin dövlət qeydiyyatına alınması prosesinin sürətləndirilməsi zəruridir.

Qeyd edilənlərlə yanaşı, yaşayış yerinin alqı-satqısı zamanı yeni mülkiyyətçi tərəfindən həmin ünvana əvvəllər qeydiyyata götürülmüş şəxslərin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmasının məhkəmədənkənar sadələşdirilmiş mexanizminin (yeni mülkiyyətçinin ərizəsi əsasında) tətbiqi ilə bağlı “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat

haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq dəyişikliyin edilməsi də məqsədəmüvafiqdir.

Doğumun qeydə alınması, qeydiyyat barədə məlumatların müvafiq elektron sistemə yerləşdirilməsi, habelə yeni doğulmuş uşaqlara valideynlərin istəyinə uyğun adların verilməsi məsələləri də azadlıq hüququnun təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir edən amillərdəndir. Ombudsmana ünvanlanmış bu qəbildən olan müraciətlər üzrə də araşdırmalar aparılmış və qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi R. (1687-24) Ombudsmana müraciət edərək, yeni doğulmuş övladının adının onun istəyinə uyğun ad ilə qeydə alınmasından Göyçay Rayon Qeydiyyat Şöbəsi tərəfindən imtina edildiyini bildirmiş, məsələnin həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladına istədiyi ad verilərək doğumu qeydə alınmış və doğum haqqında şəhadətnamə ilə təmin edilmişdir.

Ərizəçi İ. (7890-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, 2008-ci ildə doğulmuş övladına Qaradağ Rayon Qeydiyyat Şöbəsi tərəfindən doğum haqqında şəhadətnamə verildiyini, lakin valideynlərə dair məlumatların müvafiq mərkəzləşdirilmiş elektron sistemə daxil edilmədiyini bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanlanmış müraciətdən sonra rayon qeydiyyat şöbəsi tərəfindən ərizəçinin övladının doğumu haqqında akt qeydinə dair məlumatlar informasiya sisteminə yerləşdirilmişdir.

Azərbaycan Respublikasının ərazisində olan hər kəsin ölkə ərazisindən kənara getmək və Azərbaycan Respublikası vətəndaşlarının maneəsiz öz ölkəsinə qayıtmaq hüququ azadlıq hüququnun mühüm elementlərindən biridir.

Azərbaycan Respublikası ərazisindən çıxışa qoyulmuş məhdudiyyətlərin aradan qaldırılmasına dair Ombudsmanın ünvanına daxil olmuş bir sıra müraciətlərlə bağlı aidiyyəti üzrə sorğular göndərilmiş, pozulmuş hüquqların bərpası istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi M. (3745-24) Ombudsmana müraciət edərək, barəsində cinayət təqibinin aparılmadığını, buna baxmayaraq, ölkədən çıxmaq hüququnun Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən məhdudlaşdırıldığını bildirmişdir. Şikayətlə bağlı həmin nazirliyə müraciətdən sonra məsələ öz müsbət həllini tapmışdır.

Ərizəçi K. (8696-24) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş mütəşəkkil cinayətkarlıqla mübarizə idarəsi tərəfindən ölkədən çıxışına məhdudiyyət qoyulduğunu bildirmiş, barəsində tətbiq edilmiş məhdudiyyətin səbəbinin ona izah edilməsində və hüquqlarının müdafiəsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı həmin nazirliyə müraciətdən sonra məsələ öz müsbət həllini tapmışdır.

Şikayətlərin təhlili onu göstərir ki, şəxsin ölkədən çıxışına məhdudiyyət qoyulduğu bəzi hallarda həmin şəxs bu barədə məlumatlı olmur. Belə olduqda şəxs onun barəsində məhdudiyyətin tətbiq edilməsinə dair məlumatı şəxsiyyət vəsiqəsini (ümumvətəndaş pasportunu) dəyişdirdikdə və ya sərhədi keçdikdə əldə etmiş olur ki, bu da həmin şəxs üçün vaxt və vəsait itkisinə, habelə digər hüquqlarının məhdudlaşdırılmasına səbəb olur.

Qeyd edilənləri nəzərə alaraq, ölkədən getmək və ölkəyə gəlmək hüququ məhdudlaşdırılan şəxslər barədə məlumatların "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edilərkən həmin şəxslərə bu barədə bildirişin dərhal göndərilməsinə dair imperativ tələbin qanunvericiliklə təsbit olunması zəruridir.

Suriya Ərəb Respublikasında döyüşən silahlı dəstələrin girovluğunda olan Azərbaycan Respublikası vətəndaşlarının ölkəyə qaytarılması və hüquqlarının müdafiəsi məsələləri əvvəlki illərdə olduğu kimi Ombudsmanın diqqətində olmuşdur.

Son illərdə bir sıra şəxslər Ombudsmana müraciətlər edərək, Suriya Ərəb Respublikasının ərazisində yerləşən düşərgələrdə girovluqda saxlanılan yaxın qohumlarının, xüsusilə qadın və uşaqların ölkəmizə qaytarılmasında köməklik göstərilməsini xahiş etmişlər. Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası ilə bağlı Ombudsman dəfələrlə həmin ərizəçiləri qəbul etmiş, müraciətlərini dinləmişdir.

Qeyd olunan məsələ ilə bağlı Ombudsman aidiyyəti dövlət orqanları ilə əməkdaşlığı davam etdirmiş, vətəndaşlarımızın ölkəyə qaytarılması istiqamətində tədbirlərin görülməsi üzrə təkliflər verilmişdir.

Həmin fəaliyyət çərçivəsində il ərzində bir sıra Azərbaycan Respublikası vətəndaşlarının Suriyadan ölkəmizə repatriasiyası həyata keçirilmişdir. Həmin repatriantlarla görüşlər keçirilmiş, onların yerləşdirildikləri müəssisədə həyata keçirilmiş reabilitasiya tədbirləri barədə məlumatlar əldə edilmiş, hüquqlarının müdafiəsi istiqamətində zəruri tədbirlər görülmüşdür. Görüşlər zamanı onların ümumi və psixoloji durumu qiymətləndirilmiş, problemləri və ehtiyacları öyrənilmiş, repatriantlara Ombudsmanın fəaliyyəti, ona müraciət imkanları barədə məlumat verilmişdir.

Repatriantların hüquqlarının təmin olunmasına dair Ombudsmana ünvanlanan müraciətlər üzrə görülmüş tədbirlər nəticəsində uşaqlara doğum haqqında şəhadətnamələrin verilməsi, onların sosial yardımla təmin edilməsi, psixoloji dəstək xidmətlərinin göstərilməsi və digər bu kimi məsələlər təmin edilmişdir.

***Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi.*** Ombudsmanın Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində saxlanılan şəxslərlə rəftar məsələləri, saxlanma şəraiti, habelə müvafiq sənədləşmənin araşdırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 126, Daxili İşlər Nazirliyinin müəssisələrinə 90, Elm və Təhsil Nazirliyinin müəssisələrinə 75, Səhiyyə Nazirliyinin müəssisələrinə 25, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə 21, Dövlət Miqrasiya Xidmətinin müəssisələrinə 9, Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələrinə 3, Müdafiə Nazirliyinin müəssisələrinə 2, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin müvəqqəti saxlama yerinə 1 başçəkmə həyata keçirilmişdir. Bunlardan 108-i plandankənar olmuşdur.

Başçəkmələr zamanı şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər konfidensial qaydada qəbul edilmiş, onların hüquqlarının təmini vəziyyəti, o cümlədən müəssisələrdə saxlanma şəraiti, rəftar, tibbi xidmət, görüş, telefon danışığı və bu kimi digər məsələlər, habelə mətbuatda və sosial şəbəkələrdə həmin şəxslər barədə yayımlanmış məlumatlar araşdırılmış, əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində Ombudsmanın tövsiyələrinin icra vəziyyəti yoxlanılmışdır.

Başçəkmələrin gedişində qəbul edilmiş şəxslərin müraciətləri araşdırılmış, qaldırılmış bəzi məsələlər yerində həll olunmuş, zəruri hallarda Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Daxili İşlər Nazirliyinə, Ədliyyə Nazirliyinə, Elm və Təhsil Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və digər aidiyyəti dövlət qurumlarına müraciətlər edilmişdir. Araşdırmaların nəticələri barədə müraciət edən şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada cavablar verilmişdir.

Başçəkmələr zamanı Ombudsmanın “916” Çağrı Mərkəzi ilə bağlı məlumat lövhələrinin mövcudluğu monitorinq edilmiş və çatışmazlıqlar müəyyən olunmuş müəssisələrdə həmin lövhələrin asılması təmin edilmişdir.

Monitorinqlərin aparıldığı müəssisələrdə təmir-bərpa işlərinin həyata keçirilməsi, bəzi hallarda yeni müəssisələrin tikilib istifadəyə verilməsi şəxslərin saxlanma şəraitinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir.

Lənkəranda müasir penitensiar kompleksin istifadəyə verilməsi xüsusilə qeyd olunmalıdır. Ümumi saxlama limiti 1300 nəfər olan və iki hissədən ibarət olmaqla inşa

edilmiş kompleks Lənkəran və ətraf rayonlardan olan təqsirləndirilən şəxslərin və məhkumların saxlanılmasına, bununla da həmin şəxslərin ailə üzvləri ilə vaxt itkisi olmadan və əlavə yol xərcləri çəkmədən görüşmələrinə şərait yaradacaqdır.

Qeyd olunan müəssisənin istifadəyə verilməsi sıxlığın azalmasına şərait yaratsa da, ötən il həyata keçirilən başçəkmələr zamanı Bakı İstintaq Təcridxanası, 2 saylı İstintaq Təcridxanası, 7, 15 və 17 saylı cəzaçəkmə müəssisələrində bu problemin hələ də qaldığı müşahidə edilmişdir.

Məlum olduğu kimi, "Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 noyabr 2009-cu il tarixli 2 saylı Qərarında məhkəmələrə həbs qətimkan tədbirinin seçilməsi haqqında təqdimata baxarkən ilk növbədə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 154-cü maddəsində nəzərdə tutulmuş digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünün yoxlanılması, təqdimat təmin edildikdə isə həbslə əlaqədar olmayan qətimkan tədbirinin seçilməsinin qeyri-mümkün olmasının əsaslandırılması tövsiyə olunur.

Bununla yanaşı, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar cəza siyasətinin humanistləşdirilməsini və cinayətlərin dekriminallaşdırılmasını, qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına əməl olunmasını, alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsini nəzərdə tutur.

Buna baxmayaraq, təhlillərin nəticəsi onu deməyə əsas verir ki, həbsə alternativ qətimkan tədbirləri olduqca az hallarda tətbiq olunmaqdadır. Ombudsman şəxsi cəmiyyətdən təcrid etmədən azadlıqdan məhrum etməklə əlaqədar olmayan cəzaların və həbsə alternativ qətimkan tədbirlərinin (ev dustaqlığı, girov, şəxsi zaminlik və s.) tətbiqi praktikasının genişləndirilməsini zəruri hesab edir.

Həbsə alternativ qətimkan tədbirlərinin seçilməsi, istintaq hərəkətlərinin mümkün qədər qısa müddətdə yekunlaşdırılması, prokurorluq tərəfindən prosessual nəzarətin gücləndirilməsi, habelə azadlıqdan məhrumetməyə alternativ cəzalara üstünlük verilməsi penitensiar müəssisələrdəki sıxlıq probleminin aradan qaldırılmasına da müsbət təsirini göstərəcəkdir.

Həbs edilmiş şəxslər və məhkumlar saxlanma rejimindən asılı olmayaraq istənilən vaxt tibbi xidmətə çıxış imkanına malik olmalı, həkim müayinəsi barədə müraciətlər lüzumsuz yubanmalar olmadan təşkil edilməlidir.

Müəssisələrdəki sıxlıq problemi tibbi müayinə və müalicədə gecikmə hallarına da səbəb olur. 2024-cü il ərzində Penitensiar Xidmətin Müalicə Müəssisəsinə gətirilmiş məhkumların və təqsirləndirilən şəxslərin ilkin müayinələrdən (rentgen, laborator, USM) keçirilməsi və aidiyyəti üzrə müalicə şöbələrinə köçürülməsi əsas etibarilə 3-4 gün çəkmişdir. Müayinəsi yekunlaşmış bəzi məhkumların köçürüləcəkləri şöbələrdə mövcud olan sıxlıq səbəbi ilə bir müddət müəssisənin qəbul şöbəsində saxlanılması ciddi narahatlıq doğuran məqamlardandır.

Müəssisədə Kompüter Tomoqrafiyası (KT) və Maqnit-Rezonans Tomoqrafiyası (MRT) müayinələrinin həyata keçirilməsi üçün müvafiq avadanlıqların olmaması xüsusi vurğulanmalıdır. Təcili MRT, KT, biopsiya kimi müayinələrə ehtiyac duyulan xəstələrin həmin müayinələrdən digər tibb müəssisələrində keçirilməsi işinin təşkilində də ləngimələr müşahidə olunur. Məsələn, 19.04.2024-cü il tarixdə Müalicə Müəssisəsinə daxil olmuş, 22.04.2024-cü il tarixdə isə kəskin radikulopatiya diaqnozu ilə həmin müəssisənin nevrologiya şöbəsinə göndərilmiş məhkuma MRT müayinəsindən keçiriləcəyi barədə məlumat verilsə də, 22.05.2024-cü il tarixə qədər zəruri tədbirlər görülməmişdir.

Sıxlıq probleminin tibbi xidmətlərə çatımla bağlı mənfi təsirlərinin aradan qaldırılması məqsədilə, xüsusən də istintaq təcridxanalarında saxlanılan şəxslərin sayının çox olması nəzərə alınaraq, həm tibbi heyət, həm də dərman və digər tibbi

ləvazimatların müəssisənin saxlanma limitinə deyil, saxlanılan şəxslərin faktiki sayına uyğunlaşdırılması zəruridir.

Penitensiar Xidmət müəssisələrinə başçəkmələr zamanı istifadəyə yararlılıq müddəti bitmiş dərman vasitələri aşkar edilmiş (2 saylı istintaq təcridxanası, 15 saylı cəzaçəkmə müəssisəsi), müəssisələrin tibbi-sanitariya hissələrinin qeydiyyat jurnallarında zəruri qeydlərin aparılmadığı və ya natamam aparıldığı (2 saylı istintaq təcridxanası, 5 və 7 saylı cəzaçəkmə müəssisələri) müşahidə edilmişdir. Bəzi müəssisələrdə dərman təminatının qənaətbəxş olmadığı, xüsusilə nevroloji xəstəliklərdən (epilepsiya, serebral iflic və digər), habelə İİV/QİÇS və şəkərli diabetdən əziyyət çəkənlər üçün dərmanların ümumiyyətlə verilmədiyi (2 və 5 saylı cəzaçəkmə müəssisələrində) müəyyən edilmişdir. Başçəkmələr zamanı bəzi müəssisələrdə dərman preparatlarının saxlanma qaydalarına riayət edilmədiyi, xüsusi soyuducuda saxlanılması zəruri olan dərmanların açıqda saxlanılması halları (5 saylı cəzaçəkmə müəssisəsi) aşkar edilmişdir. Başçəkmə çərçivəsində həyata keçirilən qəbullar zamanı bəzi məhkumlar tibbi xidmətlərdən şikayət etmiş, həkim qəbuluna düşməyin çətin olduğunu, ümumiyyətlə müayinə və müalicə olunmaqda çətinliklərlə üzləşdiklərini bildirmişlər.

Məlum olduğu kimi, cinayət qanunvericiliyinə əsasən, məhkəmələr tərəfindən təyin edilən azadlıqdan məhrum etmə növündə cəzanın müddətindən asılı olaraq xarakteri və ictimai təhlükəlilik dərəcəsi eyni olan cinayət əməlini törətmiş şəxslərin cəzalarını fərqli cəzaçəkmə müəssisəsində çəkmələri təsbit edilir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 56-cı maddəsinə əsasən, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər cəzalarını məntəqə tipli cəzaçəkmə müəssisələrində, beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər isə ümumi rejimli cəzaçəkmə müəssisələrində cəza çəkirlər. Həmin maddəyə əsasən, qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər də cəzasını ümumi rejimli cəzaçəkmə müəssisələrində çəkirlər.

Ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin qəsdən az ağır və ya ağır cinayətlər törətmiş şəxslərlə eyni rejimli cəzaçəkmə müəssisəsində saxlanılması onların qəsdən cinayət törətmiş şəxslərin təsiri altına düşməsinə səbəb olmaqla yanaşı, islah olunmalarına neqativ təsir göstərə bilər.

BMT-nin Məhbuslarla davranışın minimal standart qaydalarına (Nelson Mandela Qaydaları) əsasən, müxtəlif kateqoriyadan olan məhkumlar onların cinsi, yaşı, əvvəllər məhkum olunması, həbs edilməsinin hüquqi səbəbləri və onlarla davranışa dair zərurət nəzərə alınmaqla, ayrı-ayrı müəssisələrdə, yaxud eyni müəssisənin müxtəlif hissələrində saxlanılmalıdırlar. Bu Qaydalara əsasən, təsnifatın əsas məqsədi məhbusların cinayətkar keçmişi, yaxud xarakterinin mənfi cəhətləri ilə onlara pis təsir göstərmək təhlükəsi doğuranlardan ayırmaq və məhbusları cəmiyyət həyatına qaytarmaq məqsədilə onlarla aparılan işi asanlaşdıran kateqoriyalara bölməkdir.

Qeyd olunanlar, habelə ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzalarını ən yüngül rejimli cəzaçəkmə müəssisələrində çəkmələri ilə bağlı xarici ölkələrin təcrübəsi nəzərə alınaraq, məntəqə tipli cəzaçəkmə müəssisələrinin əsasında ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər üçün nəzərdə tutulan ayrıca cəzaçəkmə müəssisələrinin yaradılması və təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzasının həmin müəssisələrdə çəkilməsinin qanunvericiliklə təsbit edilməsi məqsədəmüvafiq hesab edilir.

Bundan başqa, qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş 18-24 yaş arası şəxslər üçün xüsusi cəzaçəkmə müəssisəsinin yaradılması və yetkinlik yaşına çatmayan şəxslər üçün tərbiyə müəssisələrində cəza çəkən və 18 yaşı tamam olmuş şəxslərin həmin müəssisələrə göndərilməsi də məqsədəmüvafiq olardı. Ali təhsil imkanlarının da

təmin ediləcəyi belə müəssisənin yaradılması saxlanılan şəxslərin islah olunması prosesinə, habelə cəzalarını çəkib qurtardıqdan sonra onların sosial adaptasiyasına da müsbət təsirini göstərə bilər. Qeyd edilən müəssisələrin yaradılması penitensiar müəssisələrdə mövcud sıxlıq probleminin həllinə də müsbət təsir göstərə bilər.

Məlum olduğu kimi, Ombudsmanın da təklifi nəzərə alınaraq, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin həftədə iki dəfə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin isə həftədə bir dəfə, müddəti on beş dəqiqə olmaqla videogörüş keçirmək hüququ təsbit edilmişdir.

Təhlillərə əsasən, 2024-cü ildə bəzi müəssisələrdə saxlanılan şəxslərin videogörüş keçirmək hüququ ilə bağlı müəyyən məhdudiyyətlərin tətbiq edildiyi müəyyən olunmuşdur ki, bunun da səbəbləri kimi bəzi hallarda videogörüşlərin sosial şəbəkələrdə yerləşdirilməsi, digər hallarda isə texniki imkanların məhdud olması göstərilmişdir.

Yeri gəlmişkən, Ombudsman "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişiklik edilməklə tutulmuş və həbs edilmiş şəxslərin də yaxınları ilə videogörüş keçirmək hüququnun təsbit edilməsini təklif edir.

Penitensiar Xidmətin müəssisələrinə başçəkmələr zamanı müxtəlif kateqoriyadan olan şəxslərin birgə saxlanılmasına da rast gəlmək mümkündür. Qanunvericiliklə əksi təsbit olunsa da, Penitensiar Xidmətin 2 saylı İstintaq təcridxanasına başçəkmələr zamanı ilk dəfə cinayət törətməkdə təqsirləndirilən şəxslərin əvvəllər azadlıqdan məhrumetmə növündə cəza çəkmiş şəxslərlə, habelə yetkinlik yaşına çatmayan şəxsin yetkinlik yaşına çatanlarla birgə saxlanıldığı müşahidə edilmişdir.

Müxtəlif kateqoriyalardan olan şəxslərin bir yerdə saxlanılması hallarına müvəqqəti saxlama yerlərinə həyata keçirilən başçəkmələr zamanı da rast gəlmək mümkündür.

2024-cü ildə də Bakıda və regionlarda yerləşən bir sıra müvəqqəti saxlama yerlərinə (MSY) başçəkmələr zamanı ilk dəfə cinayət törətməkdə şübhəli bilinən şəxsin əvvəllər azadlıqdan məhrum edilmiş şəxslə birgə saxlanılması halları aşkar edilmiş, bununla bağlı qanunvericiliyin tələbləri polis əməkdaşlarına izah edilmişdir. Müəssisə rəhbərliyi və əməkdaşlarla aparılan izahat işləri zamanı bəzən onların qanunvericiliyin bu tələbi barədə məlumatlı olmadıqları müəyyən edilmişdir.

Başçəkmələrin nəticələri onu deməyə əsas verir ki, bəzi MSY-lərin kameralarında işıqlandırmaya, istiliyin verilməsinə, saxlanılan şəxslərin sayına görə oturacaqların olmasına, gəzinti yerinin beynəlxalq standartlara uyğun təşkil edilməsinə, açıq havada fiziki hərəkətlərin icrası üçün zəruri şəraitin yaradılmasına diqqət artırılmalıdır. Qanunvericiliklə müəyyən edilmiş tələb və standartların pozulması ilə əlaqədar nöqsan və çatışmazlıqlar daha çox Saatlı, Sabirabad, Siyəzən və Qax rayon polis şöbələrinin MSY-lərində müşahidə edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki psixiatriya müəssisələrində sıxlıq problemi qalmaqdadır. Bu müəssisələrdə həkim və orta tibb heyəti üzrə kadr çatışmazlığı mövcuddur.

Narkoloji tibb müəssisələrində müalicə üçün növbə gözləyənlərin sayı kifayət qədərdir. Burada da ixtisaslı kadrların - narkoloq və kliniki psixoloqların çatışmazlığı mövcuddur ki, həmin peşə üzrə mütəxəssislərin də sayının artırılması vacibdir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrə keçirilmiş başçəkmələr zamanı əvvəlki monitorinqlərdə verilmiş təklif və tövsiyələrin icra edildiyi müşahidə olunsa da, bəzi nöqsanların hələ də qaldığı müəyyən edilmişdir. Nazirliyin tabeliyindəki əsaslı təmirə ehtiyac olan müəssisələrdə, xüsusilə inteqrasiya təlimli internat tipli gimnaziyalarda saxlanma şəraitinin təkmilləşdirilməsi vacibdir.

Sağlamlıq imkanları məhdud uşaqların təhsil aldıqları internat məktəblərində, xüsusi təhsilə cəlb olunmuş orta və yuxarı sinif şagirdləri üçün müvafiq dərslik və dərs vəsaitlərinin təminatında çatışmazlıqların olduğu aşkar edilmişdir. Belə məktəblərdə

azyaşlıların psixi sağlamlığına göstərilən diqqətin artırılması, uşaqlarla psixoloji işin aparılmasında nümunəvi sənədlərin, fərdi iş planlarının formalarının işlənib hazırlanması, bu istiqamətdə məşğələlərin aparılması üçün kabinetlərin əyani vəsaitlərlə təmin olunması zəruridir.

Başçəkmələr zamanı uşaqların asudə vaxtının səmərəli təşkilinə, maraqlarının və qabiliyyətlərinin, o cümlədən peşə maraqlarının öyrənilməsinə ehtiyacın olduğu müəyyən edilmişdir. Əksər məktəblərdə əmək təlimi və peşə hazırlığı işlərinin aparılması üçün maddi-texniki bazanın, emalatxanaların olmadığı müşahidə edilmişdir.

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində başçəkmə həyata keçirdiyi və şəhər icra hakimiyyəti orqanlarının tabeliklərində olan uşaq evləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 dekabr tarixli 436 saylı Qərarı ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilmişdir.

2024-cü ildə qeyd edilən müəssisələrin əsasında publik hüquqi şəxslər yaradılmaqla Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilməsi prosesi yekunlaşmışdır. Bu müəssisələrin sosial xidmət göstərilməsi üzrə ixtisaslaşmış qurumun tabeliyinə verilməsi valideyn himayəsindən məhrum olmuş uşaqların sosial təminatı və müdafiəsinin gücləndirilməsinə, onların cəmiyyətə reinteqrasiyası istiqamətində sistemli tədbirlərin görülməsinə, ümumilikdə bu kateqoriyadan olan uşaqların hüquqlarının daha yaxşı təmin olunmasına əlverişli imkan yaradır. Həmin müəssisələrə keçirilən başçəkmələrin nəticələri islahatların və yeni yanaşmaların tətbiqinə burada da ehtiyac olduğunu göstərməkdədir.

Başçəkmələr zamanı sosial xidmət müəssisələrində kadr çatışmazlığının mövcudluğu və vakant ştatların komplektləşdirilməsinə ehtiyac olduğu müəyyən edilmişdir. Psixoloq ştatının (məsələn, 3 saylı psixonevroloji sosial xidmət müəssisəsində) vakant olması müəssisə sakinlərinin “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanunu ilə təsbit edilmiş ödənişsiz psixoloji yardım almaq hüququnun təminində çətinliklərə səbəb olur. 4 saylı uşaq evi sosial xidmət müəssisəsində ixtisaslı loqoped ştatı olmadığına görə burada yaşayan nitq pozuntuları olan uşaqların loqoped xidmətlərindən istifadəsi digər müəssisədə həyata keçirilir. Odur ki, uşaq evi sosial xidmət müəssisələrinə loqoped ştat vahidinin ayrılması məqsədəmüvafiqdir.

Sosial xidmət müəssisələrinə həyata keçirilən başçəkmələr zaman sakinlərin bəzilərinin şəxsiyyətini təsdiq edən sənədlərin mövcud olmadığı müəyyən edilmişdir. Məsələn, 3 saylı psixonevroloji sosial xidmət müəssisəsində 8 nəfərin, 4 saylı psixonevroloji sosial xidmət müəssisəsində 5 nəfərin, ahıl şəxslər üçün sosial xidmət müəssisəsində 9 nəfərin müxtəlif səbəblərdən şəxsiyyət vəsiqələrinin olmadığı müəyyən edilmişdir. Bu isə həmin şəxslərin əlilliyinin qiymətləndirilməsində çətinliklərə səbəb olur. Bu şəxslərin arxiv sənədlərinin aşkar edilməsi və ya məhkəmə qaydasında hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi məqsədilə onlara hüquqi yardımın təşkil edilməsi zəruridir.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Bakı şəhərindəki Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə həyata keçirilən başçəkmə zamanı, orada saxlanılan şəxslər verilən qidaların çeşidi və miqdarından şikayət etmişlər. Mərkəzdə tibbi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına, dərman təchizatına və qidalanma məsələlərinə diqqətin artırılmasına ehtiyac vardır.

Yevlax rayonundakı Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə həyata keçirilmiş başçəkmə zamanı həkim ştatının vakant olduğu müəyyən edilmişdir. Bu isə əcnəbilərin Mərkəzə qəbul edildiyi andan 24 saat müddətində həkim tərəfindən tibbi müayinədən keçirilməsi, hər bir qəbul edilən əcnəbiyə tibbi kitabça tərtib olunması ilə bağlı tələblərin yerinə yetirilməsində çətinliklər yaradır. Mərkəzdə rentgenoloji və laborator müayinələr üçün müvafiq avadanlıqların olmadığı da müşahidə edilmişdir.

Ümumiyyətlə, il ərzində həyata keçirilən başçəkmələr zamanı şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi əksər müəssisələrdə ixtisaslı kadr, o cümlədən həkim çatışmazlığının olduğu aşkar edilmişdir. Ombudsman yaşa görə təqaüdə çıxmış ixtisaslı kadrların belə müəssisələrdə işlə təmin olunması üçün müvafiq mexanizmin işlənib hazırlanmasını tövsiyə edir.

Ombudsmanın Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumu (TİHEK) ilə əməkdaşlığı çərçivəsində imzalanmış Anlaşma Memorandumuna əsasən, qurumun rəhbəri və əməkdaşlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri ilə birlikdə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə - Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Umbakı Penitensiar Kompleksinə və Qaradağ Rayon Polis İdarəsinin müvəqqəti saxlama yerinə başçəkmələr keçirilmiş və Azərbaycan təcrübəsi öyrənilmişdir.

***İnformasiya əldə etmək hüququ.*** İnformasiya əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə reallaşdırılması bütün sahələrdə aşkarlığın və şəffaflığın təmin olunmasına, insan hüquq və azadlıqlarının daha səmərəli həyata keçirilməsinə şərait yaradır.

Ombudsman informasiya əldə etmək hüququnun təmin edilməsi, bu hüququn pozulması ilə bağlı daxil olan şikayətlərə baxılması, maarifləndirmə işinin təşkili, habelə monitorinq və təhlilin aparılması istiqamətində fəaliyyətini davam etdirmişdir.

İnformasiya sahibi olan dövlət orqanları, bələdiyyələr və onların vəzifəli şəxsləri tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər üzrə araşdırmalar aparılmış, pozuntu hallarının aradan qaldırılması istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Ərizəçi F. (9266-24) Ombudsmana müraciət edərək, dissertasiya işinin hazırlanması məqsədilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Energetika Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ünvanladığı informasiya sorğularına cavab verilmədiyini bildirmişdir. Şikayətlə əlaqədar həmin qurumlara müraciətlərdən sonra ərizəçinin informasiya sorğusu təmin olunmuşdur.

Ərizəçi A. (585/15-24) Ombudsmana müraciət edərək, Saatlı şəhəri V.Əsgərov adına 4 nömrəli tam orta məktəbin direktoruna ünvanlandığı informasiya sorğusunun təmin olunmadığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ünvanlanmış müraciətdən sonra vətəndaşın informasiya sorğusu cavablandırılmışdır.

İnformasiya sahibi olaraq Ombudsmana ünvanlanmış informasiya sorğularına da qanunvericiliyin tələblərinə uyğun qaydada və müddətlərdə cavablar verilmişdir.

Ərizəçi A.-nın (5758-24) Ombudsmana ünvanladığı informasiya sorğusuna baxılaraq, qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə bağlı müraciətlərin araşdırılması, zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası istiqamətində Ombudsman tərəfindən görülən tədbirlər barədə ona məlumat verilmişdir.

Ərizəçi Y-nin (1445/5-24) Ombudsmana ünvanladığı informasiya sorğusuna baxılaraq, Ombudsmanın uşaqların hüquqlarının, o cümlədən təhsil hüququnun təmini sahəsindəki fəaliyyəti, müraciətlərin araşdırılması və dövlət uşaq müəssisələrinə həyata keçirilən başçəkmələr, habelə Ombudsmanın "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsi üzrə Monitorinq Qrupu barədə ona məlumat verilmişdir.

İnformasiya əldə etmək hüququnun müdafiəsi sahəsində ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Xaçmaz və Şabran rayonlarında, habelə Bakı şəhərinin Qaradağ rayonunda maarifləndirmə tədbirləri həyata keçirilmiş, mövzu ilə əlaqədar təqdimat nümayiş etdirilmiş, fikir mübadiləsi aparılmış, iştirakçıların sualları cavablandırılmışdır.

Astara rayonunda keçirilmiş tədbirdə dövlət qurumlarının nümayəndələrinə və informasiya sahibi olan digər vəzifəli şəxslərə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri və bu sahədə Ombudsmanın nəzarət funksiyaları barədə məlumat verilmişdir.

Ombudsman tərəfindən 2024-cü il üzrə təsdiq olunan insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqində səmərəliliyin artırılması ilə bağlı maarifləndirməyə dair tədbirlər planı çərçivəsində Ombudsman Aparatında informasiya sahibi olan bir sıra dövlət qurumlarının əməkdaşları üçün "İnformasiya əldə etmək hüququnun təmin edilməsi sahəsində Ombudsmanın fəaliyyəti" mövzusunda hibrid formatda təlim təşkil olunmuşdur.

İnformasiya əldə etmək hüququ sahəsində təcrübə mübadiləsinin aparılması məqsədilə Ombudsman bir sıra beynəlxalq qurumlarla, eləcə də xarici ombudsman və milli insan hüquqları institutları ilə sıx əməkdaşlıq etmişdir.

Məlum olduğu kimi, Ombudsman təsisatı özündə informasiya ombudsmanlarını, habelə bu sahədə fəaliyyət göstərən digər qurumları birləşdirən İnformasiya Komissarlarının Beynəlxalq Konfransının (ICIC) institusional üzvüdür. Bu əməkdaşlıq çərçivəsində Ombudsman Albaniya Respublikasının paytaxtı Tirana şəhərində keçirilən "Fərdlərin informasiyaya çatım vasitəsilə səlahiyyətləndirilməsi: qarşılıqlı əməkdaşlıqda şəffaflığın və inklüzivliyin təmin edilməsi" mövzusunda İnformasiya Komissarlarının XV Beynəlxalq Konfransında iştirak etmişdir. İnformasiya əldə etmək hüququnun müdafiəsi və təşviqində informasiya komissarlarının rolunun gücləndirilməsi, müsbət təcrübənin öyrənilməsi istiqamətində fikir mübadiləsinin aparılması məqsədilə təşkil olunan bu konfransda Ombudsmanın bu sahədə fəaliyyəti barədə geniş məlumat verilmiş, işğaldan azad edilmiş ərazilərimizdəki mina probleminin həllinin ICIC üzvləri tərəfindən dəstəklənməsinə dair çağırış edilmişdir. Səfər çərçivəsində Ombudsman və Albaniya Respublikasının İnformasiya və Məlumatların Mühafizəsi üzrə Müvəkkili arasında informasiya əldə etmək hüququ sahəsində ikitərəfli əməkdaşlığın inkişafı məqsədilə anlaşma memorandumu imzalanmışdır.

Ombudsmanların Beynəlxalq Bakı Forumu çərçivəsində müxtəlif ölkələrin milli insan hüquqları təsisatlarının, o cümlədən ombudsmanlarının və informasiya komissarlarının, dövlət qurumlarının, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, iqlim dəyişikliyi və insan hüquqları sahəsində ekspertlərin iştirakı ilə "İqlim dəyişikliyi və onun təsirləri haqqında məlumata ictimai əlçatanlıq" adlı panel sessiyası təşkil edilmiş, informasiya təhlükəsizliyinin təmin olunması, dezinformasiyanın qarşısının alınması kimi məsələlər müzakirə olunmuşdur.

İl ərzində Ombudsman Aparatının əməkdaşları ICIC tərəfindən təşkil edilmiş "Şəffaflıq üçün Rəqəmsal Alətlərin İdarə Olunması" və "Dövlət Sektorunda İnformasiyaya Əlçatanlıq: Dürüstlük, Əsaslandırma və Gələcək Çağırışlar" adlı onlayn tədbirlərdə də iştirak etmişlər.

***Seçki hüququ.*** Demokratik cəmiyyətlərin əsasını təşkil edən seçki hüququ vətəndaşların siyasi proseslərdə bilavasitə iştirakının təmin olunmasında əsaslı rola malikdir.

Azərbaycan Respublikasının Konstitusiyası vətəndaşların dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququnu təsbit edir.

Məlum olduğu kimi, 2024-cü il növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərinin və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi ilə əlamətdar və yaddaqalan olmuşdur.

Xüsusi olaraq qeyd edilməlidir ki, dövlətimizin həyatında mühüm əhəmiyyət kəsb edən bu seçkilər ilk dəfə olaraq suveren ölkəmizin bütün ərazisində keçirilmişdir.

Həm növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri, həm də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər ərəfəsində Ombudsman təsisatı və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən Bakı, Gəncə, Şəki, Masallı, Quba və Naxçıvan şəhərlərində “Vətəndaşların seçki hüququnun təmini” mövzusunda silsilə maarifləndirmə tədbirləri təşkil olunmuş, eyni zamanda seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi elan edildiyi gündən başlayaraq, yerlərdə seçki təbliğatının aparılması üçün müəyyən edilən açıq və qapalı yerlərdə müşahidələr aparılmış, vətəndaşların seçki hüququnun təmini, seçki qanunvericiliyinin tələblərinin icrası vəziyyəti dəyərləndirilmişdir.

Növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri günü Ombudsman və təsisatın əməkdaşları Bakıda və digər 41 şəhər və rayonda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yerləşən yaşayış məntəqələri və Naxçıvan Muxtar Respublikası da daxil olmaqla 115 seçki dairəsi üzrə 885 seçki məntəqəsində öz təşəbbüsləri ilə müşahidələr aparmışlar.

Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər zamanı Ombudsman və təsisatın əməkdaşları tərəfindən Naxçıvan Muxtar Respublikası da daxil olmaqla ümumilikdə 117 seçki dairəsi üzrə 897 seçki məntəqəsində müşahidələr aparılmışdır.

Müşahidələr zamanı Ombudsman həm məntəqə seçki komissiyalarının üzvləri, həm də müşahidəçi və seçicilərlə bilavasitə görüşmüş, səsvermə prosesi ilə bağlı onların rəylərini öyrənmiş, pozuntu halları və hər hansı bir dövlət qurumunun, o cümlədən icra hakimiyyəti orqanının nümayəndələri və polis əməkdaşları tərəfindən seçkilərə müdaxilə halları müşahidə edilməmişdir.

Göstərilənlərlə yanaşı, seçkilər zamanı siyasi partiyaları, ictimai birlikləri, qeyri-hökumət təşkilatlarını təmsil edən, eyni zamanda müstəqil müşahidəçilərin bir-birinə qarşılıqlı hörmət şəraitində bu prosesdə iştirak etdiyi, öz vəzifələrini qanunvericiliklə müəyyən olunmuş qaydada yerinə yetirdikləri məlum olmuşdur.

Qeyd olunmalıdır ki, seçkilər zamanı əlilliyi olan seçicilərin seçki hüquqlarının həyata keçirilməsi üçün zəruri şərait yaradılmışdır. Növbədənkənar seçkilərdə seçki hüququnun daha səmərəli təmini məqsədilə əlilliyi olan şəxslərin müstəqil şəkildə səs verə bilmələri, seçki bülletenlərindəki məlumatların Brayl əlifbası ilə əks olunduğu trafaretlərdən istifadə imkanlarının yaradılması, videoçarxların alt yazılı hazırlanması sahəsində tətbiq olunan müsbət təcrübə davam etdirilmiş, Ombudsmanın bununla bağlı təklifləri də nəzərə alınmışdır.

Seçkilərin keçirildiyi günlərdə seçki hüququnun pozulması ilə bağlı Ombudsmanın ünvanına şikayət və müraciət daxil olmamış, vətəndaşların seçki hüququ qanunvericiliyin tələblərinə müvafiq qaydada təmin edilmişdir.

Ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edən növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər əhalinin yüksək seçici fəallığı şəraitində, azad, demokratik, şəffaf və ədalətli, seçki qanunvericiliyi və beynəlxalq standartlarla müəyyən edilmiş qaydada keçirilmişdir.

***Məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsi.*** Azərbaycan Respublikasında cinayət prosesi hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir. Cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən bütün şəxslərin ölkə

qanunvericiliyində əks etdirilmiş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidirlər.

Ombudsmana ünvanlanmış şikayətlərin təhlili göstərir ki, müvafiq sahədə müraciətlər, əsasən, ibtidai araşdırmanın və ya istintaqın qeyri-obyektiv aparılması, araşdırmanın gedişatı barədə vətəndaşa məlumat verilməməsi, cinayət işinin başlanmasının əsassız olaraq rədd edilməsi, faktla bağlı cinayət işinin başlanılmaması, əsassız olaraq cinayət işinə xitam verilməsi və ya cinayət işi üzrə icraatın dayandırılması, şikayətlər üzrə prosessual qərarın qəbul edilməməsi və ya müvafiq qərarın surətinin verilməməsi, habelə kobud rəftar kimi məsələlərlə bağlı olmuşdur.

Şikayətlər Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və digər səlahiyyətli dövlət qurumları, o cümlədən istintaq və təhqiqat orqanlarına sorğular əsasında araşdırılmış, pozulmuş hüquqların bərpası istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi A. (428-24) Ombudsmana müraciət edərək, dələduzluğa məruz qalaraq pulunun ələ keçirildiyini, bununla bağlı Qaradağ Rayon Polis İdarəsinin 38-ci Polis bölməsində araşdırmanın qeyri-obyektiv aparıldığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı aparılmış ilkin araşdırma nəticəsində həmin polis bölməsinin təhqiqatçısı tərəfindən faktla bağlı cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın qəbul edildiyi məlum olmuşdur. Qaradağ Rayon Prokurorluğuna ünvanlanmış müraciətdən sonra təhqiqatçı tərəfindən tam, hərtərəfli və obyektiv araşdırma aparılmadığı və cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın əsaslandırılmadan qəbul edildiyi müəyyən olunmuş və həmin qərar ləğv edilərək material əlavə araşdırmanın aparılması üçün aidiyyəti üzrə göndərilmişdir.

Ərizəçi S. (17435-24) Ombudsmana müraciət edərək, övladının döyülərək ona ağır xəsarətlər yetirildiyini, faktla bağlı Gəncə Şəhər Baş Polis İdarəsinin müstəntiqi tərəfindən qanunamüvafiq tədbirlərin həyata keçirilmədiyini bildirmişdir. Şikayətlə bağlı Gəncə Şəhər Prokurorluğuna ünvanlanmış müraciətdən sonra cinayət işi şəhər prokurorluğunda öyrənilmiş, icraatın dayandırılması barədə qərar əsassız olduğundan ləğv edilmiş, cinayət işi istintaqının davam etdirilməsi üçün həmin polis idarəsinə göndərilmişdir.

Ərizəçi Ə. (708/2-24) Ombudsmana müraciət edərək, Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən qanunsuz hərəkətlərə məruz qaldığını, fakt üzrə başlanılmış araşdırmanın Abşeron Rayon Prokurorluğunda qeyri-obyektiv aparıldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğuna ünvanlanmış müraciətdən sonra cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar ləğv edilərək, material əlavə araşdırmanın aparılması üçün Abşeron Rayon Prokurorluğuna göndərilmişdir.

Bir sıra şikayətlərdə əks etdirilmiş halların yoxlanılması ilə bağlı Ombudsmanın sorğuları əsasında həyata keçirilmiş xidməti araşdırmalar nəticəsində bəzi əməkdaşların qanun pozuntularına yol verdiyi müəyyən edilmiş, barələrində müvafiq intizam tənbehi tədbirlərinin tətbiqi təmin olunmuşdur.

Ərizəçi B. (13105-24) Ombudsmana müraciət edərək, idarə etdiyi nəqliyyat vasitəsinin Cəlilabad Rayon Polis Şöbəsinin Post-patrul xidməti bölüyünün polis serjantları tərəfindən saxlanılaraq ona qarşı nalayiq ifadələr işlədildiyini bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış müraciətdən sonra aparılmış xidməti yoxlama nəticəsində həmin polis əməkdaşları intizam məsuliyyətinə cəlb olunmuşlar.

Pulsuz hüquqi yardımdan istifadə etmək hüququnun təmin edilməsi, qanunsuz saxlama, müvəqqəti saxlama yerindən istintaq təcridxanasına köçürülmə hallarında gecikmələr, saxlanılan şəxsin ailə üzvlərinə saxlama barədə məlumat verilməməsi, vəkillərin qanunvericiliklə müəyyən olunmuş qaydada müdafiə və ya təmsil etdikləri şəxslə təklikdə, maneəsiz görüş hüququnun təmin olunmaması kimi hallarla əlaqədar

Ombudsmanın "916" Çağrı Mərkəzinə daxil olan müraciətlər operativ qaydada araşdırılmışdır.

Ərizəçi R. (7941-24) Ombudsmana müraciət edərək, Sabunçu Rayon Polis Şöbəsinin 12-ci Polis Bölməsində əsassız saxlanıldığını və sərbəst buraxılması üçün qanunsuz tələblər irəli sürüldüyünü bildirmiş, zəruri tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış müraciətdən sonra aparılmış xidməti yoxlama nəticəsində polis əməkdaşları tərəfindən qanunsuz tələblər irəli sürülməsi barədə göstərilən xüsusatlar təsdiqini tapmasa da, polis bölməsində izahatı alınmış vətəndaşların vaxtında sərbəst buraxılması təmin edilmədiyinə görə həmin əməkdaşlar barəsində qanunamüvafiq tədbirlər görülmüşdür.

Vəkil F. (4501-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Binəqədi Rayon Polis İdarəsinin 43-cü Polis bölməsində saxlanılan, hüquqlarını müdafiə etdiyi şəxslə görüşməsinə şərait yaradılmadığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı həyata keçirilmiş tədbirlər nəticəsində görüş təmin edilmişdir.

Vəkil O. (4712-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Sabunçu Rayon Polis İdarəsinin 13-cü Polis bölməsində saxlanıldığı güman olunan, hüquqlarını müdafiə etdiyi şəxs barəsində məlumat ala bilmədiyini qeyd etmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı aparılan araşdırma nəticəsində həmin şəxsin Nizami Rayon Polis İdarəsinin 25-ci Polis bölməsində saxlanıldığı məlum olmuş, bu barədə vəkilinə müvafiq məlumat verilmişdir.

Vəkil S. (5986-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Balakən Rayon Polis Şöbəsində saxlanılan hüquqlarını müdafiə etdiyi şəxslə görüşməsinə şərait yaradılmadığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Həyata keçirilmiş tədbirlər nəticəsində görüş təmin olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsi hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnu təsbit edir. Həmin maddəyə əsasən hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır. Eyni zamanda, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

Bununla belə, cinayət mühakimə icraatı zamanı dövlət hesabına hüquqi yardımın göstərilməsi üçün nəzərdə tutulan məbləğin azlığı göstərilən hüquqi yardımın keyfiyyətinə mənfi təsir göstərir. Belə ki, qanunvericiliyə əsasən Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 193.2, 193.4-cü və 194-cü maddələrində nəzərdə tutulmuş hallarda hüquqi yardımın göstərilməsinə görə müdafiəçiyə (vəkilə) hər iş saatı üçün ödənilən haqq 6 manat məbləğində müəyyən edilmişdir.

Bu baxımdan yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun daha səmərəli təmini məqsədilə "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli, 31 saylı Qərarının 1-ci bəndində nəzərdə tutulan hüquqi yardımın göstərilməsinə görə müdafiəçiyə (vəkilə) hər iş saatı üçün ödənilən məbləğin artırılması təklif olunur. Bununla yanaşı, həmin Qərarın 2-ci və 3-cü bəndlərində cinayət mühakimə icraatı zamanı görülən işin müqabilində tərcüməçiyə, mütəxəssisə və ya ekspertə hər iş saatı üçün nəzərdə tutulmuş məbləğə (0,35 manat) yenidən baxılması da məqsədəmüvafiq hesab olunur.

Ombudsmana ünvanlanmış müraciətlərin və aparılmış araşdırmaların nəticələrinə əsasən qeyd olunmalıdır ki, xüsusən Abşeron, Binəqədi və Nizami rayon polis idarələrində saxlanılan şəxslərin vəkilləri ilə maneəsiz görüşmələrinin təşkilində problemlər qalmaqdadır.

Qeyd edilənlər baxımından, hüquq mühafizə orqanları əməkdaşları arasında maarifləndirmə işinin gücləndirilməsinə, o cümlədən şəxsi heyətin milli qanunvericiliklə

yanaşı, beynəlxalq təşkilatların müvafiq standart, təlimat və tövsiyələri ilə tanışlıq səviyyəsinin artırılmasına ehtiyac vardır.

***Hüquq və azadlıqların məhkəmə təminatı.*** Hüquq və azadlıqların məhkəmə təminatı hüquqi dövlətin prinsiplərindən biri olmaqla, insanların qanuni maraqlarının müdafiəsi və hüquq münasibətlərinin ədalətli tənzimlənməsi üçün əsas mexanizm kimi çıxış edir. Bu hüquq vətəndaşların məhkəməyə çıxış imkanını təmin etməklə, hüquqların pozulması hallarının obyektiv və qərəzsiz araşdırılmasını, mübahisələrin qanun çərçivəsində və ədalətli həllini nəzərdə tutur.

Məhkəmə-hüquq sistemində səmərəliliyin və effektivliyin artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinə baxmayaraq, 2024-cü ildə Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə məhkəmələrdə süründürməçilik, hakimlərin hərəkət və ya hərəkətsizliyindən narazılıq, məhkəmə baxışı zamanı prosessual hüquq normalarının, o cümlədən çəkişmə prinsipinin pozulması, prosessual müddətlərə riayət edilməməsi, məhkəmə qərarlarının surətinin proses iştirakçılarına vaxtında göndərilməməsi, məhkəmə aktlarından narazılıq, məhkəmə qərarlarından yuxarı instansiya məhkəməsinə şikayət vermək hüququnun əsassız məhdudlaşdırılması, qanuni qüvvəsini almış məhkəmə qərarlarının icraya yönəldilməməsi, yaxud icra olunmaması və digər hallar öz əksini tapmışdır.

Şikayətlərə baxılaraq, vətəndaşların hüquqlarının pozulması halları müəyyən edildikdə onların bərpası istiqamətində zəruri tədbirlər görülmüş, Ombudsmanın səlahiyyətlərinə aid olmayan müraciətlər üzrə qanunvericiliyin tələbləri izah edilməklə ərizəçilərə cavablar verilmişdir.

Bir sıra şikayətlər məhkəmə qərarlarının surətinin proses iştirakçılarına vaxtında göndərilməməsi ilə bağlı olmuşdur. Məhkəmə qərarının tərəflərə vaxtında verilməməsi həmin qərardan yuxarı instansiya məhkəməsinə şikayət etmək hüququnu da məhdudlaşdırmış olur.

Ərizəçi X. (1232-24) Ombudsmana müraciət edərək, tərəf olduğu mülki iş üzrə Xətai Rayon Məhkəməsinin müvafiq qətnaməsinin surətinin ona təqdim edilmədiyini bildirmiş, məsələnin araşdırılmasında və qanunamüvafiq tədbirlərin görülməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı həmin məhkəməyə ünvanlanmış müraciətdən sonra verilmiş cavabda bildirilmişdir ki, müvafiq qətnamə ərizəçinin vəkilinin elektron kabinetinə yerləşdirilmiş, eyni zamanda qətnamənin surəti tərəflərin iddia ərizəsində göstərdikləri ünvana göndərilmişdir.

Ərizəçi A. (584/5-24) Ombudsmana müraciət edərək, tərəf olduğu iş üzrə Sumqayıt İnzibati Məhkəməsinin müvafiq qərarının surətinin ona göndərilmədiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı həmin məhkəməyə ünvanlanmış müraciətdən sonra verilmiş cavabda bildirilmişdir ki, qeydiyyat şöbəsi tərəfindən qeydə alınmış nikah, nikahın pozulması və atalığın müəyyən olunması haqqında akt qeydlərinin ləğv edilməsi öhdəliyinin cavabdehin üzərinə qoyulması tələbinə dair iddia üzrə məhkəmə qərarının surəti poçt vasitəsilə tərəflərə göndərilmişdir.

Ərizəçilərin məhkəmə qərarlarının surətinin verilməməsi ilə bağlı şikayətləri əsasında müvafiq məhkəmələrə göndərilmiş sorğulara verilmiş bir sıra cavablarda qərarların tərəflərə vaxtında göndərildiyi, müraciətdən sonra isə hətta təkrarən göndərildiyi bildirilsə də, belə məzmunlu ərizələrin çoxluğu problemə diqqəti cəlb edir.

Məhkəmə sistemində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi məhkəmələrə çatım imkanlarını asanlaşdırmağa, onların fəaliyyətində keyfiyyət və səmərəliliyin artırılmasına hədəflənmişdir.

Qeyd edilənlərlə yanaşı, Ombudsmana ünvanlanan müraciətlərdə bir sıra vətəndaşların texniki vasitələrə və internet resurslarına çıxış imkanlarının məhdud olması səbəbindən "elektron məhkəmə" informasiya sistemindən istifadə ilə bağlı çətinliklərlə üzləşdikləri, habelə birinci instansiya məhkəmələrinin qərar və qərardadlarından elektron

kabinet vasitəsilə apellyasiya şikayəti verilməsi üçün nəzərdə tutulmuş formanın mürəkkəb olması səbəbindən vəkil xidmətlərindən istifadə etməyə məcbur qaldıqları bildirilmişdir.

Bəzi hallarda “elektron məhkəmə” informasiya sistemində yaranmış nasazlıqlar məhkəmələrdə süründürməçillik hallarına səbəb olmuşdur.

Ərizəçi N. (13676-24) Ombudsmana müraciət edərək, Gəncə Apellyasiya Məhkəməsinin müvafiq qətnaməsinin yenidən icraya yönəldilməsi ilə bağlı aidiyyəti üzrə müraciətinə baxılmadığını bildirmişdir. Şikayətlə bağlı həmin məhkəməyə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, müvafiq qətnamənin yenidən icraya yönəldilməsinə dair N-nin ərizəsi məhkəməyə daxil olsa da, “Elektron məhkəmə” informasiya sistemində yaranmış nasazlıq səbəbindən həmin ərizəyə baxılması mümkün olmamışdır. Qeyd edilmişdir ki, məsələ ilə bağlı aidiyyəti qurumlara, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İnformasiya texnologiyaları və innovasiyalar idarəsinə məlumat verilmiş, lakin yaranmış nasazlıq aradan qaldırılmamışdır. Cavabda, eyni zamanda bildirilmişdir ki, yaranmış nasazlıq aradan qaldırıldıqdan sonra məhkəmə iclasının yeri və vaxtı barədə ərizəçiyə lazımi qaydada məlumat veriləcəkdir.

Qeyd olunan çətinliklər nəzərə alınaraq, vətəndaşların “elektron məhkəmə” sistemindən istifadəsinin imperativ qaydada deyil, seçim imkanı müəyyən edilməklə tətbiqi məqsədəmüvafiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinə əsasən, məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.

Məhkəmə qərarlarının icrası ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətlərin yekun mərhələsidir və məhkəmə qərarlarının hüquqi qüvvəsinin təmin olunmasına xidmət edir.

Qərarların icrası vətəndaşların hüquqlarının və qanuni maraqlarının qorunması, ədalətin bərpa edilməsi və qanunun aliliyinin təmin olunması üçün əhəmiyyətlidir.

İcra prosesi həm də cəmiyyətdə hüquqi intizamın möhkəmlənməsinə və vətəndaşların hüquqlarının pozulmasının qarşısının alınmasına mühüm töhfə verir. Buna görə də, məhkəmə qərarlarının vaxtında və tam icrası hüquqi dövlət quruculuğu baxımından vacib strateji məqsəddir.

Ombudsmanın ünvanına məhkəmə qərarlarının icra olunmaması ilə bağlı daxil olmuş çoxsaylı şikayətlər əsas etibarilə məhkəmə qərarlarının uzun müddət icrasız qalması, süründürməçilik hallarına yol verilməsi, icra məmurları tərəfindən vətəndaşlarla münasibətdə etik davranış qaydalarının pozulması ilə bağlı olmuşdur.

Hər bir şikayət üzrə araşdırma aparılmış və nəticədə məhkəmə qərarlarının icrasına tam və ya qismən nail olunmuşdur.

Aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi ilə bağlı şikayətlər çoxluq təşkil etmişdir. Bu müraciətlərin təhlili onu göstərir ki, bir çox hallarda borclu barədə tələbin yönəldilə biləcəyi əmlak və ya gəlirlər aşkar edilmədiyindən və tələb könüllü icra olunmadığından məhkəmə qərarlarının icrasında çətinliklər yaranmışdır. Bu isə borclu şəxslərin məşğulluğunun təmin olunması məsələsində icbari yanaşmanın tətbiqini aktullaşdırır.

Ərizəçi Ş. (2028-24) Ombudsmana müraciət edərək, aliment tələbinə dair müvafiq məhkəmə qətnaməsinin Xaçmaz Rayon İcra və Probasiya Şöbəsi tərəfindən icra edilmədiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcra baş idarəsinə ünvanlanmış müraciətdən sonra görülmüş tədbirlər nəticəsində ümumilikdə 1200 manat borcun ərizəçinin xeyrinə ödənilməsi təmin edilmişdir.

Ərizəçi B. (1931-24) Ombudsmana müraciət edərək, aliment tələbinə dair tərəf olduğu mülki iş üzrə məhkəmənin müvafiq qərarının Astara Rayon İcra və Probasiya Şöbəsi tərəfindən icra edilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası

Ədliyyə Nazirliyinin İcra baş idarəsinə ünvanlanmış müraciətdən sonra borclunun iş yeri müəyyən edilərək tələb əməkhaqqının 70%-nə yönəldilmiş, aliment tutularaq ərizəçinin bank hesabına köçürülmüşdür.

Alimentin borclu tərəfindən vaxtında ödənilməməsi və ya ödənişdən boyun qaçırılması, yaxud da borclunun icra qurumlarından gizlənməsi müvafiq məhkəmə qərarlarının icra edilməsinə ciddi maneələr törədir.

Qeyd olunanlarla bağlı bir sıra hallarda zəruri tədbirlərin görülməsi təmin edilsə də, ümumilikdə bu kimi məsələlər xüsusi narahatlıq doğurmaqdadır.

Ərizəçi C. (13357-24) Ombudsmana müraciət edərək, alimentin ödənilməsi tələbinə dair müvafiq məhkəmə qərarının icra edilmədiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcra Xidmətinə ünvanlanmış müraciətdən sonra borclunun olduğu yeri müəyyən etmək üçün barəsində İmişli Rayon Polis Şöbəsində axtarış işi açılmış, saxlanılaraq yerli quruma təhvil verilmiş və alimentin tam ödənilməsi təmin edilmişdir.

Aliment ödənişlərinin təyinatını, qanunvericilikdə aliment öhdəliklərinin icrasına xüsusi yanaşmanı, o cümlədən bu sahədə məhkəmə qərarlarının icrasındakı problemləri nəzərə alaraq, habelə xarici ölkələrin təcrübəsinə əsaslanmaqla Ombudsmanın əvvəlki illik məruzələrində Aliment Fondunun yaradılması ilə bağlı irəli sürdüyü təklif aktuallığını saxlamaqdadır. Xüsusilə də, son vaxtlar millət vəkilləri və bir sıra dövlət qurumları tərəfindən Ombudsmanın bu təklifinin dəstəklənməsi Aliment Fondunun yaradılmasının əhəmiyyətini bir daha önə çəkir.

Məhkəmə qərarlarının icrası ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdən ünsiyyət hüququnun təmin edilməsində ciddi problemlərin olduğu müəyyən edilmişdir.

Ünsiyyət tələbinə dair məhkəmə qərarlarının icrası zamanı bəzi hallarda tərəflər və icra məmurları uşaqların mənafelərinin üstünlüyü prinsipini nəzərə almır və belə hallar uşaqların psixoloji durumuna mənfi təsir göstərir. Bu baxımdan, həmin qərarların icrası metodları təkmilləşdirilməli, icra prosesində psixoloqun iştirakı təmin olunmalı, eyni zamanda bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklər edilməlidir.

Məhkəmə qərarlarının borclu qismində cəlb edilmiş müvafiq dövlət qurumları tərəfindən icra edilməməsi və ya icrasının gecikdirilməsi də vətəndaşların haqlı narazılıqlarına səbəb olmuşdur.

Qeyd edilən problemlə bağlı aidiyyəti dövlət qurumlarına ünvanlanmış müraciətlərə verilmiş cavablarda, bir qayda olaraq həmin qurumun büdcədən maliyyələşdiyi əsas gətirilmiş, tələb olunan vəsaitin müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrılacağı təqdirdə məhkəmə qərarının icrasının təmin ediləcəyi bildirilmişdir.

Borclu dövlət qurumlarına münasibətdə məhkəmə qərarlarının icrasında mövcud olan bu kimi çətinliklər zəruri icra mexanizminin və təsir vasitələrinin qənaətbəxş olmaması, habelə məhkəmə qərarlarının icrasına nəzarətin effektiv təşkil edilməməsi ilə bağlıdır.

Odur ki, borclu dövlət orqanlarına münasibətdə məhkəmə qərarlarının icrası mexanizminin işlənib hazırlanması, həmçinin bununla bağlı Azərbaycan Respublikasının Dövlət Büdcəsində maliyyə vəsaitinin nəzərdə tutulması zəruridir.

## 1.2. İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi

***Əmək hüququ.*** Əmək hüququ sosial ədalətin və iqtisadi inkişafın əsas elementlərindən biri olmaqla ictimai rifahın təmin edilməsində və cəmiyyətin davamlı inkişafında əhəmiyyətli rol oynayır. Bu hüquq işçilərin sosial-iqtisadi maraqlarının qorunmasını, ədalətli, bərabər və təhlükəsiz əmək şəraitinin yaradılmasını, habelə onların

peşəkar inkişafının təmin edilməsini nəzərdə tutur. Bu hüququn səmərəli təmini ölkədə sosial sabitliyi və iqtisadi inkişafı şərtləndirir.

Əmək hüquqları ilə bağlı Ombudsmana ünvanlanmış şikayətlərdə qanunvericiliyin tələbləri pozulmaqla işdən azad edilmə, əmək haqqının və məzuniyyət pulunun vaxtında verilməməsi, əmək haqqı üzrə borcların və son haqq-hesabın ödənilməməsi kimi hallar öz əksini tapmışdır. Həmin şikayətlər üzrə aparılmış araşdırmalar zamanı pozulmuş əmək hüquqlarının bərpası istiqamətində zəruri tədbirlər görülmüşdür. Bir sıra hallarda aşkar olunmuş pozuntu faktları ilə əlaqədar işəgötürənlərə icrası məcburi göstərişlərin verilməsi, habelə barələrində cərimə növündə inzibati tənbeh tədbirlərinin tətbiqi təmin edilmişdir.

Ərizəçi Ə. (1746-24) Ombudsmana müraciət edərək, ocaqçı vəzifəsində işlədiyi Ağdam rayonundakı musiqi məktəbindən əsassız olaraq işdən azad edildiyini, məsələ ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə əlaqədar Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçi əvvəlki işinə bərpa edilmişdir.

Ərizəçi A. (8163-24) Ombudsmana müraciət edərək, işlədiyi “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin yerli bölməsindən işdən azad olunmasına baxmayaraq, ona son haqq-hesabın tam ödənilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış sorğuya verilmiş cavabda 2006-2013-cü illər üzrə ərizəçinin istifadə etmədiyi məzuniyyət illərinə görə pul kompensasiyasının və əmək məzuniyyəti günlərinin tam hesablanıb ödənilmədiyi, müəssisə rəhbərliyi ilə həmkarlar ittifaqı arasında bağlanmış kollektiv müqavilədə nəzərdə tutulmuş maddi yardımın verilmədiyi müəyyən olunmuşdur. Əmək qanunvericiliyinin tələbləri pozulduğundan müəssisə rəhbəri barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192.4-cü maddəsinə əsasən, inzibat tənbeh vermə haqqında qərar qəbul edilmiş və son hesabın yenidən hesablanması, yaranmış fərqin, habelə kollektiv müqavilə ilə nəzərdə tutulmuş maddi yardımın ödənilməsinin təmin edilməsi məqsədilə işəgötürənə müvafiq göstəriş verilmişdir.

Ərizəçi Q. (6996-24) Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 8 nömrəli Yol İstismar İdarəsindən işdən azad olunduğunu, lakin ona son haqq-hesabın tam məbləğdə hesablanıb verilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanlanmış sorğuya verilmiş cavabda son haqq-hesabın ödənilməsi ilə bağlı tələblərin pozulması səbəbindən “8 nömrəli xüsusi təyinatlı yol istismarı” MMC-nin direktoru barəsində inzibati tənbehvermə haqqında qərar qəbul edildiyi, habelə ərizəçiyə son haqq-hesabın tam ödənildiyi bildirilmişdir.

Əvvəlki illərdə olduğu kimi, sahibkarlıq subyektlərində işçilərin əmək hüquqlarının pozulması faktları üzrə araşdırmaların aparılması zamanı ciddi çətinliklər yaranmışdır. Belə ki, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri əsas gətirilməklə bu qəbildən olan şikayətlərin araşdırılmasının mümkün olmadığı bildirilmişdir.

Ərizəçi Q. (1709-24) Ombudsmana müraciət edərək, “Burger King” restoranlar şəbəkəsindən son haqq-hesabının ödənilmədiyini, bununla bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, müraciətin araşdırılması məqsədilə müəssisə rəhbərliyinə məktub göndərilsə də, tələb olunan sənədlər təqdim edilməmiş, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanunun tələblərindən irəli gələrək müraciətin yerində araşdırılması mümkün olmamışdır.

Beləliklə, sahibkarlıq subyektləri tərəfindən əmək hüquqlarının pozulması hallarında məhkəməyədək hüquq müdafiə mexanizmlərinə çıxış imkanları məhdudlaşmışdır. Odur ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların siyahısına sahibkarlıq subyektləri tərəfindən insan hüquq və azadlıqlarının, o cümlədən əmək hüquqlarının pozulması hallarında şikayətlərin araşdırılmasını birbaşa nəzərdə tutan dəyişikliklərin edilməsi zəruridir.

İşaxtaran şəxslərin işəgötürənlər tərəfindən əmək müqaviləsi bağlanılmadan işə cəlb edilməsi də problem olaraq qalmaqdadır. Qeyd olunan məsələnin həlli məqsədilə nəzarət tədbirlərinin gücləndirilməsi zəruridir.

Ərizəçi K. (2645/2-24) Lerik rayonundakı tam orta məktəblərdən birində vakant olan uşaq birliyi təşkilatının rəhbəri vəzifəsi üzrə müvafiq imtahanda iştirak edərək işə qəbul olunduğunu, lakin onunla əmək müqaviləsinin bağlanılmadığını bildirmişdir. Şikayətlə əlaqədar Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış sorğuya verilmiş cavabda ərizəçinin məktəb direktorunun müvafiq əmri ilə kənd tam orta məktəbində uşaq birliyi təşkilatının rəhbəri vəzifəsinə təyin olunduğu, yol verdiyi nöqsanlara görə məktəb direktorunun Lənkəran-Astara Regional Təhsil İdarəsinin müvafiq əmri ilə intizam məsuliyyətinə cəlb edildiyi bildirilmişdir.

Əmək hüquqlarının təmin edilməsi sahəsində mövcud olan ciddi problemlərdən biri də əsaslandırılmamış ixtisarların aparılmasıdır. Bir sıra hallarda idarəetmənin təkmilləşdirilməsi prosesində yeni struktur bölmələrin yaradılması zamanı insan resurslarının idarə edilməsi prinsiplərinə əməl olunmur.

Ştat sayının təsdiq edilmiş strukturun tələblərinə cavab verməməsi və ya struktur bölmələr qarşısında dəqiq vəzifələr müəyyən olunmadan ixtisarların aparılması əmək hüquq pozuntularına, o cümlədən əmək fəaliyyətini davam etdirən işçilərin iş yükünün daha da artmasına səbəb olmaqla yanaşı, ümumilikdə müəssisənin fəaliyyətinə neqativ təsir göstərir.

Ərizəçi M. (4036-24) Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsinin Şərur rayon şöbəsində mütəxəssis vəzifəsində işləyən övladı ilə bağlanmış əmək müqaviləsinə xitam verilməsindən narazı qaldığını bildirmişdir. Aparılmış araşdırma zamanı həmin şəxsin himayəsində əlilliyi olan övladının olduğu nəzərə alınmadan ixtisarla vəzifəsindən azad edildiyi məlum olmuşdur. Görülmüş tədbirlər nəticəsində qeyd edilən şəxs fondun Maddi-məişət şəraitinin müayinəsi departamentinin Səyyar monitorinq sektoruna mütəxəssis vəzifəsinə təyin olunmuşdur.

Odur ki, müəssisə, idarə və təşkilatlarda yeni ştatların komplektləşdirilməsinə diqqətin artırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və səlahiyyətli dövlət orqanları tərəfindən nəzarət tədbirlərinin gücləndirilməsi zəruridir.

İşəgötürən əməyin mühafizəsi, texniki təhlükəsizlik və istehsal sanitariyası (gigiyenası) qaydalarına uyğun olan sağlam və təhlükəsiz istehsalat və sosial-məişət şəraiti yaratmağa, əməyin təhlükəsizliyini, habelə işçilərin səhhətinə mənfi təsir göstərən amillərin zərərli təsirlərinin aradan qaldırılmasını təmin etməyə borcludur.

Göstərilənlərə baxmayaraq, bir sıra sahələrdə, xüsusilə tikinti-inşaat sahəsində əməyin mühafizəsi və texniki təhlükəsizliyi norma və qaydalarına yetərincə riayət edilmir.

Araşdırmalara və müşahidələrə əsasən demək olar ki, bir çox yeni inşa edilən binalarda işçilər hələ də təhlükəli əmək şəraitində işləyirlər. Bununla yanaşı, işçilərin şiddətli külək şəraitində və ya havanın temperaturuna dair müəyyən edilmiş normalara riayət edilmədən açıq havada, qanunvericiliyin tələblərinə zidd qaydada işlərə cəlb olunması hallarına da rast gəlinir. Odur ki, bu sahəyə məsul olan dövlət qurumları

səlahiyyətləri daxilində əməyin mühafizəsi və texniki təhlükəsizliyi norma və qaydalarına riayət edilməsinə nəzarəti gücləndirməlidirlər.

***Sosial təminat hüququ.*** Sosial təminat hüququ insanın əsas hüquq və azadlıqlarından biri kimi, cəmiyyətin rifahının təməl prinsiplərindən sayılır. Bu hüququn təmin olunması, insanların layiqli həyat səviyyəsinə nail olmasına, sosial ədalətin qorunmasına və bərabər imkanların yaradılmasına xidmət edir.

Sosial təminat hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə əsas etibarilə əmək pensiyasının düzgün hesablanmaması və ya pensiya üzrə ödənişlərin dayandırılması, ünvanlı dövlət sosial yardımının təyin edilməməsi, özünüməşğulluq proqramına cəlb olunma ilə bağlı müraciətlərin nəticəsiz qalması, əlilliyin müəyyən edilməsi ilə bağlı mövcud problemlər, habelə sosial müavinətin təyin olunmasında, maddi yardım yaxud da ərzaq yardımının verilməsində köməklik göstərilməsi və digər məsələlər öz əksini tapmışdır.

Şikayətlər üzrə aparılmış araşdırmalar nəticəsində hüquq pozuntularının aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi S. (4565/2-24) Ombudsmana müraciət edərək, ona müvafiq dövr üzrə hesablanmış əmək pensiyasının bir hissəsinin ödənilmədiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış müraciətdən sonra ötən dövr üzrə hesablanmış fərq məbləği aylıq pensiyasının üzərinə əlavə edilməklə ərizəçinin müvafiq kart hesabına köçürülməsi təmin edilmişdir.

Ərizəçi Q. (11232-24) Ombudsmana müraciət edərək, ona yaşa görə təyin edilmiş əmək pensiyasının düzgün hesablanmadığını bildirmiş, şikayətinin araşdırılaraq qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanlanmış müraciətdən sonra ərizəçinin əmək pensiyasının məbləği indeksləşdirilərək 551,04 manata çatdırılmış, həmçinin ötən dövr üzrə hesablanmış 951,42 manat fərq məbləğinin ayda 317,14 manat olmaqla aylıq pensiya məbləğinin üzərinə əlavə edilməklə ərizəçinin kart hesabına köçürülmüşdür.

Aztəminatlı ailələrin və əhalinin həssas qruplarından olan şəxslərin sosial təminat hüququnun müdafiəsi dövlətin sosial siyasətinin prioritet istiqamətlərdən biri olaraq qalmaqdadır. Bu baxımdan, orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailələrə qanunvericiliklə müəyyən edilmiş qaydada ünvanlı dövlət sosial yardımının verilməsi böyük əhəmiyyət kəsb edir.

Qeyd olunmalıdır ki, ünvanlı dövlət sosial yardımının təyin edilməsi və ödənilməsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərlə əlaqədar aidiyyəti üzrə sorğular göndərilmiş, bir sıra hallarda görülmüş tədbirlər nəticəsində şikayətlər təmin edilmişdir.

Ərizəçi M. (10524-24) ailəsinə ünvanlı dövlət sosial yardımının verilməsi ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, şikayətinin araşdırılaraq qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanlanmış müraciətdən sonra ərizəçinin həyat yoldaşının Nazirliyin mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Ünvanlı yardım" altsisteminə daxil etdiyi müraciəti əsasında ailəsinə bir il müddətinə aylıq 623,42 manat məbləğində sosial yardım təyin edilmişdir.

Ərizəçi E. (7694-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, aztəminatlı ailə kimi ünvanlı dövlət sosial yardımının təyin edilməsi ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanlanmış müraciətdən sonra ərizəçinin ailəsinə bir il müddətinə

aylıq 747,95 manat məbləğində ünvanlı dövlət sosial yardımının təyin edilməsi təmin olunmuşdur.

Ünvanlı dövlət sosial yardımlarının təyin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin təhlili göstərir ki, bu sahədə çətinliklər və süründürməçilik halları hələ də mövcuddur. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli, 37 saylı Qərarı ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nın 3.1-ci bəndinə əsasən sosial yardımın alınması üçün müraciətlər “Ünvanlı yardım” (VEMTAS) altsistemi tərəfindən 15 (on beş) iş günü müddətində araşdırılır və sosial yardımın təyin olunması və ya təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarılır. Həmin Qaydalara əsasən, müraciətin qəbul olunduğu gün VEMTAS tərəfindən ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması barədə aidiyyəti üzrə tapşırıq göndərilir. Bu Qaydalarda dəqiq müddətin müəyyən olunmasına baxmayaraq, bir çox hallarda ailənin maddi-məişət şəraitinin müayinəsi daha uzun müddətlərdə aparılır ki, bu da sosial yardımın təyin olunmasında ləngimələrə və süründürməçilik hallarına səbəb olur.

Ərizəçi Q. (3887-24) ailəsinə ünvanlı dövlət sosial yardımının təyin edilməsi ilə bağlı aidiyyəti üzrə müraciət etməsinə baxmayaraq, maddi-məişət şəraitinin müayinə edilmədiyini bildirmiş, zəruri tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna müraciətdən sonra qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmiş, ərizəçinin ailəsinə aylıq 546,80 manat məbləğində ünvanlı dövlət sosial yardımı təyin olunmuşdur.

Şəxslərin əmək və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi və inkişaf etdirilməsi məqsədilə özünüməşğulluq proqramının tətbiqi, bununla dövlətin işaxtaran və işsiz şəxslərin məşğulluğuna köməklik göstərməsi olduqca əhəmiyyətlidir. Belə ki, əhalinin məşğulluğunun təmin olunması ilə ünvanlı dövlət sosial yardımından asılılığın aradan qaldırılması və bununla da yaşayış səviyyəsinin yaxşılaşdırılması ölkəmizdə sosial siyasətin əsas prioritetlərindən birini təşkil edir.

Şəxslərin özünüməşğulluq proqramına cəlb edilməklə aktivlərlə təmin olunmasında köməklik göstərilməsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər üzrə də araşdırmalar aparılmışdır.

Ərizəçi N. (11074-24) Ombudsmana müraciət edərək, heyvandarlıqla məşğul olması üçün qeydiyyata alındığını, özünüməşğulluq proqramına cəlb edilməsi ilə bağlı nəzərdə tutulmuş bütün mərhələləri keçdiyini, lakin aktivlərlə təmin olunmadığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə ünvanlanmış müraciətdən sonra verilmiş cavabda ərizəçinin “Maldarlıq təsərrüfatı” istiqaməti üzrə özünüməşğulluğa cəlb edilərək müvafiq əmlakla təmin olunduğu bildirilmişdir.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı ilə təsdiq olunmuş “Özünüməşğulluğun təşkili Qaydası”nda özünüməşğulluğa cəlb edilən şəxsin aktivlərlə təmin olunmasına dair müddətlər müəyyən edilmədiyindən həmin şəxslərin müvafiq əmlakla təmin olunması bəzən bir ildən artıq müddətə uzanır. Digər tərəfdən, özünüməşğulluğa cəlb olunma barədə qərarın qəbul edilməsi səbəbindən həmin müddət ərzində bu şəxslərin məşğulluğun digər formasından yararlanması və ya ünvanlı dövlət sosial yardımı barədə müraciət etməsi imkanları da məhdudlaşdırılmış olur.

Qeyd edilənləri nəzərə alaraq, “Özünüməşğulluğun təşkili Qaydası”nda şəxsin özünüməşğulluğa cəlb olunması barədə qərarın qəbul edilməsi ilə şəxsin müvafiq aktivlərlə təmin olunması arasında ümumi müddətin müəyyən edilməsi zəruridir. Bununla belə, həmin müddətlərin müəyyən edilməsi hər hansı səbəbdən mümkün olmadıqda,

özünüməşğulluğa cəlb olunmuş şəxsin aktivlərlə təmin olunması müddətinədək məşğulluğun digər formasından yararlanması və ya ünvanlı dövlət sosial yardımı barədə müraciət etməsi ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması, bununla əlaqədar qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi vacibdir.

***Sağlamlığın qorunması hüququ.*** Sağlamlığın qorunması hüququ hər bir fərdin və bütövlükdə cəmiyyətin rifahının əsasını təşkil edən, insanların fiziki və psixi sağlamlığının ən yüksək səviyyədə təmin olunmasını nəzərdə tutan fundamental hüquqdur.

Hər bir şəxs üçün ayrı-seçkiliyə yol verilmədən sağlam həyat şəraitinin yaradılması, keyfiyyətli tibbi xidmətlərə və sağlamlıq barədə məlumatlara əlçatanlığın təmin olunması müasir dövrün əsas prioritetləri sırasındadır.

Qeyd edilməlidir ki, səhiyyə sahəsində əhəmiyyətli islahatların aparılmasına baxmayaraq, hələ də bu hüququn həyata keçirilməsi ilə bağlı müəyyən çətinliklər qalmaqdadır.

Sağlamlığın qorunması hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə əsas etibarilə icbari tibbi sığorta üzrə Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərdən istifadə ilə əlaqədar mövcud çətinliklər, tibbi reabilitasiyanın imkanlarından yetərincə istifadə etmək üçün zəruri şəraitin yaradılmaması, müalicə müəssisəsinə göndərişin verilməsindən imtina olunması, güzəştli dərman preparatları ilə təminatda mövcud problemlər, həmçinin dövlət hesabına müayinə və müalicənin təşkilində, ixtisaslaşmış tibbi xidmətin göstərilməsində köməklik edilməsi və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Həmin müraciətlər üzrə Ombudsman tərəfindən aidiyyəti üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə (TƏBİB), habelə onların tabeliyində olan tibb müəssisələrinə, eyni zamanda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə ünvanlanmış müraciətlərdən sonra hüquqların təmini və ya pozulmuş hüquqların bərpası üzrə zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi S. (8530-24) Ombudsmana müraciət edərək, şəxsiyyət vəsiqəsinin olmaması səbəbindən Bakı şəhərindəki 3 saylı kliniki xəstəxanada müayinə olunması ilə bağlı müraciətinə imtina cavabının verildiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra müvafiq ambulator tibbi xidmətin göstərilməsinə nəzarət olunması məqsədilə ərizəçinin yaşadığı ünvana yaxın ərazidə xidmət göstərən Bakı Baş Səhiyyə Mərkəzi Publik Hüquqi Şəxsinin 12 nömrəli poliklinikasının rəhbərliyinə müvafiq tapşırıq verilmişdir. Bununla yanaşı, ərizəçiyə yaşadığı yer üzrə qeydiyyata alınması və şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi, bununla da gələcəkdə hüquqlarının reallaşdırılmasında yarana biləcək məhdudiyyətlərin qarşısının alınması məqsədilə qanunvericiliyin tələbləri izah edilmişdir.

Ərizəçi T. (5830/2-24) Ombudsmana müraciət edərək, 1 nömrəli Respublika Psixiatriya Xəstəxanasında müayinə və müalicə olunması üçün müvafiq göndərişlə təmin olunmadığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçi müvafiq tibb müəssisəsinə göndərilmiş, stasionar şəraitdə müalicə kursu keçmişdir.

Yeni doğulanların sağlamlığının təmin edilməsi, perinatal və neonatal ölümlərin qarşısının alınması məqsədilə istər hamiləlik dövründə, istərsə də doğuşdan sonra immunizasiya tədbirlərinin və digər tibbi xidmətlərin keyfiyyətinin artırılmasına ehtiyac vardır.

Ərizəçi Y. (4307-24) Ombudsmana müraciət edərək, yeni doğulmuş əkiz övladlarının səhhətinin ağırlaşması ilə əlaqədar öz vəsaiti hesabına köçürüldüyü tibb müəssisəsində icbari tibbi sığortadan faydalana bilmədiklərini qeyd etmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra yeni doğulmuş əkizlər Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq

edilmiş klinik protokollara uyğun müayinə və müalicə ilə təmin olunmuş, vaxtından əvvəl doğulmuşların anemiyasının müalicəsi aparılmış, ana və körpələrə "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi" çərçivəsində tibbi xidmət göstərilmiş və evə ambulator müalicəyə yazılmışlar.

Sağlamlığın qorunması hüququ ilə bağlı Ombudsmana ünvanlanmış şikayətlərin təhlili onu deməyə əsas verir ki, onkoloji, şəkərli-diabet, böyrək çatışmazlığı və ürək-damar xəstəliklərindən əziyyət çəkən şəxslərin müraciətləri nisbətən üstünlük təşkil etmişdir. Bu qəbildən olan xəstəliklərdən əziyyət çəkənlərin müayinə, müalicə və reabilitasiyasına diqqətin artırılması vacibdir.

Ərizəçi A. (8575-24) Ombudsmana müraciət edərək, onkoloji xəstəlikdən əziyyət çəkdiyini nəzərə alaraq müayinə və müalicəsinin təşkilində köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ünvanlanmış sorğudan sonra ərizəçiyə Milli Onkologiya Mərkəzinə göndəriş verilmiş, eyni zamanda müayinə və müalicəsinin təşkili həmin mərkəzin rəhbərliyinə tapşırılmışdır.

Ombudsman hesab edir ki, onkoloji xəstəliklərin müalicəsində istifadə olunan dərman preparatlarının spektrinin genişləndirilməsi, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 19 iyul tarixli 178 nömrəli qərarı ilə təsdiq edilmiş "Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı"nın müasir tələblərə uyğun olaraq yenidən işlənilməsi zəruridir.

Digər mühüm məsələ dövlət hesabına dərman preparatları ilə təmin edilmək hüququna malik olan və dispanser qeydiyyatına alınan imtiyazlı şəxslərin dövlət hesabına təyin olunmuş dərman preparatları ilə vaxtında təmin edilməməsi, xüsusilə müvafiq xəstəliyin müalicəsi üzrə dərman preparatlarının növlərinin və ya əvəzedicilərinin az olması və ya olmaması ilə bağlıdır.

Ərizəçi S. (7645-24) Ombudsmana müraciət edərək, şəkərli diabet xəstəliyindən əziyyət çəkdiyini, ona xəstəliyi ilə əlaqədar zəruri dərman preparatlarının verilməsindən imtina olunduğunu bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı görülmüş tədbirlər nəticəsində ərizəçi "Şəkərli diabet II tip, orta ağırlıqda" diaqnozu ilə dispanser qeydiyyatına alındığı 2 saylı şəhər poliklinikası tərəfindən diabetik dərman preparatları ilə təmin olunmuşdur.

Qeyd olunanlarla yanaşı, sağlamlığın qorunması hüququnun effektiv təmin olunması məqsədilə icbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlər zərfinin genişləndirilməsi, həmin zərfə daxil olan xidmətlər çərçivəsində ambulator müalicə alan şəxslərə yazılan dərman vasitələrinin sığorta hesabına qarşılanması üçün zəruri tədbirlərin görülməsi, eyni zamanda ölkəyə idxal edilən dərman vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi zəruridir.

Həkim və digər tibb işçiləri tərəfindən pasiyentlərlə düzgün ünsiyyət qurulmaması, vəzifələrin icrasına qeyri-peşəkar münasibət göstərilməsi narazılıqlara səbəb olmaqla yanaşı, tibbi xidmətlərə inamsızlığın da yaranmasına səbəb olur.

Ərizəçi Q. (4717-24) Ombudsmana müraciət edərək, Ağsu Rayon Mərkəzi Xəstəxanasında ona zəruri tibbi yardımın göstərilmədiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra həmin xəstəxananın Təcili və Təxirəsalınmaz Tibbi Yardım şöbəsinin həkiminə işində yol verdiyi nöqsanlara görə töhmət növündə intizam tənbehi tətbiq edilmişdir.

Əlilliyin qiymətləndirilməsi məqsədilə müvafiq səhiyyə müəssisələri tərəfindən göndərişlərin rəsmiləşdirilməməsi, xəstələrin sonuncu diaqnozlarının, ağırlaşmaları təsdiq edən müayinələrin nəticələrinə dair məlumatların, xəstəlik əlamətlərinin düzgün daxil edilməməsi və ya natamam qeyd olunması sahəsində də problemlər qalmaqdadır. Bu kimi hallar əlilliyin qiymətləndirilməsi prosesini uzatmaqla, süründürməçiliyə səbəb olur.

Ərizəçi B. (5935-24) Ombudsmana müraciət edərək, qeydiyyatda olduğu Göyçay Rayon Mərkəzi Xəstəxanasında ambulator və stasionar müalicələr aldığını, əlilliyinin

qiymətləndirilməsi ilə əlaqədar həmin tibb müəssisəsi tərəfindən göndərişin (Forma-88) rəsmiləşdirilməsindən imtina olunduğunu bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra vətəndaşın əlilliyinin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişin Göyçay Rayon Mərkəzi Xəstəxanasının Həkim Məsləhət Komissiyası tərəfindən rəsmiləşdirilməsi təmin edilmişdir.

Göstərilən problemlərin həlli məqsədilə bu sahədə tibb işçilərinin peşəkarlığının artırılması və onların müvafiq qaydada təlimatlandırılması, mürəkkəb və detallı sənədləşmə prosesinin sadələşdirilməsi, texniki dəstək və resursların artırılması, habelə tibb müəssisələri ilə tibbi sosial ekspert komissiyalarının fəaliyyətinin daha effektiv əlaqələndirilməsi zəruridir.

Sağlamlığın qorunması hüququ sahəsində mühüm tendensiyalardan biri də səhiyyə xidmətlərində müasir rəqəmsal texnologiyaların tətbiqi ilə bağlıdır. Bu texnologiyaların tətbiqi müayinə və müalicə işinin məsafədən təşkilinə imkan yaratmaqla tibbi xidmətlərə çatım imkanlarını asanlaşdıra bilər. Bundan başqa, sağlamlıq barədə məlumatların rəqəmsallaşdırılması onların saxlanılması, emalı və istifadəsini asanlaşdırır.

Qeyd olunan innovativ həllər digər tərəfdən sağlamlığın qorunması hüququnun təmini ilə bağlı spesifik problemlər də doğura bilər. Belə ki, elektron sağlamlıq qeydlərinin rəqəmsallaşdırılması məlumat sızmalarına, kibertəhlükəsizlik problemlərinə, habelə fərdi məlumatlardan qanunsuz istifadə hallarına səbəb ola bilər. Beləliklə, rəqəmsal texnologiyalardan istifadə sağlamlığın qorunması hüququna çoxsaylı töhfələr versə də, bu texnologiyaların düzgün və etik tətbiqi insan hüquq və azadlıqlarına hörmət və riayət edilməsi nöqteyi-nəzərindən vacib şərtdir.

Sağlamlığın qorunması ilə bağlı internet səhifələrində və sosial şəbəkələrdə yayımlanan çoxsaylı tibbi əsaslandırılmamış məlumatlar, internet platformalar üzərindən satılan və keyfiyyəti şübhə doğuran dərman preparatları nəticə etibarilə insan sağlamlığına neqativ təsir göstərə bilir. Odur ki, aidiyyəti dövlət qurumları tərəfindən bu sahəyə nəzarətin gücləndirilməsi, davamlı monitorinqlərin həyata keçirilməsi və problemlərin qanunvericilik səviyyəsində həlli vacibdir.

Ümumiyyətlə, tibbi xidmətlərin səmərəliliyinin artırılması məqsədilə ictimai səhiyyənin effektivliyinin gücləndirilməsi, uşaq və gənclərin zərərli vərdişlərə aludəçiliyinin qarşısının alınması məqsədilə sağlam həyat tərzinin aşılanması üzrə proqramların, sağlamlıq, idman və digər profilaktik tədbirlərin genişləndirilməsi, maarifləndirici verilişlərin və videoçarxların yayımının artırılması, habelə digər preventiv tədbirlərin gücləndirilməsi zəruridir.

***Təhsil hüququ.*** Müxtəlif beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş fundamental insan hüquqlarından biri kimi təhsil hüququ şəxsiyyətin, cəmiyyətin və dövlətin formalaşmasında və inkişafında həlledici rol oynayır. Bu hüquq hər bir fərdin bərabər, ədalətli və keyfiyyətli təhsil almasına və öz potensialını reallaşdırmasına təminat verir.

Ölkəmizdə son dövrlərdə təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, tədrisdə müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə olunması, eləcə də bu sahədə beynəlxalq əlaqələrin genişləndirilməsi tədris prosesinə müsbət təsir göstərməkdədir.

Həyata keçirilən islahatlara baxmayaraq, təhsil sisteminin müxtəlif sahələri üzə müəyyən boşluqlar və çatışmazlıqlar hələ də qalmaqdadır.

Müraciətlərin təhlili göstərir ki, təhsil müəssisələrində, xüsusilə orta məktəblərdə, peşə təhsili müəssisələrində və kolleclərdə davamlı olaraq monitorinqlərin aparılması zəruridir. Belə yanaşma təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına kömək etməklə, tədrisin dövlət standartları əsasında təşkil olunmasını təmin etməsinə yardım edir. Buna

baxmayaraq, ölkə üzrə bəzi təhsil müəssisələrində hələ də öz həllini gözləyən bəzi problemlər mövcuddur.

Təhsil hüququ ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə təhsil müəssisələrində mövcud olan çatışmazlıqlar, eləcə də müəssisə rəhbərlərinin təlim-tədris prosesinin təşkilinə laqeyd münasibəti kimi hallar öz əksini tapmışdır. Həmin müraciətlər əsasında aparılmış araşdırmalar nəticəsində hüquq pozuntularının aradan qaldırılması üzrə zəruri tədbirlər görülmüşdür.

Müəllim çatışmazlığı və ya şagird azlığı səbəbindən regionlarda bəzi orta ümumtəhsil müəssisələrində siniflərin komplektləşdirilməsi həyata keçirilir. Xüsusən ucqar kənd məktəblərində müəyyən siniflər birləşdirilməklə dərs saatı hər sinif üçün müvafiq olaraq yarıya bölünür və nəticədə eyni müəllim bir neçə sinfi birləşdirərək tədris aparmağa məcbur olur. Müxtəlif yaş kateqoriyasında olan şagirdlərin təhsil səviyyəsi, öyrənmə sürəti və qavrama bacarıqları müxtəlif olduğundan, belə hal hər iki sinfin effektiv təhsil almasını çətinləşdirir. Siniflərin komplektləşdirilməsi təhsilin keyfiyyətini aşağı salmaqla yanaşı, müəllimlərin dərs saatının azalmasına da gətirib çıxarır.

Ərizəçi F. (12598-24) Ombudsmana müraciət edərək, övladlarının birinci sinfə qəbul olunması məqsədilə aidiyyəti üzrə müraciətləri zamanı Ucar rayonunun Pirkənd kənd tam orta məktəbində birinci və ikinci siniflərin birləşdiriləcəyi barədə məlumat verildiyini, belə ki, 45 dəqiqəlik dərs müddətinin 20 dəqiqəsinin birinci siniflərə, qalan 25 dəqiqəsinin isə ikinci siniflərə ayrılacağını bildirmiş, övladlarının təhsil hüququnun müdafiəsində köməklik göstərilməsini xahiş etmişlər. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2020-ci il tarixli, 212 saylı qərarı ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisəsində siniflər üzrə şagird sıxlığı” normalarının 4-cü bəndinə əsasən, ibtidai təhsil səviyyəsinin bir sinfində şagird sayı 10 nəfərdən az olduqda, həmin sinif ibtidai təhsil səviyyəsinin şagird sayı 10 nəfərdən az olan digər bir sinif ilə birləşdirilərək komplekt siniflər təşkil olunur. Komplekt siniflər şagird sayı 18 nəfərdən çox olmamaqla təşkil edilir. Bildirilmişdir ki, həmin məktəbdə 2024-2025-ci tədris ilində 1-ci sinifdə şagird sayı 8, 2-ci sinifdə isə 6 şagird təşkil etdiyindən siniflərin komplektləşdirilməsi həmin qaydalara uyğun olaraq aparılmışdır.

Cavabdan da göründüyü kimi, siniflərin komplektləşdirilməsi müvafiq normativ-hüquqi akta əsasən tənzimlənir. Lakin ibtidai təhsil səviyyəsi olmasına baxmayaraq, iki fərqli tədris proqramı olan siniflərin şagird sayının azlığı səbəbindən birləşdirilməsi nəticə etibarilə təhsilin keyfiyyətinə və təhsilalanların proqram materiallarını mənimsəmələrinə neqativ təsir göstərir. Odur ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 22 iyun tarixli 212 saylı qərarı ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisəsində siniflər üzrə şagird sıxlığı Normaları”na yenidən baxılması, təhsilalanların dövlət təhsil standartlarına uyğun bilik və bacarıqlara yiyələnməsini təmin etmək üçün həmin təhsil müəssisələrində müəllim sayının artırılması məqsədəmüvafiq hesab edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli, 157 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları”nın 5.1-ci yarımbəndinə əsasən, təhsil müəssisələrində psixoloji xidmət müəssisə rəhbərliyinin, pedaqoji işçilərin, valideynlərin və ya digər qanuni nümayəndələrin psixoloqla qarşılıqlı əməkdaşlığı təmin edilməklə təşkil olunur.

Qeyd olunmalıdır ki, təhsil müəssisələrində müşahidə olunan problemlərdən biri də təhsilalanların qarşılıqlı münasibətlərində və ünsiyyətində mövcud olan gərginlik, davranış və intizam qaydalarına riayət edilməməsi halları ilə bağlıdır. Məktəblilərin həmyaşıdlarına münasibətdə fiziki və psixoloji təzyiq göstərmələri təhsilin keyfiyyətinə mənfi təsir göstərməklə yanaşı, daha ağır nəticələrə də səbəb ola bilir.

Ərizəçi S. (4698-24) Ombudsmana müraciət edərək, 5-ci sinifdə təhsil alan övladının sinif yoldaşları tərəfindən dəfələrlə fiziki və psixoloji təzyiqlərə məruz qaldığını,

məktəb rəhbərliyinin hadisəyə laqeyd yanaşdığını və heç bir tədbir görmədiyini bildirmiş, məsələnin araşdırılmasını və övladının pozulmuş hüquqlarının müdafiəsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, məsələ ilə əlaqədar məktəb rəhbərliyi və psixoloqu şagirdlərlə davranış qaydaları ilə bağlı profilaktik söhbətlər aparmış, sinif xüsusi nəzarətə götürülmüş, həmin sinfin rəhbəri dəyişdirilərək daha təcrübəli müəllimlə əvəz olunmuşdur.

Şagirdlər arasında baş verən anlaşılmazlıqların səbəblərindən biri də müəllimlərin uşaqlara münasibətdə onların yaşına müvafiq olaraq psixoloji durumunu nəzərə almaması ilə bağlıdır. Bu baxımdan, müəllim-şagird münasibətlərinin tənzimlənməsində psixoloqların müəllimlərlə və valideynlərlə əməkdaşlığı önə çəkilməli, təhsilalanları fiziki və psixi zorakılığın bütün formalarından müdafiə etmək, zərərli vərdişlərdən çəkindirmək, şagirdlərin təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etməklə onlarla müvafiq profilaktik işin aparılması zəruridir.

Ümumiyyətlə, qeyd olunan problemlərin həllində, uşaqlarda yarana biləcək hər hansı psixoloji gərginlik halının qarşının alınmasında məktəb psixoloqlarının rolu xüsusi vurğulanmalı, təhsil müəssisələrində psixoloqlara ayrılan ştat vahidinin şagird sayına uyğunlaşdırılması üzrə tədbirlər həyata keçirilməlidir.

Hazırkı vaxtadək öz həllini tapmayan məsələlərdən biri də tədris prosesində istifadəsi tələb olunan iş dəftərlərinin şəxsi vəsait hesabına alınmasıdır. Məlum olduğu kimi, orta təhsil icbari və dövlət büdcəsi hesabına maliyyələşdirildiyi üçün dərsliklər və onların komplektləri də şagirdlərə ödənişsiz təqdim edilməlidir. Odur ki, dərsliklərlə yanaşı, digər köməkçi vəsaitlərin də şagirdlərə dövlət hesabına verilməsi vacibdir.

Maddi imkansızlıq səbəbindən övladına zəruri məktəb ləvazimatları və məktəbli forması almaqda çətinlik çəkən vətəndaşlar tərəfindən Ombudsmana ünvanlanmış ərizələr əsasında aidiyyəti qurumlara müraciətlər nəticəsində problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Ərizəçi V. (11756-24) Ombudsmana müraciət edərək, ailə vəziyyətinin ağır olduğunu bildirmiş, övladlarının məktəb ləvazimatları ilə təmin olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Sumqayıt Şəhər İcra Hakimiyyətinə müraciətdən sonra ərizəçinin övladlarına yeni dərs ili ərəfəsində məktəb ləvazimatları təqdim edilmişdir.

Təhsilin bütün pillələrində təlim-tərbiyə prosesinə, tədrisin keyfiyyətinin yüksəldilməsinə və təhsilalanlar tərəfindən fənnin mənimsənilməsinə diqqətin artırılması üzrə tədbirlər gücləndirilməli, tədris prosesinin təşkilində müəyyən edilmiş nöqsanlar zamanında aradan qaldırılmalıdır.

Ərizəçi R. (3813-24) Ombudsmana müraciət edərək, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecində tələbələrin dərsə davamiyyətinin aşağı səviyyədə olduğunu, qanunsuzluqlara yol verildiyini bildirmiş, şikayətin araşdırılmasını və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, həmin kollecdə Agentlik tərəfindən monitorinq keçirilmiş, müəyyən edilmiş nöqsanların aradan qaldırılması və tədris prosesində keyfiyyətin təmin edilməsi üçün islahatlara başlanılmış, nəticədə kollec direktorunun tədris işləri üzrə müavini, direktor vəzifəsini müvəqqəti icra edən şəxs tutduğu vəzifədən azad edilərək kollecə yeni direktor təyin edilmişdir.

Yüksək peşə bacarıqlarına və intellektə malik insan kapitalının formalaşmasında ali təhsilin rolu xüsusi vurğulanmalıdır. Tələbələr üçün prioritet ixtisas istiqamətləri üzrə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq imkanlarının genişləndirilməsi, gənclərin təcrübə qazanaraq innovativ tədris metodlarına yiyələnmələri, karyera imkanlarının artırılması onların şəxsi və peşəkar inkişafı üçün

əhəmiyyətli olmaqla yanaşı, ölkə üçün də əvəzsiz rolu vardır. Belə ki, mütərəqqi düşüncə tərzinin formalaşdırılması, innovativ biliklər və son texnologiyalara yiyələnməklə həmin təcrübələrin ölkəmizdə tətbiqi sosial-iqtisadi inkişafa, habelə ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına töhfə verə bilər.

Göstərilənlər baxımından, ölkə üçün faydalı ola biləcək mütəxəssislərin hazırlanması məqsədilə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almağa həvəsləndirilməsinə, onlar üçün zəruri şəraitin yaradılmasına diqqət daha da artırılmalıdır.

***Mənzil hüququ.*** Mənzil hüququ əsas sosial və iqtisadi hüquqlardan biri olmaqla, layiqli həyat şəraitinin və sosial bərabərliyin təmin edilməsində mühüm rol oynayır.

Mənzil hüququ əhalini sığınacaqla təmin etməkdən daha çox, fərdin psixoloji, sosial və iqtisadi rifahını dəstəkləyən bir mühit yaratmaq məqsədini daşıyır. Bu hüququn təmin edilməsi həmçinin urbanizasiya, yoxsulluğun azaldılması və sosial ədalətin təmini kimi daha geniş sosial problemlərin həllində də mühüm bir vasitədir.

Ölkəmizdə mənzil hüququnun təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər sırasında əhali üçün maddi cəhətdən əlçatan olan yaşayış binalarının tikintisinə dəstək verilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu hüququn səmərəli təmini məqsədilə yaşayış və məskunlaşmanın hüquqi təminatı, infrastruktur baxımından müyəssərlik, yaşayış üçün yararlılıq və bu kimi digər amillərin nəzərə alınması vacib şərtdir.

Aztəminatlı ailələrin yaşayış sahəsi ilə təmin edilməsi mexanizminin işlənib hazırlanması, əhalinin maddi imkanına uyğun mənzillərin tikilib istifadəyə verilməsi ehtiyacı olan ailələrin mənzil hüququnun təmin edilməsində əhəmiyyətli rol oynaya bilər.

Ümumiyyətlə, mənzil hüququnun daha səmərəli təmin edilməsi məqsədilə, real bazar qiymətləri və əhalinin alıcılıq qabiliyyəti nəzərə alınmaqla güzəştli ipoteka kreditinin şərtlərinə yenidən baxılması, kreditin maksimal məbləğinin artırılması, ilkin ödəniş məbləğinin minimuma endirilməsi, kredit müddətinin uzadılması, faiz dərəcəsinin aşağı salınması, ipoteka kreditləri üzrə güzəştlərdən istifadə etmək hüququna malik şəxslərin siyahısının genişləndirilməsi məqsədilə qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi vacibdir.

Məlum olduğu kimi, istər Bakı şəhərində, istərsə də rayon mərkəzlərində, habelə bəzi qəsəbələrdə yerləşən ötən əsrin əvvəllərində və ortalarında tikilərək istifadəyə verilmiş bir sıra yaşayış binalarında uzun illər təmir-bərpa işləri aparılmamış, istismar müddətini keçməsi səbəbindən həmin binalar istismara yararsız, bəzi hallarda isə qəzalı vəziyyətə düşmüşdür. Bu baxımdan, həmin mənzillərdə yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşması üçün onların yeni mənzillərə köçürülməsi ilə bağlı pilot layihələrin davam etdirilməsi məqsədəmüvafiqdir.

Yeri gəlmişkən, Ombudsmana ünvanlanmış bəzi müraciətlərdə istismar müddətini keçmiş və ya qəzalı vəziyyətdə olan mənzillərin sahiblərindən alınması zamanı tikinti şirkətləri tərəfindən təklif edilən kompensasiyanın məbləğindən narazılıq halları narahatlıq doğurur.

Qeyd olunmalıdır ki, mənzil hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə öz əksini tapmış hallar üzrə müvafiq araşdırmalar aparılmış, pozulmuş hüquqların təmini istiqamətində tədbirlər görülmüşdür.

Tikinti şirkətləri tərəfindən xüsusilə yol kənarlarında, piyadaların gediş-gəlişi üçün nəzərdə tutulmuş yerlərdə və yaşayış evlərinin yaxınlığında inşa edilən bir sıra hündürmərtəbəli binalarda, təhlükəsizlik qaydalarına riayət edilməməsi ilə bağlı ciddi nöqsanlara yol verilir ki, bu da insanların həyat və sağlamlığını, habelə mənzil və digər əmlaklarını təhlükə altında qoyur.

Ərizəçi Q. (7418-24) Ombudsmana müraciət edərək, yaşadığı ərazidə aparılan tikinti işlərinin onların həyat və sağlamlıqları, habelə yaşadıqları mənzil üçün təhlükə yaratdığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Bakı Şəhər

İcra Hakimiyyətinə ünvanlanmış müraciətdən sonra ərazidə nəzərdə tutulmuş tikinti işlərinin mövcud şəhərsalma və tikinti qanunvericiliyinin tələblərinə əməl edilməklə aparılması, habelə sakinlərə narahatlıq yarada biləcək hallara yol verilməməsi üçün “Bakı Sarayları” MMC-yə xəbərdarlıq edilmişdir.

Ümumiyyətlə, inşaat işlərinin aparılması zamanı səlahiyyətli dövlət qurumları tərəfindən təhlükəsizlik məsələlərinə nəzarətin gücləndirilməsi zəruridir.

“2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası Silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 14 dekabr tarixli Sərəncamına uyğun olaraq, dağılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500, digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində vəsaitin ödənilməsi nəzərdə tutulmuşdur. Lakin Ombudsmana ünvanlanmış şikayətlərin təhlilindən göründüyü kimi, bu sahədə bəzi problemlər hələ də qalmaqdadır.

Ərizəçi M. (5128-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması nəticəsində ona məxsus yaşayış evinin yararsız vəziyyətə düşdüyünü, evin bərpası istiqamətində müvafiq tədbirlərin həyata keçirilmədiyini, qanunvericiliklə müəyyən edilmiş kompensasiyanın tam ödənilmədiyini, bununla bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ünvanlanmış müraciətə verilmiş cavabda həmin fərdi yaşayış evinə keçirilmiş təkrar baxış zamanı əlavə təmir işlərinin görülməsi ilə bağlı akt tərtib edildiyi, həmin akta əsasən, layihə-smeta sənədlərinin hazırlandığı və tikinti-bərpa işlərinə başlanıldığı bildirilmişdir.

Ərizəçi R. (22-24) Ombudsmana müraciət edərək, Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması nəticəsində evinin yararsız hala düşdüyünü, kirayə pulunun ödənilmədiyini, aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, Dövlət Komissiyasının təkrar baxışı nəticəsində ərizəçiyə məxsus fərdi yaşayış evinin sökülərək yenidən tikilməsi qərara alınmış, ev yenidən layihələndirilmiş və ekspertiza edilmiş, tikilməli olan evin əvəzində təsbit edilmiş smeta məbləği kompensasiya şəklində ərizəçiyə ödənilmişdir.

Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı sahəsində problemlərlə üzləşən vətəndaşların müraciətləri üzrə də araşdırmalar aparılmış, pozulmuş hüquqların bərpası istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi T. (5916-24) Ombudsmana müraciət edərək, ona məxsus mənzilə dair çıxarışın aidiyyəti qurum tərəfindən əsassız səbəblərdən verilmədiyini, süründürməçiliyə məruz qaldığını bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsinə ünvanlanmış müraciətdən sonra müvafiq mənzil üzərində vətəndaşın hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması ilə bağlı ərizəsinin icrası aidiyyəti ərazi idarəsi tərəfindən təmin edilmiş və bu barədə ona bildiriş göndərilmişdir.

Mənzil hüququnun təmini istiqamətində atılacaq mühüm addımlardan biri də sənədsiz yaşayış sahələrinin sənədləşdirilməsi ilə bağlıdır. Belə ki, çoxmərtəbəli binalarda yerləşən mənzillərin sənədləşdirilməsi üçün hüquqi baza olsa da, özbaşına tikilmiş fərdi yaşayış evlərinin rəsmiləşdirilməsi mexanizmi hələ də mövcud deyildir. Bu isə həmin tikililərdə yaşayan şəxslərin mənzillərindən istifadə və sərəncam hüququnu, habelə digər əlaqəli hüquqlarının həyata keçirilməsini məhdudlaşdırır. Qeyd olunanları nəzərə alaraq, özbaşına tikilmiş fərdi yaşayış evlərinin sənədləşdirilməsi ilə bağlı normativ bazanın hazırlanması vacibdir.

Vətəndaşların kommunal xidmət sahələri ilə bağlı üzləşdikləri problemlərlə əlaqədar Ombudsmana ünvanladıqları müraciətləri də davamlı olaraq araşdırılmış, səlahiyyətlər çərçivəsində həmin şikayətlərlə bağlı aidiyyəti dövlət müəssisə və təşkilatlarına müraciətlər edilmiş, vətəndaşların hüquqlarının təmin edilməsi üzrə tədbirlər görülmüşdür.

### 1.3. Əhali qruplarının hüquqlarının müdafiəsi

Qaçqınların, məcburi köçkünlərin, miqrantların hüquq və azadlıqlarının müdafiəsi, onların pozulmuş hüquqlarının bərpası, bu məsələnin beynəlxalq müstəvidə qaldırılması Ombudsmanın prioritet vəzifələri sırasındadır.

***Ermənistandan qaçqın düşmüş azərbaycanlıların hüquq və azadlıqları.*** Azərbaycanlılara qarşı Ermənistanın uzun illərdir həyata keçirdiyi etnik təmizləmə və nifrət siyasəti nəticəsində yüz minlərlə insanın pozulmuş hüquqlarının bərpası beynəlxalq hüquq və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmət baxımından böyük önəm daşıyır.

Müxtəlif vaxtlarda əzəli torpaqlarından zorla qovularaq qaçqın həyatı yaşamağa məcbur olmuş azərbaycanlıların pozulmuş hüquq və azadlıqlarının bərpası istiqamətində Ombudsman tərəfindən geniş fəaliyyət həyata keçirilmiş, müvafiq beynəlxalq təşkilatlar qarşısında bu məsələ davamlı olaraq qaldırılmışdır.

Məlumdur ki, azərbaycanlılar 1918–1921, 1948–1953-cü illərdə həyata keçirilmiş zorakı köçürmələr nəticəsində indiki Ermənistan ərazisindən deportasiya olunaraq etnik təmizləməyə məruz qalmışlar.

Ermənistanda azərbaycanlılara məxsus tarixi-mədəni abidələrin məhv edilməsi, yer adlarının dəyişdirilməsi həmin ərazilərdən onların izlərinin silinməsi və etnomədəni mənsubiyyətinin təhrif edilməsi məqsədilə həyata keçirilən siyasətin bir hissəsi olmuşdur.

Beynəlxalq təşkilatların susqunluğundan və cəzasızlıq mühitindən istifadə edən Ermənistanın ərazi iddiaları və etnik təmizləmə siyasəti növbəti illərdə daha da kəskinləşmiş və 1987-ci ildən başlayaraq 1991-ci ilədək davam etmiş etnik təmizləmə nəticəsində 250000-dən artıq azərbaycanlı işgəncə və qeyri-insani rəftara məruz qalaraq öz doğma torpaqlarından qovulmuşdur.

Bugünədək Ermənistan rəhbərliyində təmsil olunmuş rəsmilərin bir sıra çıxışlarında Azərbaycanofobiya siyasətinə əsaslanan nifrət nitqi nümunələri öz əksini tapmış, Ombudsmanın hesabat və videolarında da bu materiallara istinadlar edilmişdir.

Son zamanlar sosial şəbəkələrdə geniş yayılmış videoda Ermənistanın keçmiş prezidenti Levon Ter Petrosyanın 1993-cü ildə "Yerkrapa" terror təşkilatının üzvləri ilə görüşündə çıxışı zamanı Ermənistan ərazisində 1988-ci ilə qədər yüz minlərlə azərbaycanlının olduğu və onların məqsədli şəkildə qovulduğu etiraf edilmişdir.

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna əsasən, deportasiya və ya əhalinin zorla köçürülməsi insanlıq əleyhinə cinayətdir. Sözügedən sənədə qoşulmasına baxmayaraq, cəzasızlıq mühiti Ermənistanın yenidən bu kimi cinayətləri törətməsinə və azərbaycanlılara qarşı etnik zəmində nifrət siyasətini davam etdirməsinə səbəb olmaqdadır. Təəssüf ki, Ermənistan tərəfi bu cür cinayətləri inkar edir və azərbaycanlılara qarşı nifrət təzahürləri bu gün də özünü göstərməkdədir.

Ermənistandan qaçqın düşmüş azərbaycanlıların öz ata-baba yurdlarına təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışı, mülkiyyət və digər hüquqlarının təmin olunması insan hüquqlarının müdafiəsi sahəsində mövcud beynəlxalq sənədlərin tələbləri baxımından olduqca vacibdir.

Hər kəsin azad hərəkət etmək və öz ölkəsinə qayıtmaq hüququ insan hüquqları sahəsində mövcud olan bir sıra beynəlxalq sənədlərdə təsbit edilmişdir.

Bütün insanların bərabər hüquqlara malik olduğunu təsdiq edən ilk universal sənəd olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsində təsbit olunduğu kimi, hər bir insan, öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir.

Azərbaycan və Ermənistanın tərəfdar çıxdığı "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın 5-ci maddəsinin d bəndinin II hissəsinə əsasən, iştirakçı dövlətlər irqinə, dərisinin rənginə, milli, yaxud etnik mənşəyinə görə fərq qoyulmadan hər bir insanın, xüsusilə öz ölkəsi də daxil olmaqla, hər hansı ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququnu bərabər şəkildə həyata keçirməyə münasibətdə, qanun qarşısında bərabərliyini təmin etməyi öhdələrinə götürürlər.

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinə əsasən, hər bir şəxsin istənilən ölkəni tərk etmək hüququ vardır və heç kəs öz ölkəsinə gəlmək hüququndan özbaşınalıqla məhrum edilə bilməz. Ermənistan tərəfindən zorakılıq tətbiq edilməklə azərbaycanlıların məhz etnik mənsubiyyətinə görə və kütləvi şəkildə həmin ölkənin ərazisindən qovulması bu normanın kobud pozuntusu kimi qiymətləndirilə bilər.

Beynəlxalq humanitar hüquq qaydaları da münaqişə ilə əlaqədar könüllü və ya məcburi şəkildə yerdəyişməyə məruz qalmış şəxslərin qayıdış hüququnu təsbit edir. Beynəlxalq təcrübədə məcburi yerdəyişməyə məruz qalmış şəxslər və ya onların nümayəndələrinin zorla çıxarıldığı ölkəyə gedərək təhlükəsizlik və maddi imkanlar baxımından vəziyyəti qiymətləndirməsinə şərait yaradılması hallarına rast gəlinir.

Konkret olaraq Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrdə də qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə və ləyaqətlə öz yurdlarına qayıdışına dəstək göstərilməsi məsələsi vurğulanmışdır.

Nəzərə alınmalıdır ki, qaçqınların öz ölkəsinə qayıdışı zamanı ortaya çıxan əsas məqamlar təhlükəsizlik və onların geri qayıtdığı cəmiyyətə inteqrasiyası, o cümlədən ayrı-seçkiliyə məruz qalmaması ilə bağlıdır. Ermənistan hökuməti beynəlxalq sənədlərə əsasən üzərinə götürdüyü öhdəliklərə əməl edərək azərbaycanlıların təhlükəsiz şəraitdə və ləyaqətlə qayıdışına, onların hər hansı ayrı-seçkiliyə məruz qalmamasının təmin edilməsi üçün zəruri tədbirlər görüləcəyinə dair zəmanət verməli, eyni zamanda, etnik nifrəti qızışdıran siyasətdən əl çəkməklə sülh və birgəyaşayışın təşviqi istiqamətində intensiv səyləri artırmalıdır.

2024-cü ildə bu sahədə vacib addımlardan biri kimi Azərbaycan Ombudsmanı tərəfindən milli insan hüquqları təsisatı qismində Birləşmiş Millətlər Təşkilatının İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinə (CERD) alternativ hesabat təqdim edilmişdir. Komitə tərəfindən Ermənistanın növbəti dövri məruzəsinə baxış çərçivəsində nəzərə alınması üçün təqdim edilmiş həmin alternativ hesabatda tarixin müxtəlif dövrlərində indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların hüquqlarının pozulması məsələsinə də yer verilmişdir.

Hesabatda "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın müxtəlif maddələri üzrə Ermənistan tərəfindən etnik mənsubiyyətinə görə azərbaycanlılara qarşı ayrı-seçkilik edilməsi məsələləri qeyd edilmişdir. Ermənistan ərazisində azərbaycanlılara məxsus olan dini-mədəni abidələrin dağıdılması, həmin şəxslərə aid mülkiyyətin talanması kimi faktlar da hesabatda diqqətə çatdırılmışdır.

Hesabatın yekununda etnik təmizləmə və deportasiyaya məruz qalmış azərbaycanlıların təhlükəsiz şəraitdə və ləyaqətlə öz ata-baba yurdlarına qayıtması və onların pozulmuş hüquqlarının bərpası, o cümlədən Ermənistan hökuməti tərəfindən azərbaycanlılara məxsus mülkiyyətin, müxtəlif təyinatlı torpaq sahələrinin öz sahiblərinə geri qaytarılması, mülkiyyətə vurulmuş zərər və mülkiyyətdən istifadənin qarşısının alınması səbəbindən yaranmış itkilərlə əlaqədar kompensasiya ödənilməsi, mülkiyyət hüququnun bərpasından irəli gələn bütün xərclərin qarşılanması və digər zəruri tədbirlərin

görülməsinin Ermənistan hökuməti tərəfindən təmin edilməsi təkliflər sırasında öz əksini tapmışdır.

Bu sahədə əldə edilmiş mühüm nəticələrdən biri də odur ki, Ombudsmanın dəvəti əsasında 2023-cü il 2-6 sentyabr tarixlərində Azərbaycana səfər edərək işğaldan azad edilmiş ərazilərdə və İkinci Qarabağ müharibəsi dövründə raket hücumlarına məruz qalmış mülki yaşayış məntəqələrində faktaraşdırıcı missiya həyata keçirmiş İƏT Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının 2024-cü ildə İƏT Xarici İşlər Nazirləri Şurasının 50-ci Zirvə Görüşü çərçivəsində təsdiq edilmiş hesabatında bu məsələyə də toxunulmuşdur. Belə ki, faktaraşdırıcı missiyanın nəticələrinə əsaslanan hesabatın yekununda Komissiyanın tövsiyələri sırasında qaçqın və məcburi köçkünlərin qayıdış hüququnun təmininin vacibliyi məsələsi də qeyd olunmuşdur.

Qərbi Azərbaycan İcmasının üzvləri tərəfindən Ombudsmanın ünvanına uzun illərdir qaçqınlıq həyatı yaşayan azərbaycanlıların pozulmuş hüquqlarının bərpası ilə bağlı çoxsaylı müraciətlər də daxil olmuşdur. İcma qaçqın düşmüş azərbaycanlıların hüquqlarının təmininə dəstək verilməsi üçün həm də Ombudsmanla əməkdaşlıqda marağını ifadə etmişdir.

Qeyd olunmalıdır ki, həmin İcma tərəfindən hazırlanmış "Qayıdış Konsepsiyası" azərbaycanlılara münasibətdə həyata keçirilmiş bu ədalətsiz siyasətin nəticələrinin aradan qaldırılmasına yönəlmiş əsaslı bir sənəd kimi deportasiya probleminin tarixi aspektləri, beynəlxalq hüquqi yanaşmalar və gələcəyə yönəlik addımlar ilə bağlı mühüm məqamları əhatə edir.

Yeri gəlmişkən, Ombudsman Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə keçirilən, 50-dən çox ölkədən 100-ə yaxın nümayəndənin qatıldığı "Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransda iştirak etmişdir.

Bununla yanaşı, ATƏT-in İnsan Ölçüsü Konfransının "Tolerantlıq və ayrı-seçkilik" mövzusunda 8-ci Plenar Sessiyasında Ombudsman Aparatı rəhbərinin məruzəsində azərbaycanlıların 20-ci əsr ərzində dəfələrlə indiki Ermənistan ərazisindən deportasiya edildiyi və müxtəlif təqiblərə məruz qaldığı, onların maddi və qeyri-maddi mədəni irsinin tamamilə məhv edildiyi diqqətə çatdırılmışdır. Həmçinin azərbaycanlılara qarşı etnik zəmində nifrətin formalaşdırılmasının Ermənistan tərəfindən törədilən beynəlxalq cinayətlərin əsas səbəblərindən biri olduğu, Azərbaycan əhalisinin Ermənistan ərazisindən zorla qovulmasının insan hüquqları sahəsində beynəlxalq konvensiya və müqavilələrə zidd olaraq bərabərlik prinsipinin pozulmasına səbəb olduğu qeyd edilmişdir.

***Qaçqınların, məcburi köçkünlərin və miqrantların hüquqlarının müdafiəsi.*** Otuz ildən artıq yurd həsrətindən sonra öz doğma torpaqlarına qayıdan soydaşlarımızın Qarabağda və Şərqi Zəngəzurda davamlı məskunlaşması istiqamətində genişmiqyaslı tədbirlər davam etdirilmişdir.

Həmin bölgələrdə yaşayış üçün zəruri olan infrastrukturun, sosial-mədəni obyektlərin, təhsil və səhiyyə müəssisələrinin istifadəyə verilməsi, "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin, "yaşıl texnologiya"ların tətbiqi, beynəlxalq hava limanlarının istifadəyə verilməsi, nəqliyyat-loqistika imkanlarının artırılması bu ərazilərdə rifahın yüksəldilməsinə və layiqli həyat səviyyəsinin təmin olunmasına zəmin yaratmışdır. Xankəndi şəhərində Qarabağ Universitetinin fəaliyyətə başlaması regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması baxımından mühüm əhəmiyyət daşıyır.

Ombudsman keçmiş məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin hüquq və azadlıqlarının etibarlı müdafiəsi və səmərəli təmini üzrə fəaliyyətini davam etdirmiş, səlahiyyətli dövlət qurumlarına müraciətlər ünvanlanmış, zəruri hallarda tövsiyələr verilmişdir.

Əhalinin həssas qruplarından olan həmin şəxslərin yaşayış şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin səmərəli təşkili, qeydiyyatda olduqları şəhər və rayonlar üzrə yeni salınmış yaşayış məntəqələrinə qayıdışı və bu kimi digər məsələlərlə əlaqədar Ombudsmanın ünvanına daxil olmuş müraciətlər araşdırılmış və müvafiq tədbirlər görülmüşdür.

Ərizəçi, keçmiş məcburi köçkün T. (11727-24) Ombudsmana müraciət edərək, işğaldan azad edilmiş rayonlara qayıdışla əlaqədar ailəsinin köçürüləcək şəxslərin siyahısına alınmasında köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, vətəndaşın sorğusu araşdırılmış və onun adı ailəsi ilə birgə Kəlbəcər şəhərinə ilk köçürüləcək ailələrin siyahısına əlavə edilmişdir.

Ərizəçi, keçmiş məcburi köçkün N. (8870-24) Ombudsmana müraciət edərək, ailəsinin qeydiyyatda olduğu ərazi üzrə məskunlaşması barədə aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ünvanlanmış müraciətə verilmiş cavabda qeyd edilmişdir ki, “Dövlət Proqramı”nın icrası ilə əlaqədar olaraq ərizəçi dörd nəfərdən ibarət ailə üzvləri ilə birlikdə qeydiyyatda olduqları Füzuli şəhəri ərazisində məcburi köçkünlərin daimi məskunlaşması məqsədilə salınmış yaşayış kompleksində üç otaqlı mənzillə təmin edilmişdir.

Öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərin yeni yaşayış şəraitinə adaptasiya olunmaları, ailələrinin maddi ehtiyaclarını qarşılamaları məqsədilə fərdi sahibkarlıqla məşğul olmaları, bunun üçün qeyri-yaşayış obyektlərinin istifadə məqsədilə ayrılması, tərtib etdikləri biznes layihələrinin nəzərə alınması məsələlərinə diqqət yetirilmiş, həmin ərazilərdə fəaliyyət göstərən səlahiyyətli dövlət qurumları ilə əməkdaşlıqda bəzi tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi M. (16741-24) Ombudsmana müraciət edərək, doğulduğu Laçın rayonunun Əhmədli kəndi ərazisində məcburi köçkün düşməzdən əvvəl ailəsinin istifadəsində olan torpaq sahəsinin sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə onun istifadəsinə verilməsində köməklik göstərilməsini xahiş etmişdir. Məsələ ilə bağlı Ombudsman tərəfindən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəsinə müraciət edilmiş və zəruri tədbirlər görülmüşdür.

Ombudsmanın diqqətində olan məsələlərdən biri də müvafiq sahədə fəaliyyət göstərən dövlət qurumlarının işinin səmərəliliyinin artırılması məqsədilə həmin qurumlarda çalışan əməkdaşların nəzəri və praktiki biliklərin artırılması olmuşdur. Belə ki, yerli və beynəlxalq ekspertlər cəlb edilməklə davamlı olaraq məcburi köçkünlərin və miqrantların hüquqları, vətəndaşsızlığın aradan qaldırılması və digər əlaqəli mövzularda tematik seminar və təlimlər təşkil edilmişdir.

Ombudsman miqrantların, qaçqınların və sığınacaq axtaran şəxslərin hüquq və azadlıqlarının müdafiəsi, tənzimlənməyən miqrasiyanın qarşısının alınması sahəsində müvafiq dövlət qurumları, xarici həmkarlar və beynəlxalq təşkilatlarla əməkdaşlıqda tədbirləri davam etdirmişdir. Bu əməkdaşlığın ikitərəfli və çoxtərəfli müstəvidə inkişafı, vətəndaşsızlıq hallarının azaldılması və aradan qaldırılması, bu məqsədlə əhalinin məlumatlılığının artırılması və digər istiqamətlər üzrə geniş məlumat və təcrübə mübadiləsi aparılmışdır.

Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Nümayəndəliyi ilə əməkdaşlıqda Azərbaycan və ingilis dillərində “İnsan hüquqları və miqrasiya” adlı maarifləndirici broşür çap edilmiş, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ölkə Nümayəndəliyi ilə əməkdaşlıqda isə vətəndaşsızlığın aradan qaldırılması məqsədilə maarifləndirici videoçarx hazırlanmışdır.

Əcnəbilərin ölkədə yaşamalarının qanuniləşdirilməsi, bu məqsədlə müxtəlif miqrasiya sənədlərinin rəsmiləşdirilməsi, habelə hərbi münaqişə nəticəsində öz ölkəsini tərk edərək ölkəmizə gələn şəxslərin və onların ailə üzvlərinin sosial müdafiəsi kimi məsələlər Ombudsman tərəfindən diqqətdə saxlanılmışdır.

Ölkəyə gələn əcnəbilərin müvafiq normativ-hüquqi sənədlərdə təsbit olunmuş insan hüquq və azadlıqlarına dair müddəaların mahiyyəti barədə məlumatlandırılması və üzləşdikləri problemlərin çevik həlli ilə bağlı Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə müntəzəm müzakirə, məlumat mübadiləsi və məsləhətləşmələr aparılmışdır. Nəticədə bu şəxslərin hüquqi statusunun müəyyənləşdirilməsi, Azərbaycan Respublikasında olduqları yer üzrə qeydiyyata alınması, yaşama icazələrinin verilməsi, onların qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olmalarına əlverişli şəraitin yaradılması, habelə digər məsələlər öz həllini tapmışdır.

Ərizəçi, əcnəbi A. (12513-24) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikasında ali təhsil alaraq təhsilini başa vurduğunu bildirmiş, ölkə ərazisində yaşamasının leqallaşdırılması məsələsinin həllində köməklik göstərilməsini xahiş etmişdir. Məsələ ilə bağlı Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə ünvanlanmış müraciətdən sonra müvafiq sənədlər toplanılmaqla aidiyyəti üzrə təqdim edilməsi təmin edilmiş və əcnəbiyə bu istiqamətdə zəruri köməklik göstərilmişdir.

Məlum olduğu kimi, Konstitusiya Qanununun 1.7-ci maddəsinə əsasən, Ombudsman vətəndaşlıq məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər verə bilər.

Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə bağlı arayışların əldə edilməsi, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, bərpa və xitam verilməsi ilə bağlı müraciətlərin araşdırılması və bununla bağlı zəruri tədbirlərin görülməsi üzrə işlər davam etdirilmişdir.

Ölkəmizdə olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə yanaşı, xarici ölkələrə yaşamağa, təhsil almağa və digər məqsədlərlə gedən Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının təmin edilməsinə, çətin və həssas vəziyyətdə olan vətəndaşlara hüquqi dəstəyin göstərilməsi məsələlərinə də xüsusi diqqət yetirilmişdir.

Ərizəçi T. (20483-24) Ombudsmana müraciət edərək, övladının Litvanın Vilnüs Universitetinə daxil olduğunu, onun təhsil alması üçün tələb olunan yaşama icazəsinin verilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Litva Ombudsmanına və həmin ölkənin miqrasiya departmentinə ünvanlanmış müraciətlərdən sonra ərizəçinin övladına təhsil məqsədli ikiillik yaşama icazəsi verilmişdir.

Xarici ölkələrdə qeyri-müəyyən vəziyyətdə qalan Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının müdafiəsi, qayıdış şəhadətnamələrinin rəsmiləşdirilməsi, eyni zamanda miqrantların qarşılaşdıqları çətinliklərin operativ həlli, maraqlarının düzgün müəyyənləşdirilməsi və müdafiəsi üzrə tədbirlər həyata keçirilmişdir.

Ərizəçi, Azərbaycanda müvəqqəti yaşayan Ukrayna vətəndaşı M. (932-24) Ombudsmana müraciət edərək, Danimarkada hüquq pozuntusuna yol verilməklə uşaq evinə yerləşdirilmiş azyaşlı övladlarının Azərbaycan Respublikasına qayıtmaları ilə bağlı tədbirlərin görülməsində köməklik göstərilməsini xahiş etmişdir. Ombudsmanın müdaxiləsi, habelə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Danimarkanın Sosial İşlər və Ahıl Şəxslərin Məsələləri üzrə Nazirliyi ilə əməkdaşlıqda görülən tədbirlər nəticəsində uşaqlar ailəsinə qaytarılmışdır.

Ölkədən getmək və ölkəyə gəlmək hüququnun həyata keçirilməsi üzrə tətbiq edilən məhdudiyyətlərin, həmçinin xarici dövlətlərdən məcburi çıxarılmaqla həmin ölkələrə girişə qoyulmuş qadağaların ailə dəyərlərinin qorunması və ailə birləşməsi prinsipləri nəzərə alınmaqla aradan qaldırılması ilə bağlı müraciətlər araşdırılaraq müvafiq tədbirlər görülmüşdür. Bu sahədə zəruri əlaqələndirilmə işi davam etdirilmişdir.

Ərizəçi A. (12254-24) Ombudsmana müraciət edərək, əcnəbi bacısı N.-in Azərbaycan Respublikasında olma qaydalarını pozduğuna görə cərimə edilməklə

müvafiq qərar əsasında inzibati qaydada ölkə hüdudlarından kənara çıxarıldığını bildirmiş, onun Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən ölkə ərazisinə girişinə qoyulmuş məhdudiyyətin aradan qaldırılmasında köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı həmin Xidmətə ünvanlanmış müraciət nəticəsində N-in ilk dəfə inzibati xəta törətməsi və Azərbaycan Respublikasında yaşayan atasının ağır onkoloji xəstə olması nəzərə alınaraq, onun barəsində tətbiq edilən məhdudiyyət aradan qaldırılmış, Azərbaycan Respublikasına gəlməsi təmin olunmuşdur.

Ombudsmanın ünvanına xarici həmkarlarından daxil olmuş müraciətlər əsasında müvafiq sənədlərin dublikatlarının, surətlərinin və çıxarışların verilməsi, məhkəmə qərarlarının icraya yönəldilməsi kimi məsələlər öz həllini tapmışdır. Zəruri hallarda Azərbaycan Respublikası qanunvericiliyinin müvafiq müddəaları qeyd edilməklə hüquq-müdafiə mexanizmləri barədə ətraflı izahedici məlumatlar da verilmişdir.

Rusiya Federasiyasının Volqoqrad vilayətinin insan hüquqları üzrə müvəkkili (8086-24) Ombudsmana müraciət edərək, borcun ödənilməsinə dair mülki iş üzrə cavabdeh Q.-nin Rusiya Federasiyasının vətəndaşı X.-nin xeyrinə pul vəsaitinin tutulması istiqamətində Nərimanov Rayon İcra Şöbəsi tərəfindən zəruri tədbirlər görülmədiyini bildirmişdir. Müraciətlə bağlı Ombudsmanın müdaxiləsindən sonra Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən yeni icra vərəqəsi tərtib edilməklə icraya yönəldilmişdir.

Ombudsmanın tapşırığına əsasən, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması mərkəzlərinə başçəkmələr keçirilmiş, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə rəftar, onların saxlanma şəraiti, tibbi-sanitariya xidmətlərinin təşkili, qida və maddi-məişət təminatı, habelə hüquqlarının təmini vəziyyətinin monitorinqi aparılmış, saxlanılan şəxslər konfidensial qaydada qəbul olunmuş, müraciətləri araşdırılmış, bir sıra aktual məsələlərlə bağlı əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti yerində yoxlanılmışdır. Bu müəssisələrdə saxlanılan bir sıra əcnəbilərin öz ölkələrinə operativ qaydada qayıtmalarına da dəstək göstərilmişdir. Bununla yanaşı, yaşamaq üçün yerləri olmayan və könüllü şəkildə həmin mərkəzlərdə yerləşdirilən “qaçqın” statusu almaq niyyətində olan şəxslərin vəziyyəti də nəzarətdə saxlanılır.

Qaçqın statusunun verilməsindən imtina edilməsi haqqında qərarlardan Ombudsmanın ünvanında daxil olmuş şikayətlərlə əlaqədar müxtəlif vaxtlarda Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciətlər ünvanlanmışdır.

Həmin Xidmət yanında Vətəndaşsızlıq məsələləri ilə əlaqədar İşçi qrupda təmsil olunan Ombudsman təsisatının nümayəndəsi müvafiq sahədə də fəaliyyətini davam etdirmişdir.

Azərbaycanın mədəni irsinin öyrənilməsi və təbliği məsələsi də daxil olmaqla miqrantlar və müvafiq Xidmətdə qeydiyyatda olan qaçqın ailələrinin inklüzivliyi və sosial müdafiəsi məqsədilə müxtəlif formatlı silsilə tədbirlər təşkil edilmiş, o cümlədən Qobustan Milli Tarix-Bədii Qoruğuna ekskursiya və digər tədbirlər həyata keçirilmişdir.

Qeyd edilənlərlə yanaşı, miqrantların hüquqlarının müdafiəsi mexanizmləri və prosedurları barədə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə qaçqınlar və sığınacaq axtaran şəxslər üçün müntəzəm qaydada təşkil edilmiş maarifləndirmə tədbirləri çərçivəsində sığınacaq axtaran ailələrlə görüşlər keçirilmiş, hüquqlar izah edilməklə onlarla fərdi söhbətlər aparılmışdır. Hüquqlarla yanaşı, miqrasiya qanunvericiliyinin tələbləri və ayrı-ayrı məsələlərlə bağlı inzibati məsuliyyət barədə də məlumat verilmişdir.

***Şəhid ailələri və müharibə iştirakçılarının hüquqlarının müdafiəsi.*** Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, müharibə veteranlarının və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının

yaxşılaşdırılması üzrə tədbirlər davam etdirilmiş, bu şəxslərlə görüşlər keçirilmiş, problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Şəhid ailələri və müharibə iştirakçıları tərəfindən Ombudsmana ünvanlanan müraciətlər əsasən sosial təminat hüquqlarının həyata keçirilməsi, eyni zamanda reabilitasiya xidmətləri və vasitələri ilə təminat, məşğulluq məsələləri, habelə tibbi və psixoloji yardımın göstərilməsi ilə bağlı olmuş, bu istiqamətdə aidiyyəti dövlət qurumları ilə birgə problemlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi Z. (14117-24) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, struktur dəyişikliyi ilə əlaqədar çalışdığı Siyəzən Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsindən işdən azad olunduğunu və ona başqa iş təklif edilmədiyini, müharibə veteranı və ailə vəziyyətinin ağır olmasını nəzərə alaraq, işsizlik probleminin həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxsinə ünvanlanmış müraciətdən sonra ərizəçi müvafiq işlə təmin olunmuşdur.

Ərizəçi H. (6056/2-24) Ombudsmana müraciət edərək, oğlunun Vətən müharibəsində şəhid olduğunu, “Bilgəh” kardioloji sanatoriyasına yollayışla təmin edilməsi ilə bağlı müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına ünvanlanmış müraciətdən sonra ərizəçi yollayışla təmin olunmuşdur.

Müharibə iştirakçıları tərəfindən Ombudsmana ünvanlanan bir çox müraciətlər “Müharibə veteranı” adı və vəsiqəsinin verilməməsi, müharibə veteranları üçün nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin təqaüdünün ödənilməsində köməklik göstərilməsi, habelə müharibə dövründə döyüşlərdə iştiraka görə təltif məsələləri ilə bağlı olmuş, bununla əlaqədar aidiyyəti səlahiyyətli dövlət qurumları ilə əməkdaşlıqda araşdırmalar aparılmış, bir sıra hallarda hüquqlar təmin edilmişdir.

Ərizəçi R. (884-24) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, lakin ona “Müharibə veteranı” adının verilməsi ilə bağlı müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçiyə Ermənistan silahlı birləşmələrinə qarşı əks-hücum əməliyyatının keçirilməsində və işğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı verilmişdir.

Ərizəçi M. (11002-24) Ombudsmana müraciət edərək, ona “Müharibə veteranı” adının verildiyini, lakin müharibə veteranları üçün nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin təqaüdünün keçmiş dövr üçün hesablanan məbləğinin ona ödənilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçiyə keçmiş dövr üçün hesablanmış 2400 manat vəsaitin birdəfəlik ödənişi təmin edilmişdir.

Ərizəçi V. (9926-24) Ombudsmana müraciət edərək, “Müharibə veteranı” vəsiqəsini itirdiyi üçün ona ödənilən müharibə veteranları üçün nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin təqaüdünün 2022-ci ilin mart ayından dayandırıldığını və 2024-cü ilin iyun ayından yeni vəsiqə ilə təmin edildiyini, lakin yaranmış fərq məbləğinin ona ödənilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanlanmış müraciətdən sonra ərizəçiyə 2022-ci ilin aprel ayının 1-dən 2024-cü ilin may ayının 31-i tarixinədək olan dövr üzrə 2080 manat vəsaitin ödənilməsi təmin edilmişdir.

Ərizəçi E. (5824-24) Ombudsmana müraciət edərək, oğlunun Vətən müharibəsində iştirak etdiyini, lakin müharibə dövründəki xidmətlərinə görə onun medalla təltif olunmadığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin oğlunun “Vətən müharibəsində

arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı ilə təltif olunması barədə yuxarı komandanlıq qarşısında vəsatət qaldırılmışdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikası ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər, müharibə veteranları və şəhid ailələri üçün təhsil sahəsində də müəyyən imtiyazlar tətbiq edilmişdir. Həmin kateqoriyadan olan şəxslərin təhsil hüququnun təmin edilməsi sahəsində qarşılaşdıqları çətinliklərlə bağlı Ombudsmana ünvanladıqları müraciətlər də diqqətdə saxlanılmış, zəruri tədbirlər görülmüşdür.

Ərizəçi Z. (11884-24) Ombudsmana müraciət edərək, iki övladının Vətən müharibəsində iştirak etdiyini və aldıqları xəsarətlərə görə əlillik vəziyyətlərinin müəyyən edildiyini, övladlarından birinin 2024-cü ildə Xəzər Universitetinə ödənişli əsaslarla qəbul olunduğunu, lakin müvafiq sənədləri təqdim etməsinə baxmayaraq, onun Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxs, habelə müharibə veteranı kimi təhsil haqqı ödənişindən azad edilmədiyini bildirmişdir. Ombudsmanın müdaxiləsindən sonra ərizəçinin övladının Xəzər Universitetinə ödənişsiz əsaslarla qəbul olunması təmin edilmişdir.

Şəhid adının əbədiləşdirilməsi məqsədilə respublikanın müxtəlif şəhər və rayon mərkəzlərində, qəsəbələrində küçələrə, məktəblərə şəhid adları verilmiş, parklar salınmış, guşələr yaradılmış, onların adları və şəkilləri əks olunmuş lövhələrin quraşdırılması istiqamətində işlər görülmüşdür.

Qeyd edilən məsələ ilə əlaqədar şəhid ailələri tərəfindən Ombudsmanın ünvanına daxil olan müraciətlərə də xüsusi diqqət göstərilmiş, yerli icra hakimiyyəti orqanları ilə birlikdə araşdırmalar aparılaraq zəruri tədbirlər görülmüşdür.

Şəhid anası S. (6257-24) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş övladının adının Goranboy rayonunun Qaraçinar kənd tam orta məktəbinə verilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Goranboy Rayon İcra Hakimiyyətinə ünvanlanmış müraciətdən sonra şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə onun adının Qaraçinar kənd tam orta məktəbinə verilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli, 10 saylı Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi Qaydaları"na əsasən, şəhid ailələrinin qanunvericilikdə nəzərdə tutulmuş güzəşt və imtiyazlardan istifadə etmək hüququ vardır. Lakin bununla bağlı təcrübədə yaranan bəzi çətinliklər qanunvericilikdə müəyyən dəyişikliklərin edilməsi zərurətini yaradır. Belə ki, mövcud qanunvericiliyin 2.1.4-cü bəndinə əsasən, şəhidin uşaq evlərində tərbiyə olunan qardaş və bacıları şəhid ailəsinin üzvü hesab edilirlər. Şəhidin həmin Qaydaların 2-ci hissəsində nəzərdə tutulmuş ailə üzvlərinin olmaması halında, uşaq evlərində olmasından asılı olmayaraq bacı və qardaşlarının da şəhid ailəsinin üzvü hesab edilməsi həmin şəxslərin müvafiq güzəşt və imtiyazlardan bərabər şərtlərlə istifadə etməsinə şərait yaradacaqdır.

Qarabağ müharibəsi zamanı xəsarət almış şəxslərin müayinə və müalicəsinin təşkili, habelə onların əlillik vəziyyətlərinin qiymətləndirilməsi ilə əlaqədar sənədləşmə prosesində mövcud çətinliklər və süründürməçilik halları ilə bağlı daxil olmuş şikayətlər üzrə araşdırmalar aparılmış və müvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi S. (3977-24) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, döyüşlər zamanı ağır xəsarətlər aldığını bildirərək müayinə və müalicəsinin təşkilində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra ərizəçi Sumqayıt Tibb Mərkəzi Publik Hüquqi Şəxsi tərəfindən Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası Publik Hüquqi Şəxsinə

ixtisaslaşmış stasionar müalicə və instrumental müayinə olunması üçün göndərişlə təmin edilmişdir.

Ərizəçi C. (1981-24) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, səhhəti ilə əlaqədar hərbi xidmətdən tərxis olunduğunu, müharibə dövründə aldığı xəsarətlərə görə əlillik vəziyyətinin müəyyən edilməsi ilə bağlı aidiyyəti üzrə müraciətlərinin təmin edilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciətdən sonra ərizəçiyə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar orqanizmin funksiyalarının 31-60% pozulmasına görə əlillik müəyyən edilmiş və müvafiq məbləğdə aylıq sosial müavinət təyin olunmuşdur.

Şəhid ailələri və müharibə veteranlarının sosial müdafiəsinin səmərəli təmin edilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin dolğun həyat şəraitinin, cəmiyyətə inteqrasiyasının təmini daim diqqətdə saxlanılmalı, bu sahədə aidiyyəti qurumların fəaliyyəti effektiv şəkildə əlaqələndirilməlidir.

***Hərbi qulluqçuların hüquqlarının müdafiəsi.*** Hərbi qulluqçuların hüquqlarının səmərəli təmin edilməsi, onların maddi-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmişdir.

Hərbi qulluqçular və onların ailə üzvləri tərəfindən Ombudsmana ünvanlanmış müraciətlərdə həqiqi hərbi xidmətdə, ehtiyatda və istefada olan (xüsusilə Silahlı Qüvvələrin tərkibindəki başqa silahlı birləşmələrdən ehtiyata və ya istefaya buraxılmış) hərbi qulluqçuların dövlət vəsaiti hesabına mənzillə təmin edilməsinin gecikdirilməsi, Silahlı Qüvvələrdən ehtiyata buraxılmada müəyyən problemlərin olması, bəzi hallarda bununla bağlı məhkəmə qərarlarının icrasının gecikdirilməsi, istifadə edilməmiş məzuniyyət günlərinə və əşya əmlakına görə pul kompensasiyasının vaxtında verilməməsi, möhlət və azadetmə hüququnu verən əsasların olmasına baxmayaraq, bəzi çağırışçılara münasibətdə bu hüquqdan istifadənin məhdudlaşdırılması, çağırışçıların sağlamlıq vəziyyətinin müəyyən edilməsi sahəsində nöqsanlara yol verilməsi nəticəsində müddətli həqiqi hərbi xidmətə göndərilmiş bəzi gənc əsgərlərin sağlamlığında problemlərin aşkar olunması, aidiyyəti qurumlar tərəfindən zəruri sənədlərin vaxtında verilməməsi və digər hallar öz əksini tapmışdır.

Bəzən sağlamlığında problem olan şəxslərin həqiqi hərbi xidmətə cəlb edilməsi onların sağlamlıq və mənəvi-psixoloji vəziyyətinə ciddi təsir etməklə yanaşı, nəticə etibarilə onların komandir heyəti tərəfindən döyüş hazırlığı ilə bağlı olmayan işlərə cəlb olunmasına, habelə müayinə və müalicələrinin təşkili üçün hərbi büdcədən əlavə vəsait xərcinə səbəb olur.

Ərizəçilər B. (8517-24) və E. (12131-24) Ombudsmana müraciət edərək, övladlarının müddətli həqiqi hərbi xidmətə cəlb edilən zaman sağlamlıqlarında ciddi problemlərin olmasının nəzərə alınmadığını bildirmiş, onların həqiqi hərbi xidmətə yararlı olub-olmadığını müəyyənləşdirmək üçün yenidən tibbi şəhadətləndirilməsində köməklik göstərilməsini xahiş etmişlər. Şikayətlərlə bağlı Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə (bundan sonra – SHXÇDX) ünvanlanmış müraciətdən sonra hər iki ərizəçinin övladı müvafiq hərbi həkim komissiyası tərəfindən şəhadətləndirilmiş və hər iki hərbi qulluqçu barəsində "Sülh dövründə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlıdır" qərarı verilməklə sağlamlıq vəziyyətinə görə hərbi xidmətdən vaxtından əvvəl tərxis edilmişlər.

Ərizəçi A.-nın (10105-24) Ombudsmana ünvanladığı eyniməzmunlu ərizəsi ilə əlaqədar görülmüş tədbirlər nəticəsində övladı müvafiq hərbi həkim komissiyası tərəfindən şəhadətləndirilmiş və barəsində "Sıradankənar hərbi xidmətə yararlıdır" qərarı verilmişdir.

Müddətli həqiqi hərbi xidmətə çağırış prosesinin həyata keçirilməsi zamanı qeyd olunan çatışmazlıqların aradan qaldırılması məqsədilə SHXÇDX-nin yerli qurumlarında fəaliyyət göstərən Çağırış və Hərbi həkim komissiyalarında təmsil olunan mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması və vəzifə funksiyalarına daha da məsuliyyətli yanaşmalarını təmin etmək məqsədilə zəruri tədbirlər görülməli, bu komissiyaların fəaliyyətinə nəzarət gücləndirilməlidir.

Təhsilin davam etdirilməsi məqsədilə və ya sağlamlıq vəziyyəti ilə bağlı çağırışçılara müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət verilməsi barədə Ombudsmana ünvanlanmış müraciətlər araşdırılmış, qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi V. (6598-24) Ombudsmana müraciət edərək, övladına təhsilini davam etdirməsi üçün müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququnun verilməsi ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı SHXÇDX-yə ünvanlanmış müraciətdən sonra "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.5-ci maddəsinə əsasən, təhsilini davam etdirməsi üçün ərizəçinin övladına təhsilə görə müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət verilmiş və bu barədə onun "İlkin hərbi qeydiyyata alınma haqqında vəsiqə"sində müvafiq qeydlər aparılmışdır.

Təhsilini davam etdirməsi (3320-24), habelə sağlamlıq problemləri ilə əlaqədar olaraq (1087-24, 3366-24, 4280-24, 5050-24, 7244-24 və s.) müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsi barədə ərizələr üzrə Ombudsmanın aidiyyəti quruma müraciətlərindən sonra çağırışçılara müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət verilmiş, həmçinin bəzi müraciətlər üzrə vətəndaşların barəsində dövlət sərhədindən sərbəst hərəkətə tətbiq edilmiş məhdudiyyət də aradan qaldırılmışdır.

Müxtəlif səbəblərdən vətəndaşlara hərbi biletin, həmçinin digər sənədlərin verilməsində süründürməçiliyə yol verilməsi, bu barədə aidiyyəti qurumlara müraciətlərin cavabsız qalması, SHXÇDX-nin yerli qurumlarında qeyri-etik münasibətə yol verilməsi ilə bağlı müraciətlər üzrə də araşdırmalar aparılmışdır.

Ərizəçi S. (214-24) Ombudsmana müraciət edərək, hərbi biletinin verilməsi ilə bağlı SHXÇDX-nin Xəzər rayon idarəsinə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı aidiyyəti üzrə müraciətdən sonra ərizəçi hərbi biletlə təmin edilmiş, eyni zamanda bu problemlə bağlı nöqsanlara yol vermiş vəzifəli şəxslər Xidmət rəisinin müvafiq əmri ilə intizam məsuliyyətinə cəlb olunmuşlar.

Ərizəçi İ. (8303-24) Ombudsmana müraciət edərək, müddətli həqiqi hərbi xidmətə çağırışçı olan övladının tibbi şəhadətləndirilməsi üçün ona SHXÇDX-nin Mərkəzi Hərbi Həkim Komissiyasına göndəriş verilmədiyini, Xidmətin Sabirabad rayon şöbəsinin rəisi tərəfindən qeyri-etik münasibət göstərildiyini bildirmişdir. Şikayətlə bağlı SHXÇDX-yə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladının tibbi şəhadətləndirilməsi üçün ona müvafiq göndəriş verilmiş, eyni zamanda nəzakətsiz davranışa yol vermiş şöbə rəisi Xidmət rəisi tərəfindən intizam məsuliyyətinə cəlb edilmişdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən müxtəlif səbəblərlə, o cümlədən müəyyən müddət xidmət keçdikdən sonra öz arzusu, xidmət müddətinin bitməsi, ailə vəziyyəti, səhhəti və digər səbəblərlə ehtiyata buraxılmaq istəyən bəzi hərbi qulluqçuların aidiyyəti üzrə nəticəsiz qalmış müraciətləri Ombudsman tərəfindən araşdırılmışdır.

Ərizəçi İ. (5308-24) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində zabit kimi xidmət etdiyini, ailə vəziyyəti ilə bağlı hərbi xidmətdən ehtiyata buraxılması üçün aidiyyəti üzrə müraciətinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı həmin Xidmətə ünvanlanmış müraciətdən sonra ərizəçi "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ehtiyatına buraxılmışdır.

Həqiqi hərbi xidmətdə olduqları zaman istifadə etmədikləri əşya əmlakına və növbəti məzuniyyət günlərinə görə pul kompensasiyasının bəzi ehtiyatda və istefada olan hərbi qulluqçulara verilməsində hələ də problemlər qalmaqdadır.

Ərizəçi M. (3054-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsindən ehtiyata buraxıldığını, hərbi xidmət müddətində istifadə etmədiyi əşya əmlakı əvəzinə pul kompensasiyasının ona verilmədiyini bildirmiş, məsələnin həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanlanmış müraciətdən sonra müvafiq komissiya tərəfindən ərizəçinin adına hesablanmış kompensasiya onun adına açılmış bank hesabına köçürülmüşdür.

Silahlı Qüvvələrdən ehtiyata buraxılma ilə bağlı qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının vaxtında icra edilməməsi də şikayətlərə səbəb olmuşdur.

Ərizəçi U. (12058-24) Ombudsmana müraciət edərək, övladının hərbi xidmətdən ehtiyata buraxılmasına dair Gəncə İnzibati Məhkəməsinin müvafiq qərarının icra edilmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanlanmış müraciətdən sonra məhkəmə qərarının icrası təmin olunaraq ərizəçinin övladı hərbi xidmətdən ehtiyata buraxılmışdır.

Ombudsman və Aparatın əməkdaşları tərəfindən ötən illərdə olduğu kimi, 2024-cü ildə də hərbi qulluqçuların hüquqlarının təmin olunması vəziyyətinin yerində öyrənilməsi və şəxsi heyətlə hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi üzrə fəaliyyət davam etdirilmişdir.

2024-cü il üzrə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq, Ombudsman və Aparatın əməkdaşları 10 hərbi hissə və 1 xüsusi təhsil müəssisəsində, o cümlədən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının 4, Müdafiə Nazirliyinin 3, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 3 hərbi hissəsində, eyni zamanda Daxili Qoşunların Hərbi İnstitutunda olmuş, müvafiq obyektlərə baxış keçirmiş, şəxsi heyətlə görüşmüş, hərbi qulluqçuların suallarını cavablandırmış və onların Ombudsmana ünvanladıqları müraciətlərini qəbul etmişlər.

Qeyd edilməlidir ki, bu kimi tədbirlərin təşkili hərbi qulluqçuların hüquqlarının təmini vəziyyətinin yerində yoxlanılması, müəyyən edilən çatışmazlıqların çevik aradan qaldırılması, habelə hərbi qulluqçuların digər problemləri ilə yaxından tanış olmaqla səlahiyyətlər daxilində onlara köməklik göstərilməsi baxımından da əhəmiyyətlidir.

Məsələn, "N" saylı hərbi hissədə keçirilən tədbir zamanı əsgər çayxanasının antisanitar vəziyyətdə olduğu müəyyən edilmiş və bu hal hərbi hissə komandanlığının diqqətinə çatdırılmışdır. Məsələ araşdırılmış, komandanlıq tərəfindən əsgər çayxanasının fəaliyyəti dayandırılmış, qısa müddət ərzində müasir üslubda təmir edilmiş və yeni avadanlıqlarla təchiz edilərək hərbi qulluqçuların istifadəsinə verilmişdir.

Digər bir tədbir zamanı Vətən müharibəsi iştirakçısı, hərbi qulluqçu S. (3122-24) Ombudsmana müraciət edərək, Vətən müharibəsində şəhid olmuş qardaşının yetkinlik yaşına çatmayan övladının psixoloji yardım almasında köməklik göstərilməsini xahiş etmişdir. Ombudsmanın aidiyyəti üzrə müraciətindən sonra şəhid övladının uzunmüddətli peşəkar psixoloq yardımı ilə təmin edilməsi təşkil olunmuşdur.

Tədbirlər zamanı şəxsi heyətin yaşayış şəraiti, ərzaq və əşya təminatının vəziyyəti, qidanın keyfiyyəti, müalicə işinin təşkili, asudə vaxtın səmərəli keçirilməsi və hərbi qulluqçuların sanitar-gigiyena qaydalarına əlçatanlığının təmin edilməsi üçün yaradılan şərait, şəxsi heyətlə təlim-tərbiyə sahəsində aparılan iş ümumilikdə qənaətbəxş hesab edilmiş, eyni zamanda aşkar edilmiş çatışmazlıqlar və bunları doğuran səbəblərin aradan qaldırılması ilə bağlı hərbi hissə komandanlığına və müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

***Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi.*** Qadınların hüquqlarının müdafiəsi və onların cəmiyyətdə rolunun gücləndirilməsi, gender

bərabərliyinə nail olunması demokratik cəmiyyətlərin əsas məqsədlərindən biridir. Gender bərabərliyinin təmini sahəsində milli insan hüquqları təsisatlarının fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Ombudsman cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsi, bu sahədə mövcud qanunvericiliyin təkmilləşdirilməsi və icrasının təmini, gender bərabərliyinin təbliği və təşviqi istiqamətində həyata keçirdiyi çoxşaxəli fəaliyyətini davam etdirmişdir.

Konstitusiya Qanununa edilmiş son dəyişikliklərə əsasən Ombudsman Aparatında yaradılmış ayrı-seçkiliklə mübarizə üzrə yeni struktur bölmə, habelə Ombudsmanın müstəqil monitorinq mexanizmi də qadınların hüquqlarının müdafiəsində və gender bərabərliyinin təmin olunmasında önəmli rol oynayır.

Əhalinin həssas qruplarından olan qadınların hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər üzrə müvafiq araşdırmalar aparılmış, səlahiyyətli dövlət qurumlarına sorğular göndərilmiş, pozulmuş hüquqların bərpası istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi Ş. (8048/2-24) Ombudsmana müraciət edərək, həyat yoldaşı və onun ailə üzvləri tərəfindən kobud rəftara və fiziki təzyiqlərə məruz qaldığını, hədələndiyini və həyatının təhlükədə olduğunu bildirmiş, hüquqlarının müdafiəsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Beyləqan Rayon İcra Hakimiyyətinə ünvanlanmış müraciətdən sonra icra hakimiyyətinin Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupu tərəfindən araşdırma aparmış və altmış gün müddətinə qısamüddətli mühafizə orderinin verilməsi barədə qərar qəbul edilərək aidiyyəti üzrə Abşeron Rayon İcra və Probasiya Şöbəsinə göndərilmişdir.

İstər müraciətlərin, istərsə də həyata keçirilən araşdırmaların (monitorinqlərin) nəticələrinin təhlilinə əsasən qeyd edilməlidir ki, qadınların zorakılığa, o cümlədən məişət zorakılığına daha çox məruz qaldıqlarını nəzərə alaraq, ölkəmizdə gender əsaslı zorakılığın qarşısının alınması üzrə kompleks tədbirlərin genişləndirilməsi, kibercinayətkarlıqla mübarizənin gücləndirilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi məqsədəmüvafiqdir.

Ombudsmanın Milli Preventiv Mexanizminin fəaliyyəti çərçivəsində qadınlar üçün nəzərdə tutulmuş sığınacaqlarda və ahıl şəxslər üçün sosial xidmət müəssisələrində yaşayan, habelə qanunsuz miqrantların saxlanılması mərkəzlərində, cəzaçəkmə müəssisəsində və istintaq təcridxanasında saxlanılan qadınların hüquqlarının təmini vəziyyəti də nəzarətdə saxlanılmış, mütəmadi olaraq başçəkmələr və monitorinqlər keçirilmişdir.

Xarici ölkədə çətin vəziyyətə düşmüş və yardıma ehtiyacı olan vətəndaşlarımızın repatriasiyası, onların hüquq və azadlıqlarının təmini üzrə həyata keçirilən tədbirlər çərçivəsində Suriya Ərəb Respublikasından ölkəmizə repatriasiyası həyata keçirilmiş qadınların vəziyyəti Ombudsman tərəfindən diqqətdə saxlanılmış, onlara hüquq məsləhətlər verilmiş, müvafiq izahat işi aparılmışdır.

Ombudsman tərəfindən qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin olunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi də diqqətdə saxlanılmışdır. Belə ki, müvafiq sahə üzrə normativ hüquqi aktlara, habelə “Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarına, “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2025-2029-cu illər üzrə Milli Fəaliyyət Planı”nın və “Azərbaycan Respublikasında Gender Bərabərliyi üzrə 2025-2027-ci illər üçün Milli Fəaliyyət Planı”nın layihələrinə dair verilən rəy və təkliflər nəzərə alınmışdır.

Yeri gəlmişkən, "Reproduktiv sağlamlıq haqqında" Qanunun qəbul edilməsi, tibbi infrastrukturun və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması, ailə planlanmasına çıxış imkanlarının artırılması qadınların sosial müdafiəsi ilə bağlı problemlərinin həllində son dərəcə əhəmiyyətlidir.

Qadın sahibkarlığının inkişaf etdirilməsi qadınların ictimai fəallığının yüksəldilməsi, onların məşğulluğunun artırılması, iqtisadi müstəqilliyinin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir. Bu səbəbdən, qadınlara iqtisadi dəstək göstərilməsi və mikrokreditlərin verilməsi, onların sahibkarlıq sahəsində keçirilən təlimlərə cəlb edilməsi üzrə təşəbbüslərin genişləndirilməsi, habelə kvota kimi müvəqqəti xüsusi tədbirlərin tətbiqi məqsədəmüvafiqdir.

Ombudsman Aparatı və regional mərkəzlər tərəfindən daimi olaraq qadınlar və qızlar arasında hüquq mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində hüquqi maarifləndirmə tədbirləri həyata keçirilmiş, habelə "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası, habelə "İnsan Hüquqları Aylığı" və "Uşaq Hüquqları Aylığı" çərçivəsində paytaxtda və regionlarda təlim və seminarlar təşkil olunmuşdur.

Bakı Dövlət Universitetində "Genderə giriş" fənninin tədrisi davam etdirilmiş, təsisat tərəfindən çap vəsaitləri və müvafiq mövzuda məqalələr hazırlanmışdır.

Hər il olduğu kimi, 2024-cü ildə də Ombudsman tərəfindən qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmini sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq davam etdirilmişdir. Ombudsmanın beynəlxalq qurumların, habelə BMT və onun ixtisaslaşmış qurumlarının Azərbaycandakı nümayəndəlikləri ilə keçirilmiş görüşlərində gender bərabərliyinin təbliği və təmini, qadın hüquqlarının müdafiəsi sahəsində fəaliyyət, müsbət təcrübələr və gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılmış, birgə əməkdaşlığa dair sənədlər imzalanmışdır.

Ombudsman, Aparatın və regional mərkəzlərin əməkdaşları il ərzində iştirak etdikləri beynəlxalq və yerli əhəmiyyətli tədbirlərdə qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin olunması istiqamətində əldə edilmiş müsbət təcrübə ilə yanaşı, Azərbaycanda qadınların cəmiyyətdəki rolu, onların ölkənin ictimai-siyasi həyatında iştirakının əhəmiyyəti və bu sahədə milli qanunvericiliyin təkmilləşdirilməsi barədə məlumatları da diqqətə çatdırmışlar.

***Uşaq hüquqlarının müdafiəsi.*** İl ərzində uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyət Ombudsmana ünvanlanmış müraciətlərə baxılması, informasiya sorğularının cavablandırılması, mediada yayılmış məlumatların araşdırılması, monitorinqlərin həyata keçirilməsi, analitik təhlilin aparılması, rəy və təkliflərin hazırlanması, maarifləndirmə işinin təşkili istiqamətləri üzrə davam etdirilmişdir.

Ombudsmana ünvanlanmış müraciətlər sırasında ünsiyyət hüququnun təmin olunması, xüsusilə də ünsiyyət tələbinə dair məhkəmə qərarlarının icrası zamanı uşaqların mənafelərinin üstünlüyü prinsipinin nəzərə alınmaması, habelə uşaqların saxlanılması üçün alimentin ödənilməsində mövcud problemlər, ailədə və təhsil müəssisələrində zorakılıq halları ilə əlaqədar müraciətlər üstünlük təşkil etmişdir.

Uşaqların saxlanılması üçün aliment onların fiziki, emosional və sosial rifahının təmin olunmasında mühüm rol oynamaqla hüquqlarının qorunmasında mühüm təminat vasitəsi kimi çıxış edir. Bu baxımdan, alimentin ödənilməsi sahəsindəki mövcud boşluqlar nəzərə alınaraq, bu sahədə məhkəmə qərarlarının icrası metodlarının təkmilləşdirilməsi, habelə Ombudsmanın əvvəlki illik məruzələrində də irəli sürdüyü təkliflər nəzərə alınmaqla alimentin ödənilməsinə vahid dövlət nəzarət mexanizminin yaradılması zəruridir.

Məişət zorakılığı halları ilə bağlı müraciətlərin təhlili göstərir ki, aidiyyəti qurumlar tərəfindən daha həssas və operativ yanaşmanın nümayiş etdirilməsinə, münaqişəli ailələrlə aparılan profilaktiki işlərin daha da gücləndirilməsinə ehtiyac vardır.

Təhsil müəssisələrində zorakılıq halları ilə bağlı Ombudsmana ünvanlanmış şikayətlər araşdırılmış, bəzi hallarda müraciətlərdə göstərilən faktlar öz təsdiqini tapmışdır.

Ərizəçi K. (5714-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, övladının təhsil aldığı tam orta məktəbdə sinif yoldaşı tərəfindən mütəmadi olaraq fiziki təzyiqə məruz qaldığını, bununla bağlı müraciətləri üzrə məktəb rəhbərliyi tərəfindən zəruri tədbir görülmədiyini bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış müraciətə verilmiş cavabda bildirilmişdir ki, məsələ ilə bağlı valideynlər məktəbə dəvət olunaraq onlarla müvafiq söhbət aparılmış və şagirdlər arasında olan narazılıq aradan qaldırılmışdır.

Ərizəçi V. (14788-24) Ombudsmana müraciət edərək 2-ci sinifdə təhsil alan övladına qarşı məktəbin müəllimi tərəfindən qərəzli münasibət göstərildiyini və təhqiramiz ifadələr işlədildiyini, məsələ ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə əlaqədar Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, həmin müəllim barəsində fəaliyyətində yol verdiyi nöqsanlara görə intizam tənbehi tədbiri tətbiq edilmişdir.

Təhsil müəssisələrində zorakılığa məruz qalmış uşaqlara zəruri dəstəyin göstərilməsi, onların yenidən qurbana çevrilməsinin qarşısının alınması üçün preventiv və dəstəkləyici mexanizmin tətbiqi vacibdir. Zorakılıq qurbanı olmuş uşaq üçün fərdi dəstək planı hazırlanmalı, uşağın psixoloji vəziyyəti və inkişafı qiymətləndirilərək müntəzəm olaraq nəzarətdə saxlanılmalıdır. Ümumilikdə, təhsilverənlərə münasibətdə tədris prosesinin mütəmadi monitorinqinin aparılması, onların şagirdlərlə davranış qaydaları istiqamətində maarifləndirilməsi, məktəblərin valideynlərlə əlaqələrinin gücləndirilməsi zəruridir. Bununla yanaşı, məktəb psixoloqlarının sayının artırılması, onların bilik və bacarıqlarının gücləndirilməsi istiqamətində tədbirlər də həyata keçirilməlidir.

İstər müraciətlərin, istərsə də mediada yayımlanmış məlumatların təhlili onu deməyə əsas verir ki, təhsildən yayınma halları ilə mübarizə sahəsində zəruri addımların atılması, məktəb yaşlı uşaqların təhsilə cəlb olunmasında qurumlararası koordinasiyanın gücləndirilməsi vacibdir.

Təhsil müəssisələrində psixoloji zorakılığın ağır nəticələrə səbəb ola biləcəyini, habelə təhsildən yayınma hallarının erkən evliliyə, məcburi əməyə və digər hüquq pozuntuları ilə nəticələnə biləcəyini nəzərə alaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 181-ci maddəsi ilə fiziki şəxslərə və vəzifəli şəxslərə münasibətdə nəzərdə tutulmuş sanksiyaların sərtləşdirilməsi təklif edilir. Bundan başqa, həmin maddənin dispozisiyasında qeyd olunan əməllərin məzmunu nəzərə alınaraq, 181.0.1, 181.0.2 və 181.0.3-ci yarımbəndlərin ayrıca bir maddədə komplektləşdirilməsi də məqsədəmüvafiqdir.

Erkən evlilik halları ilə bağlı mediada yayımlanmış məlumatlar da nəzarətdə saxlanılmışdır. Qeyd olunmalıdır ki, Ombudsmanın əvvəlki illik məruzələrində erkən evlilik hallarının aradan qaldırılması məqsədilə irəli sürdüyü bir sıra təkliflər, o cümlədən Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10.2-ci maddəsinin (Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər) çıxarılması ilə bağlı təklifi "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Azərbaycan Respublikasının Qanununda nəzərə alınmışdır. Həmin dəyişikliklər erkən evlilik və qohum nikahları ilə bağlı mövcud problemlərin qarşısının alınmasına xidmət edir.

Uşaqların şəxsiyyətinin formalaşdırılmasında, sosial bacarıqlarının inkişafında və təhsil həyatına hazırlığında məktəbəqədər təhsilin əhəmiyyətli rolu vardır. Ombudsmana ünvanlanmış müraciətlərdən məlum olur ki, bir sıra hallarda valideynlər övladlarının yaşadığı ərazi üzrə məktəbəqədər təhsil müəssisəsinə yerləşdirilməsi ilə bağlı problemlərlə üzləşməkdədirlər. Bu kimi hallarla bağlı aidiyyəti qurumlardan verilən cavablarda isə müəssisədə boş yer yaranacağı təqdirdə növbəlilik prinsipi əsasında uşaqların həmin müəssisəyə qəbul ediləcəyi bildirilir. Bu baxımdan, mövcud tələbat nəzərə alınaraq dövlət əsaslı məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi bir daha təklif olunur.

Ombudsmanın ünvanına uşaqların müayinə və müalicəsinin təşkili, qəyyumluq və himayəçilik, sosial təminat, o cümlədən əlilliyin qiymətləndirilməsi, təhsil və digər məsələlərlə bağlı müraciətlər də daxil olmuşdur. Həmin müraciətlər üzrə də müvafiq araşdırmalar aparılmış və problemlərin həlli istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi T. (3392-24) Ombudsmana müraciət edərək, övladının evdə təhsilə cəlb olunması barədə qərarın icrası istiqamətində zəruri tədbir görülmədiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladı evdə təhsilə cəlb olunmuşdur.

Ərizəçi Q. (838-24) Ombudsmana müraciət edərək, övladının təhsil aldığı müəssisədə istilik təminatında yaranmış problemlə əlaqədar sinif otaqlarının soyuq olduğunu, məsələ ilə əlaqədar köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış müraciətdən sonra məsul şəxslər tərəfindən həmin məktəbə baxış keçirilmiş, problemlər tam aradan qaldırılaraq məktəb istiliklə təmin edilmişdir.

Ərizəçi İ. (16979-23) Ombudsmana müraciət edərək, ailə vəziyyətinin ağır olduğunu, sağlamlıq imkanları məhdud övladının hər iki qol nahiyəsində ciddi problemlər olduğu üçün əməliyyat zərurəti yarandığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra ərizəçi övladı ilə birlikdə müvafiq poliklinikaya dəvət olunmuş, ixtisaslı həkimlər tərəfindən müayinə olunaraq, uşağa müalicə məqsədilə Xətai Tibb Mərkəzinə göndəriş verilmişdir.

Qeyd olunmalıdır ki, Konstitusiya Qanununun tələblərindən irəli gələrək, Ombudsmanın sərəncamı əsasında, "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi məqsədilə aidiyyəti sahə üzrə də Monitorinq Qrupu yaradılmışdır.

Uşaq hüquqlarının təmini vəziyyəti ilə bağlı həyata keçirilmiş monitorinqlər nəticəsində media subyektləri və jurnalistlər tərəfindən yetkinlik yaşına çatmayan şəxslərlə bağlı məlumatların yayımlanması zamanı qanunvericiliyin tələblərinə əməl olunmadığı, o cümlədən dərc olunan və ya yayımlanan materiallarda uşaqların fotoşəkil və ya videogörüntüləri də daxil olmaqla fərdi məlumatlarının aşkar surətdə verilməsi halları müəyyən edilmişdir. Belə halların aradan qaldırılması məqsədilə Ombudsman Aparatı tərəfindən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə, Audiovizual Şuraya və Mətbuat Şurasına ünvanlanmış müraciətlər əsasında zəruri tədbirlər həyata keçirilmiş, eyni zamanda xəbər saytlarında yayımlanmış müəyyən məlumatların silinməsi və qanunamüvafiq tədbirlərin görülməsi təmin olunmuşdur.

Bundan başqa, Ombudsman tərəfindən mediada uşaq hüquqlarının pozulması halları ilə bağlı media subyektlərinə və jurnalistlərə ünvanlanmış açıq müraciətdə bu sahədə onların vəzifələri və məsuliyyəti əks etdirilmiş, onlara peşə fəaliyyətlərini həyata keçirdikləri zaman uşaqların mənafelərini üstün tutmaları və uşaqlarla bağlı məlumatların yayılmasında həssas yanaşma nümayiş etdirmələri tövsiyə olunmuşdur.

Ombudsman hesab edir ki, media subyektləri və jurnalistlər tərəfindən uşaqlarla bağlı hər hansı materialın yayımlanmasından öncə bunun səbəb ola biləcəyi nəticəyə mütləq diqqət yetirilməli, uşağın şəxsi və ailə həyatına, şərəf və ləyaqətinə hörmət edilməlidir. Hazırlanan materialın məzmunu uşaqların hüquq və azadlıqlarına zidd olmamalı, onların qanuni mənafelərinə uyğun şəkildə istifadə edilməlidir. Bununla yanaşı, uşaqlar üçün təhlükəsiz olan, onların hərtərəfli inkişafını və sosiallaşmasını təmin edən informasiya məhsullarının dövriyyəsinə də şərait yaradılmalıdır.

Qeyd olunanlarla yanaşı, Milli Preventiv Qrupun, habelə "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsi üzrə Monitorinq Qrupunun üzvləri tərəfindən paytaxtda və regionlarda yerləşən dövlət uşaq müəssisələrinə əvvəlcədən xəbərdarlıq edilmədən ümumilikdə yüzdən artıq başçəkmə həyata keçirilmiş, saxlanma şəraiti araşdırılmış, uşaqlarla və müəssisə əməkdaşları ilə görüşlər keçirilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

"Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 23 iyun tarixli 157 nömrəli Qərarına əsasən, qeyd olunan müəssisələrdə mövcud siniflərin sayından asılı olmayaraq cəmi 1 vahid "psixoloq" ştatı, hər yataq korpusuna 2 vahid "gecə dayəsi" ştatı müəyyən edilir. 150 nəfərlikdən artıq yataqxanası olan həmin müəssisələrdə tərbiyə olunan hər 150 uşağa 2 vahid "gecə dayəsi" vəzifəsi müəyyən edilir.

Tərəfimizdən aparılan monitorinqlər zamanı qeyd olunan müəssisələrdə çətin həyat şəraitində olan ailələrin uşaqlarının yerləşdirildiyi, onların psixoloji yardıma və nəzarətə daha çox ehtiyaclarının olduğu, habelə bu müəssisələrdəki uşaq sayı nəzərə alınmaqla "psixoloq" və "gecə dayəsi" ştatlarının sayının kifayət etmədiyi müşahidə olunmuşdur. Bu səbəbdən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 23 iyun tarixli 157 nömrəli Qərarında "gecə dayəsi" və "psixoloq" ştatlarının sayının artırılması ilə bağlı müvafiq dəyişikliklərin edilməsi təklif olunur.

Müvafiq uşaq müəssisələrində uşaqlara göstərilən xidmətlərin keyfiyyətinin artırılmasının təmini məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 yanvar tarixli, 6 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əqli və fiziki inkişafında pozuntular olan uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəblərinin rəhbər işçiləri, inzibati təsərrüfat, tədris-yardımçı və xidmət işçiləri heyətinin nümunəvi ştatları"nda "tibb bacısı", "gecə dayəsi" və "psixoloq" ştatlarının sayının artırılması da məqsədəmüvafiqdir.

Erkən uşaqlıq dövründə uşaqların inkişafının təmin olunması məqsədilə "Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli Qərarı ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən dövlət uşaq bağçalarının nümunəvi ştatları"na (1 №-li əlavə) və "Körpələr evi-uşaq bağçalarının nümunəvi ştatları"na (2 №-li əlavə) "uşaq psixoloqu" ştatının əlavə edilməsi təklif olunur.

Qeyd olunanlarla yanaşı, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisələrində uşaqlara qulluq göstərən işçilərin sayının artırılması da məqsədəmüvafiqdir.

Yetkinlik yaşına çatmamış zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən, habelə şahid qismində cəlb edilmiş şəxsə ixtisaslaşdırılmış psixoloji yardımın göstərilməsi ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi zəruridir. Belə ki, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 96-cı maddəsində verilmiş "müəllim" anlayışının prosesə töhfə verə biləcək psixoloq və digər ixtisas sahiblərinin iştirakını məhdudlaşdırması səbəbindən bu Məcəlləyə müvafiq dəyişikliyin edilməsi məqsədəmüvafiqdir. Bununla yanaşı, həmin Məcəllənin 228.2-ci maddəsinə yetkinlik yaşına çatmamış şahidin dindirilməsi zamanı psixoloqun iştirakının təmin olmasına dair

müddəanın daxil edilməsi, habelə 16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan yetkinlik yaşına çatmamış şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılması zamanı psixoloqun iştirakının məcburiliyinin müəyyən edilməsi ilə bağlı həmin Məcəllənin 432.5-ci maddəsinə dəyişikliyin edilməsi təklif olunur.

Eyni zamanda, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 197.1-ci maddəsində nəzərdə tutulmuş yetkinlik yaşına çatmamış şahidin dindirilməsi zaman psixoloqun iştirakının təmin olunması ilə bağlı həmin maddəyə dəyişikliklərin edilməsi də təklif olunur.

Müəssisələrdə zorakılıq hallarının qarşısının alınması məqsədilə konfidensiallıq təmin olunmaqla uşaqların müraciəti üçün imkanların yaradılması və tabe olduqları qurum tərəfindən nəzarət olunan mərkəzləşdirilmiş müşahidə kameralarının quraşdırılmasına ehtiyac vardır.

Araşdırmalar göstərir ki, çətin tərbiyə olunan uşaqlarla işin aparılmasının təkmilləşdirilməsi məqsədilə, onların digər uşaqlara olan mənfi təsirini nəzərə alaraq, həmin uşaqlar üçün açıq tipli müvafiq müəssisənin yaradılması məqsədəmüvafiqdir.

Akkreditasiyadan keçməyən məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyətinə nəzarət mexanizminin formalaşdırılması ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi də zəruridir.

Uşaq müəssisələrində çalışan mütəxəssislərin, o cümlədən psixoloqların, sosial işçilərin və loqopedlərin uşaq hüquqları, uşaqlarla rəftar qaydaları sahəsində bilik və bacarıqlarının artırılması, onların təlimlərə cəlb edilməsi vacib şərtlərdəndir.

Qeyd olunduğu kimi, Ombudsmanın uşaq hüquqlarının müdafiəsi sahəsində əsas fəaliyyət istiqamətlərindən birini də onun qanunvericiliyin təkmilləşdirilməsi prosesində aktiv iştirakı təşkil edir. “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının yeni qanun layihəsinə və digər əlaqəli normativ hüquqi akt layihələrinə, habelə “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2026-2030-cu illər üçün Fəaliyyət Planı”nın layihəsinə Ombudsman tərəfindən rəy və təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Həmin təkliflərdə müxtəlif kateqoriyadan olan uşaqların hüquqlarının müdafiəsinə yönəlmiş bir sıra məsələlər əks olunmuşdur.

Ötən dövrdə Ombudsman Aparatı tərəfindən “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə əməkdaşlıqda 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Quba, Qusar, Xaçmaz və Siyəzən rayonlarında yaşayan Vətən müharibəsi şəhidlərinin övladlarının asudə vaxtlarının səmərəli təşkili məqsədilə əyləncəli tədbir təşkil edilmişdir. Tədbirdə ailələrlə aparılan söhbət zamanı uşaqların hüquqlarının təmini vəziyyəti öyrənilmişdir.

Ombudsman Aparatının, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar qaçqın ailələrdən olan uşaqların cəmiyyətə inteqrasiyasına və maarifləndirilməsinə töhfə vermək məqsədilə Qobustan Milli Tarix-Bədii Qoruğunda bayram tədbiri keçirilmişdir.

Ombudsman Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun iştirakçıları ilə görüşərək, onların fikirlərini dinləmiş, suallarını cavablandırmış və tövsiyələrini vermişdir.

Ombudsman “Birgə və Sağlam” İctimai Birliyinin nümayəndələrinin iştirakı ilə autizmli şəxslərlə görüşlər keçirmiş, birgə əməkdaşlıq və bu qəbildən olan uşaqlarla bağlı mövcud problemlərin aradan qaldırılması istiqamətində müzakirələr aparılmış, təkliflər səsləndirilmişdir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin yetkinlik yaşına çatmayanlar üçün Tərbiyə Müəssisəsində cəza çəkən uşaqların hüquqlarının müdafiəsi də diqqətdə saxlanılmış, Ombudsman tərəfindən həmin uşaqlarla görüşlər keçirilərək fərdi söhbətlər aparılmışdır.

Xarici ölkədə çətin vəziyyətə düşmüş və yardıma ehtiyacı olan vətəndaşlarımızın hüquqlarının müdafiəsi məqsədilə səlahiyyətli dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində Suriya Ərəb Respublikasından repatriasiya olunmuş uşaqlarla Ombudsman Aparatının əməkdaşları tərəfindən görüşlər keçirilmiş, onların hüquqlarının təmini vəziyyəti yerində araşdırılmışdır.

"Ombudsman Aparatının 2024-cü il üzrə hüquqi maarifləndirmə sahəsində Tədbirlər Planı"nın icrası məqsədilə uşaq hüquqlarının müdafiəsi sahəsində təsisat tərəfindən uşaqlar və onlarla təmasda olan şəxslər üçün paytaxtda və regionlarda silsilə maarifləndirmə tədbirləri təşkil edilmiş, həmin tədbirlər 5000-dən artıq şəxsi əhatə etmişdir.

"Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı", "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı", "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın müvafiq bəndlərində nəzərdə tutulmuş tədbirlər planından irəli gələrək Ombudsman Aparatı tərəfindən "Uşaqların cinsi mənsubiyyətə görə ayrı-seçkilikdən müdafiəsi: tibbi-sosial və hüquqi aspektlər", "Uşaqların insan alveri və uşaq əməyinin istismarı ilə bağlı təhlükələrdən müdafiəsi", "Sağlam həyat tərzi: uşaqlar və gənclər arasında narkomaniyaya və digər zərərli vərdişlərə qarşı mübarizənin gücləndirilməsi", "Erkən evliliyin və qohumlar arasında nikahın fəsadları", "Təhsil işçilərinin uşaq hüquqlarının müdafiəsində rolu", "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyəti", "Ətraf mühit və uşaq hüquqları" və digər mövzularda müxtəlif hədəf qrupları üzrə silsilə tədbirlər həyata keçirilmişdir.

BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının qəbul olunmasının 35-ci ildönümü ərəfəsində Ombudsman tərəfindən elan edilmiş "Uşaq Hüquqları Aylığı" çərçivəsində dövlət və yerli özünüidarə orqanları, vətəndaş cəmiyyəti institutları və digər aidiyyəti qurumlara müraciətlər ünvanlanmış, uşaq hüquqlarının daha etibarlı müdafiəsinə yönəlmiş tədbirlər həyata keçirilmişdir.

Ötən il Ombudsman Aparatı tərəfindən ilk dəfə olaraq işğaldan azad olunmuş ərazilərdə - Şuşa, Füzuli, Cəbrayıl, Zəngilanda yerləşən təhsil müəssisələrində, eyni zamanda, Bakı, Gəncə, Tovuz, Daşkəsən, Gədəbəy, Goranboy, Şəmkir, Ağdaş, Göyçay, Şəki, Balakən, Qəbələ, Mingəçevir, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran, Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Biləsuvar, Salyan, Neftçala şəhər və rayonlarında uşaq hüquqlarının müdafiəsinə həsr olunmuş müxtəlif maarifləndirmə tədbirləri və monitorinqlər keçirilmişdir.

"Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı, Ombudsman Aparatı, Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası və "ADA" Universitetinin tərəfdaşlığı, "Nar"ın dəstəyi ilə həyata keçirilmiş "Rəqəmsal cəmiyyətdə uşaqların zərərli və təhlükəli informasiyadan qorunması" layihəsi çərçivəsində Ombudsmanın məktəblilərlə onlayn görüşü keçirilmiş və müzakirələr aparılmışdır. Bununla yanaşı, layihə çərçivəsində təsisatın əməkdaşları tərəfindən Bakı, Gəncə, Lənkəran, Qəbələ şəhər və rayonlarında uşaqlar və valideynlər üçün təlimlər keçirilmişdir.

Ombudsman uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığını davam etdirmişdir. Belə ki, BMT-nin Uşaq Fondunun Azərbaycandakı Nümayəndəliyi ilə birgə əməkdaşlıqda "BMT-nin Uşaq Hüquqları Konvensiyası" adlı maarifləndirici vəsait hazırlanmışdır. Vəsaitdə "Uşaq hüquqları haqqında" Konvensiyada təsbit olunmuş maddələr uşaqlar üçün anlaşılan dildə təqdim edilmişdir.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına doğumun universal qeydiyyatı və rəqəmsal texnologiyalar, həmçinin sülh və tolerantlıq naminə hər bir uşaq üçün keyfiyyətli

təhsilin təmin edilməsi (İnsan Hüquqları Şurasının müvafiq qətnamələri ilə əlaqədar) üzrə hesabatın hazırlanması məqsədilə zəruri məlumatlar təqdim edilmişdir.

Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC-un) 28-ci illik konfransında iştirak etmək məqsədilə Finlandiyanın paytaxtı Helsinki şəhərinə səfəri çərçivəsində Ombudsman həmin şəhərdə yerləşən "Kaisaniemi" ibtidai məktəbində olmuş, müəssisədə tətbiq edilən təhsil sistemi və şəraitlə, uşaqların hüquqlarının təmini imkanları ilə maraqlanmışdır.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyinin dəstəyi ilə 10 Dekabr – Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə uşaqların yaradıcılıq potensialının inkişaf etdirilməsi və maarifləndirilməsi məqsədilə müxtəlif kateqoriyadan olan uşaqların iştirakı təmin edilməklə uşaq rəsm müsabiqəsi keçirilmişdir. Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi çərçivəsində keçirilmiş müsabiqə "İqlim dəyişikliyi və insan hüquqları" mövzusuna həsr olunmuşdur.

***Ahılların hüquqlarının müdafiəsi.*** Əhalinin həssas qruplarından olan ahılların hüquqlarının müdafiəsi ilə bağlı məsələlər Ombudsmanın diqqətində olmuşdur. Bu şəxslərin sosial müdafiəsi sahəsində mövcud vəziyyətin və normativ hüquqi bazanın təhlili, qanunvericiliyin beynəlxalq təcrübəyə müvafiq olaraq təkmilləşdirilməsi, eyni zamanda ahıllara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, sosial və reabilitasiya xidmətlərinin spektrinin genişləndirilməsi, ahılların asudə vaxtının səmərəli təşkili istiqamətində Ombudsman tərəfindən zəruri işlər görülmüş, hüquqi maarifləndirmə tədbirləri keçirilmiş, müraciətlər araşdırılmış, pozulmuş hüquqlarının bərpası ilə bağlı qanunamüvafiq tədbirlər həyata keçirilmişdir.

Ahıl şəxslərin hüquqlarının müdafiəsi ilə əlaqədar Ombudsmana ünvanlanan müraciətlərin bir qismi pensiyaların təyin edilməsində və ya yenidən hesablanmasında, habelə ödənilməsində yaranmış problemlərlə bağlı olmuşdur.

Ərizəçi M. (4358-24) Ombudsmana müraciət edərək, əmək pensiyasının yenidən hesablanması ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanlanmış müraciətdən sonra ərizəçinin əmək pensiyasının məbləği yenidən hesablanmışdır.

Ərizəçi H. (8555-24) Ombudsmana müraciət edərək, əmək pensiyasının topladığı pensiya sığorta kapitalına görə yenidən hesablanması ilə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciətinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə əlaqədar həmin Nazirliyə ünvanlanmış müraciətdən sonra ərizəçinin əmək pensiyası üzrə keçmiş müddət üçün hesablanmış fərq məbləği hissə-hissə onun pensiyasının üzərinə əlavə edilməklə müvafiq kart hesabına köçürülməsi təmin edilmişdir.

Bir sıra müraciətlər sanatoriya-kurort yollayışları ilə təmin olunma, sosial xidmət müəssisəsinə yerləşdirilmə, maddi köməklik, habelə ərzaq yardımının göstərilməsi və bu kimi digər məsələlərlə bağlı olmuş, görülmüş tədbirlər nəticəsində öz həllini tapmışdır.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri və aparatın müvafiq əməkdaşları tərəfindən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Sabunçu rayonunun Bilgəh qəsəbəsində yerləşən Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinə öncədən xəbərdarlıq edilmədən keçirilmiş monitorinq zamanı əvvəlki monitorinqlər və başçəkmələrdə aşkar olunmuş nöqsanların bir çoxunun həll edildiyi müşahidə edilsə də, bəzi problemlərin, xüsusən də ahıllara xidmət göstərən personalın çatışmaması, ştat cədvəli üzrə vakant yerlərin mövcud olması kimi halların hələ də qaldığı məlum olmuşdur.

Bu problem müəssisə rəhbərliyinin diqqətinə çatdırılmış, nəticədə bir neçə vakant yerə işçi cəlb olunmuş, ahıllara həm gündüz, həm də gecə saatlarında qulluqla bağlı məsələ öz həllini tapmışdır. Bununla belə, müəssisənin ştat cədvəlinə uyğun olaraq, sosial xidmətin təşkili şöbəsində bəzi vəzifələrin, o cümlədən bir psixoloq və iki həkim-terapevt vəzifələrinin vakant olaraq qaldığı müəyyən edilmişdir ki, bu da öz növbəsində ahılların sosial-psixoloji reabilitasiyasına və tibbi xidmətlərin lazımi qaydada həyata keçirilməsinə neqativ təsir göstərir.

Qeyd olunan müəssisədə yaşayan bir neçə sakinin şəxsiyyətini təsdiq edən sənədinin müxtəlif səbəblərdən olmaması onların bir sıra hüquqlarının həyata keçirilməsinə, o cümlədən əlilliyinin qiymətləndirilməsinə imkan verməmişdir.

Müəssisədə yataq xəstələri olan otaqlarda siqnal düymələrinin olmadığı, otaqların bəzilərinin texniki normalara uyğun gəlmədiyi, rütubətli, habelə döşəklərin bir neçəsinin nimdaş olduğu, avadanlığın və istilik sisteminin yenilənməsinə ehtiyacın yarandığı müəyyən edilmişdir. Müəssisənin ikinci korpusunun yaşayış üçün tam yararsız olmasına baxmayaraq, orada kifayət sayda ahıl şəxsin yerləşdirildiyini nəzərə alaraq, həmin korpusda əsaslı təmir-bərpa işlərinin aparılması zəruridir.

Sakinlərlə təkbətək görüşlər zamanı müəssisənin əsasnaməsinə zidd olaraq, ərazidə müvəqqəti yerləşdirilmiş ailələrin üzvləri tərəfindən ictimai asayişin pozulması barəsində şikayətlər qeydə alınmışdır.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə başçəkmə zamanı ümumilikdə qeydə alınan 119 sakindən 6-sının ahıl şəxs olduğu, həmin şəxslərdən iki nəfərinin əlilliyinin qiymətləndirilmədiyi, həmçinin onlardan bir sakinin şəxsiyyətini təsdiq edən heç bir sənədin olmaması və bunun da əlilliyin qiymətləndirilməsinə imkan vermədiyi müəyyən edilmişdir.

Başçəkmələr zamanı aşkar edilmiş bir sıra çatışmazlıqlar, o cümlədən müəssisələrin profilinə uyğun olaraq sakinlərə keyfiyyətli sosial və tibbi xidmətlərin göstərilməsi üçün zəruri olan bir neçə vəzifənin vakant olması nəzərə alınaraq, çatışmazlıqların həlli ilə bağlı müvafiq nazirlik qarşında məsələ qaldırılmışdır.

Ölkəmizin regionlarında ahıllar üçün nəzərdə tutulmuş sosial xidmət və reabilitasiya mərkəzləri şəbəkəsinin daha da genişləndirilməsi, habelə qeyd olunan müəssisələrin fəaliyyətinə nəzarətin daha da gücləndirilməsi məqsədəmüvafiqdir.

Ombudsman "Dəyişdirilmiş Avropa Sosial Xartiyası"nın bir sıra maddələrinin, o cümlədən ahıl insanların mümkün qədər uzun müddət cəmiyyətin tam dəyərli üzvü olmalarına daha çox imkan yaradılması məqsədilə "ahıl yaşlı şəxslərin sosial müdafiə hüququ" ilə bağlı 23-cü maddəsinin ratifikasiya edilməsini təklif edir.

Ombudsman ahılların hüquqlarının müdafiəsi və təşviqi, onların cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısının alınması sahəsində beynəlxalq təcrübənin ölkəmizdə tətbiqinə, eləcə də bu sahədə ixtisaslaşmış aidiyyəti beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verir.

Ombudsman tərəfindən elan edilmiş "İnsan Hüquqları Aylığı" çərçivəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində maarifləndirmə tədbiri təşkil olunmuş, ahıl şəxslərin hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyəti, ahılların bərabərlik hüquqlarının müdafiəsi və ahıllara göstərilən dövlət qayğısı ilə bağlı iştirakçılara məlumat verilmiş, müsbət təcrübələrlə bağlı fikir mübadiləsi aparılmışdır.

Ölkəmizin ev sahibliyi etdiyi COP29 çərçivəsində Ombudsman Aparatı tərəfindən "İnsan hüquqlarına əsaslanan iqlim ədaləti: Milli insan hüquqları institutlarının rolu" mövzusunda təşkil edilmiş interaktiv tədbirdə iqlim dəyişikliyinin ən çox təsir göstərdiyi həssas qruplardan biri kimi ahılların hüquqlarının müdafiəsi sahəsində beynəlxalq ekspertlərin məruzələri dinlənilmiş, təcrübə mübadiləsi aparılmışdır.

Ombudsman və Aparatın əməkdaşları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində Ahıl şəxslər üçün sosial xidmət müəssisəsini ziyarət etmiş, ahıl şəxslər üçün yaradılmış şəraitlə tanış olmuş, onlarla geniş formatda görüş keçirilmiş, ayrı-ayrılıqda problemləri dinlənilmişdir. Görkəmli incəsənət xadimlərinin də iştirak etdikləri tədbirin sonunda müəssisə sakinlərinə bayram sovqatı təqdim edilmişdir.

***Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi.*** Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, onların cəmiyyətin tamhüquqlu üzvləri kimi inteqrasiyasının təmin edilməsi və qarşılaşdıqları maneələrin aradan qaldırılması insan hüquqlarına hörmətin və sosial ədalət prinsiplərinə bağlılığın vacib göstəricilərindən biridir.

Milli insan hüquqları təsisatı olaraq Ombudsman əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sahəsində fəaliyyətini müraciətlərin araşdırılması və pozulmuş hüquqların bərpası, bu şəxslərin saxlanıldığı müəssisələrə başçəkmələrin həyata keçirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi və maarifləndirmə işinin təşkili üzrə davam etdirmişdir.

Konstitusiya Qanununa edilən dəyişikliklərə əsasən Ombudsman tərəfindən “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyanın həyata keçirilməsi, habelə bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması üzrə monitorinq qruplarının yaradılması əlilliyi olan şəxslərin hüquqlarının daha səmərəli müdafiəsi, habelə bu sahədə monitorinq və təşviqat fəaliyyətinin daha effektiv təşkili üçün mühüm vasitə olmuşdur.

Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər üzrə araşdırmalar aparılmış, pozulmuş hüquqların bərpası istiqamətində müvafiq tədbirlər görülmüş, zəruri hallarda həmin şəxslərə hüquqi məsləhətlər verilmişdir.

Ərizəçi R. (11757-24) Ombudsmana müraciət edərək, övladının anadangəlmə hidrosefaliya və digər yanaşı xəstəliklərdən əziyyət çəkdiyini, maddi imkanının zəif olması səbəbindən müalicəsini davam etdirə bilmədiyini nəzərə alaraq, uşağının dövlət hesabına müalicə olunmasında və zəruri olan dərman preparatları ilə təmin edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Məsələ ilə bağlı TƏBİB-ə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladı tibb müəssisəsində “Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı”nda nəzərdə tutulmuş dərman preparatları ilə təmin olunmuşdur.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdəki əlilliyi olan şəxslərin, o cümlədən psixososial dəstək xidmətlərinə ehtiyacı olanların hüquqlarının təmini vəziyyəti, müyəssərlik məsələləri də daim diqqətdə saxlanılır. Ombudsmanın Milli Preventiv Mexanizminin fəaliyyəti çərçivəsində başçəkmələr planı hazırlanarkən həssas əhali qruplarından olan əlilliyi olan şəxslərin saxlanıldığı müəssisələrə xüsusi önəm verilir.

Belə müəssisələrə mütəmadi olaraq həyata keçirilən planlı və plandankənar başçəkmələr zamanı əlilliyi olan şəxslərlə rəftar, onların saxlanma şəraiti, qidalanma, tibbi yardımın təşkili məsələləri araşdırılmış, həmin şəxslərin müraciət etmək, hüquqi yardım almaq və digər hüquqlarının təmini vəziyyəti öyrənilmişdir.

Cəzaçəkmə müəssisələrində və ümumiyyətlə azadlıqdan məhrumetmə yerlərində infrastrukturun əlilliyi olan şəxslərin xüsusiyyətlərinə uyğunlaşdırılması aktual məsələlərdəndir. Köhnə tikililərdə fəaliyyət göstərən belə müəssisələrdə tam müyəssərliyin təmin olunması çətin olsa da, bu istiqamətdə mümkün tədbirlərin görülməsi, habelə tikilməkdə olan müəssisələrdə zəruri infrastrukturun təşkili və müyəssərliyin nəzərə alınması zəruridir.

Başçəkmələrin nəticələri onu deməyə əsas verir ki, psixiatriya müəssisələrinin binalarının yenidən qurulmasına və ya əsaslı təmirinə, bu müəssisələrdə müalicə alan şəxslərin qida və tibbi təminatının daha da yaxşılaşdırılmasına, habelə həkim və işçi heyətin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi ehtiyac vardır.

Tibb, təhsil, sosial xidmət və digər müəssisələrdə, həmçinin nəqliyyat sistemində və yollarda əlilliyi olan şəxslərin həyat fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasında hələ

də ciddi çatışmazlıqlar mövcuddur. Bütün sosial infrastruktur obyektlərində əlilliyi olan şəxslər üçün əlçatanlığın təmin olunması və bütün xidmətlərə bərabər çıxış imkanının yaradılması həlli vacib məsələlərdəndir.

Əlilliyi müəyyən edilmiş şəxslərin sosial kirayə müqaviləsi əsasında mənzillə təmin olunmaları ilə bağlı qanunvericilikdə mövcud boşluqların aradan qaldırılması, habelə tikinti layihələrində müyəssərliyin təmin edilməsi məqsədilə beynəlxalq standartlara uyğun norma və memarlıq-planlaşdırma elementlərini, şərtlərini əks etdirən, bununla da bina və qurğularda əlilliyi olan şəxslər üçün zəruri həyat və fəaliyyət şəraitinin yaradılmasını təmin edəcək qaydaların hazırlanması və ya qüvvədə olan qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi, habelə mövcud normaların icrasına nəzarətin gücləndirilməsi zəruridir.

Fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, əlilliyi olan şəxslərin öz həmyaşıdları ilə bərabər qaydada təhsil almaq hüququnu nəzərdə tutan “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnklüziv təhsilin təşkili Qaydası”nın praktikada tətbiqində mövcud boşluqların aradan qaldırılması və bu sahədə nəzarət tədbirlərinin gücləndirilməsi məqsədəmüvafiqdir.

Qanunvericilikdən “kar”, “kor”, “qüsurlu” kimi ifadələrin çıxarılmasına baxmayaraq, başçəkmələr zamanı bəzi müəssisələrin pedaqoji və işçi heyət tərəfindən əlilliyi olan şəxslərə münasibətdə hələ də bu tipli ifadələrin istifadə olunduğuna rast gəlmək mümkündür. Bu baxımdan həmin müəssisələrdə işləyən işçilərin məlumatlandırılması, bilik və bacarıqlarının artırılması istiqamətində işlərin aparılmasına, maarifləndirmə tədbirlərinin gücləndirilməsinə ehtiyac vardır.

18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərlə bağlı müraciətlər üzrə araşdırmalara əsasən ölkənin hər bir ərazisində dövlət büdcəsindən maliyyələşən reabilitasiya və günərzi qayğı xidmətləri şəbəkəsinin genişləndirilməsi, inklüziv yaxud xüsusi təhsil imkanlarının artırılmasına ehtiyac vardır. Bununla bağlı sosial iş institutunun mütərəqqi beynəlxalq təcrübə əsasında formalaşdırılması sahəsində mövcud mexanizmlərin təkmilləşdirilməsi də zəruridir.

Əlilliyi olan şəxslərin sosial müdafiəsinin və tibbi-sosial reabilitasiyası sahəsində xidmətlərin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, onların hüquqlarının müdafiəsi sahəsində səmərəliliyin təmin edilməsi, habelə bu istiqamətdə aidiyyəti dövlət qurumlarının fəaliyyətinin effektiv əlaqələndirilməsi məqsədilə sahəvi dövlət proqramının qəbul edilməsi məqsədəmüvafiq hesab edilir.

Bundan başqa, autizm spektr pozuntusu olan şəxslərə dövlət qayğısı haqqında xüsusi normativ hüquqi aktın və məqsədli dövlət proqramının qəbul edilməsi, onlar üçün müvafiq təhsil müəssisələrinin və reabilitasiya mərkəzlərinin genişləndirilməsi, kadr hazırlığının gücləndirilməsi və maarifləndirmə tədbirlərinin keçirilməsi məqsədəmüvafiqdir.

Əlilliyi olan şəxslərin gündəlik həyatda sərbəst hərəkətinin təmin edilməsi, bu məqsədlə dövlət qurumlarına, idarə, müəssisə və təşkilatlarına məxsus olan binalarda, habelə ictimai binalarda və sosial infrastruktur obyektlərində müyəssərliyin təmin olunması, o cümlədən beynəlxalq standartlara cavab verən yeni pandusların quraşdırılması və mövcud pandusların standartlara uyğunlaşdırılması zəruridir.

Qeyd edilənlərlə yanaşı, ictimai nəqliyyat infrastrukturunun əlilliyi olan şəxslər üçün əlçatanlığının təmin edilməsinə diqqətin artırılmasına, yerüstü və yeraltı keçidlərin, habelə metro stansiyalarının onların sərbəst hərəkəti üçün uyğunlaşdırılmasına və ya yenidən qurulmasına, yol ayrıclarında quraşdırılmış işıqforların səsli-vibrasiyalı siqnallara malik (toxunma və səs siqnallarının təkrarlanması ilə) xüsusi işıqforlarla əvəz edilməsinə də böyük ehtiyac vardır.

Ombudsmanın rəsmi internet səhifəsində məlumatlara əlçatanlığın təmin edilməsi məqsədilə "Müyəssərlik menyusu" əlavə edilmiş, görmə məhdudiyyəti olan şəxslər üçün məlumatların əldə edilməsinin asanlaşdırılması təmin olunmuşdur.

BMT-nin Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəsinin 30-cu sessiyasında "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının ölkədə icrası ilə bağlı Ombudsmanın paralel hesabatı aidiyyəti üzrə təqdim edilmişdir.

Ombudsman tərəfindən 2024-cü il üzrə təsdiq olunmuş insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqində səmərəliliyin artırılması ilə bağlı maarifləndirməyə dair tədbirlər planı çərçivəsində "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyanın həyata keçirilməsinin təşviqi və müstəqil monitorinqi: Ombudsmana verilmiş yeni səlahiyyətlər" mövzusunda aidiyyəti dövlət qurumları üçün maarifləndirici təlim təşkil olunmuşdur.

Bakı və regionlarda dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının və media nümayəndələrinin iştirakı ilə əlilliyi olan şəxslərin hüquqlarını təbliğ edən müxtəlif maarifləndirmə tədbirləri keçirilmişdir.

Ombudsman 3 Dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Günü ilə əlaqədar "Respublika" qəzetinə müsahibə vermiş, autizm spektr pozuntusu olan və daun sindromlu şəxslərin işlədiyi "Kashalata" adlı inklüziv kafeni ziyarət etmiş, Bakı Kitab Mərkəzində inklüziv formatda təşkil olunmuş "Oxu saatı"nda jest dilinə canlı tərcümə təmin edilməklə uşaqların seçdiyi kitablardan qısa hekayələr oxuyaraq interaktiv və maraqlı müzakirələr aparmışdır.

Ombudsman təsisatı Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsinin Əlilliyi olan şəxslərin hüquqları üzrə İşçi Qrupunun üzvü qismində davamlı olaraq digər ölkələrin üzv qurumları ilə birgə görüşlərdə iştirak etmiş, Ombudsmanın həyata keçirdiyi fəaliyyət rüblük bülletenlərdə əks etdirilmiş və həmin şəbəkənin rəsmi internet səhifəsində yayımlanmışdır.

***Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi.*** Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi cəmiyyətdə ədalətin bərqərar olunmasına, sosial inteqrasiyanın gücləndirilməsinə və hüququn aliliyinin təmin olunmasına xidmət edir.

Müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının, cəzaçəkmə müəssisələrinin müasir standartlara uyğunlaşdırılması həmin müəssisələrdə saxlanılan və ya cəza çəkən şəxslərin onların ləyaqətinə hörmət edilən şəraitdə saxlanması, hüquqlarının pozulması hallarının qarşısının alınması, sağlamlıq və təhlükəsizliyinin təmin olunması, habelə reabilitasiya və sosial adaptasiyasına dəstək verilməsi baxımından əhəmiyyətlidir.

Ombudsmanın müasir standartlara cavab verən yeni penitensiar müəssisələrin inşası ilə bağlı əvvəlki illərdə irəli sürdüyü təkliflər də nəzərə alınaraq, məhkumlar, habelə təqsirləndirilən şəxslər üçün Lənkəranda yeni penitensiar kompleks istifadəyə verilmişdir. Bununla yanaşı, həyata keçirilmiş başçəkmələr zamanı bir sıra penitensiar müəssisələrdə təmir-bərpa işlərinin aparıldığı da müşahidə olunmuşdur.

Həbs yerlərində saxlanılan şəxslər, məhkumlar, onların ailə üzvləri və müdafiəçiləri tərəfindən Ombudsmana ünvanlanmış müraciətlərdə öz əksini tapmış görüş, telefonla danışmaq, sovqat və ya banderol almaq hüquqlarının təmini, habelə tibbi təminat və digər məsələlər araşdırılmış, həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi N. (101/6-24) Ombudsmana müraciət edərək, Şirvan Şəhər Polis Şöbəsində müvəqqəti saxlanılan həyat yoldaşının ailə üzvləri ilə telefon danışığı və görüş hüquqlarının məhdudlaşdırıldığını bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Ombudsmanın müdaxiləsindən sonra ərizəçinin həyat yoldaşının ailə üzvləri ilə telefon danışığı və görüş hüquqları bərpa edilmişdir.

Ərizəçi H. (7389-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 17 saylı Cəzaçəkmə müəssisəsində cəza çəkən məhkum qardaşı barədə məlumat ala bilmədiyini bildirmiş, onunla əlaqə yaradılmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı görülmüş tədbirlər nəticəsində məhkumun ailə üzvləri ilə telefon danışığı və görüşü təmin edilmişdir.

Ərizəçi İ. (9980-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 3 saylı İstintaq təcridxanasında saxlanılan qardaşına gətirdiyi sovqatın qəbul edilmədiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı həmin Xidmətə ünvanlanmış müraciətdən sonra sovqat məhkuma təqdim olunmuşdur.

Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıq durumu, tibbi müayinə, ambulator və stasionar müalicəsi ilə bağlı müraciətlərinin təmin olunması istiqamətində də qanunamüvafiq tədbirlər görülmüşdür.

Ərizəçi Ş. (3800-24) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasında saxlanılan övladının səhhətində problemlərin yarandığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladı saxlanıldığı müəssisənin tibb-sanitar hissəsinin həkimləri tərəfindən müvafiq müayinələrə cəlb edilmiş, şikayətlərinə uyğun olaraq ona ambulator müalicə təyin edilmişdir.

Ərizəçi A. (8854-24) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 8 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən övladının səhhətində problemlərin yarandığını bildirmiş, onun müayinə və müalicəsinin təşkilində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə ünvanlanmış müraciətdən sonra ərizəçinin övladı Xidmətin Müalicə Müəssisəsinə köçürülmüş, stasionar müalicəyə cəlb edilmiş və görülmüş tədbirlər nəticəsində səhhətində müsbət dinamika izlənilmişdir.

Penitensiar müəssisələrdə cəza çəkən məhkumların əlilliyinin müəyyən edilməməsi, o cümlədən bununla bağlı tibb müəssisəsi tərəfindən müvafiq göndərişin rəsmiləşdirilməməsi ilə əlaqədar Ombudsmanın ünvanına daxil olmuş şikayətlər də operativ araşdırılmış, aidiyyəti dövlət orqanlarına müraciətlərdən sonra problemlər öz həllini tapmışdır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 2 saylı Cəzaçəkmə müəssisəsində cəza çəkən məhkum F. (6628-24) Ombudsmana müraciət edərək, ağciyər vərəmindən əziyyət çəkdiyini, xəstəliyi ilə bağlı əlilliyinin təkrar qiymətləndirilmədiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə müraciətdən sonra məhkum 7 saylı Tibbi-sosial ekspert komissiyasının ekspert həkimi tərəfindən Xidmətin Müalicə Müəssisəsində müayinə olunmuş, sağlamlıq vəziyyəti aktlaşdırılaraq Agentliyə göndərilmiş və əlilliyin müəyyən edilməsi barədə qərar qəbul olunmuşdur.

Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıq hüquqlarının daha effektiv təmini üçün tibbi məlumatların elektron qeydiyyatının aparılması, müəssisələrdə tibbi xidmətlərin sosial xidmətlərə daha sıx inteqrasiyası üzrə zəruri tədbirlərin görülməsi təklif olunur.

Ombudsmanın ünvanına daxil olmuş ərizə və şikayətlərin araşdırılması, habelə başçəkmələrin həyata keçirilməsi zamanı tibbi yardımın təşkili ilə bağlı müəyyən edilmiş nöqsanlar barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə müraciətlər olunmuş, çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Belə ki, Penitensiar Xidmətin Müalicə Müəssisəsində palatalarda yataq dəstlərinin sayı artırılmış, Nevrologiya şöbəsinin digər korpusu əsaslı təmir olunmuşdur.

Müalicə Müəssisəsinin tibb xidmətinin rəhbərliyinə və həkimlərə bəzi xəstələrə aid tibbi kartlarda qeydlərin natamam aparılması hallarının dərhal aradan qaldırılması, tibbi sənədlərin diqqətlə tərtibi, gündəliklərin dolğun və mükəmməl yazılmasının, habelə stasionar müalicəyə zərurət aradan qalxdığı halda məhbusların əsassız olaraq şöbədə saxlanılmasına yol verilməməsi və həmin şəxslərin qısa zamanda şöbədən yazılmasının təmin edilməsinin zəruriliyi diqqətə çatdırılmışdır.

Penitensiar Xidmətin 2 saylı cəzaçəkmə müəssisəsinin Tibbi-sanitar hissəsinin Ambulator yardım otağında aşkar edilmiş sanitariya-epidemioloji tələblərin pozulması halları, habelə 5 və 7 saylı cəzaçəkmə müəssisələrinin tibb-sanitar hissələrində xəstələrin qeydiyyat kitabında və xəstəlik tarixlərində mövcud olmuş nöqsanlar aradan qaldırılmışdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının cinayət və cəza qanunvericiliyində məhkum olunmuş şəxslərin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz olunması, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə institutlarına xüsusi yer verilir ki, bu da məhkumların cəzaçəkmə müəssisələrində rejimə riayət etmələrinə, islah olunma prosesinin sürətləndirilməsinə və onların normal sosial faydalı həyata qaytarılmasına imkan verən əhəmiyyətli amillərdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 10-cu maddəsində xəstəliyə görə cəzanı çəkməkdən azad edilmə cəzaların icrası və çəkilməsi zamanı məhkumun malik olduğu hüquqlar sırasında təsbit edilmişdir. Həmin Məcəllənin 170-ci, habelə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 511-ci maddələrinə əsasən cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə tutulmuş məhkumun cəza çəkməkdən azad edilməsi haqqında məsələsinə məhkumun, onun müdafiəçisinin və ya qanuni nümayəndəsinin ərizəsi, yaxud cəzaçəkmə müəssisəsi müdiriyyətinin təqdimatı əsasında baxılır. Xəstəliyə görə cəzadan azad etmə qanunvericiliyin humanizm prinsipindən irəli gəlir və demokratik dəyərlərə xidmət etməklə cinayət törətdikdən sonra cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə düçar olan şəxsin cəzadan azad edilməsini nəzərdə tutur.

Bununla belə müraciətlərin təhlili, həmçinin Ombudsmanın Milli Preventiv Mexanizminin fəaliyyəti çərçivəsində penitensiar müəssisələrə həyata keçirilən başçəkmələrin nəticələri onu göstərir ki, ağır xəstəliklərdən əziyyət çəkən məhkumların cəza çəkməkdən azad edilmələri barədə müraciətlərinə müvafiq komissiyada baxılması, tibbi rəyin verilməsi, habelə məhkəmələrə təqdimatın göndərilməsi ilə bağlı problemlər hələ də qalmaqdadır.

Bu sahədə təhlillərin aparılması məqsədilə ağır xəstəliklərdən əziyyət çəkən məhkumların cəza çəkməkdən azad edilməsi üçün tibb şəhadətləndirilməsi, habelə həmin müəssisələrdə ölüm halları barədə statistik məlumatların təqdim edilməsi ilə bağlı Ombudsman tərəfindən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə sorğu ilə müraciət olunmuşdur. Əldə edilmiş məlumata əsasən Penitensiar müəssisələrdə 2022-ci ildə 151, 2023-cü ildə isə 169 məhbusun vəfat etdiyi müəyyən edilmişdir. Penitensiar müəssisələrdə saxlanılan həmin şəxslər arasında xəstəliklər səbəbi ilə 2022-ci ildə 146 ölüm halı, 2023-cü ildə isə 163 ölüm halı baş vermişdir ki, bu da müvafiq illər üzrə ümumi ölüm hallarının 96-97%-ini təşkil etmişdir.

Buna baxmayaraq, ağır xəstəliyə düçar olmuş məhkumların cəza çəkməkdən azad edilməsi məqsədilə tibbi şəhadətləndirilməsi ilə bağlı Tibb Baş İdarəsinin Xüsusi Həkim Ekspert Komissiyasında 2022-ci il ərzində cəmi 24 məhkumun, 2023-cü il ərzində isə 23 məhkumun məsələsi müzakirə olunmuş və 2022-ci il ərzində cəmi 2 məhkuma, 2023-cü il ərzində isə 5 məhkuma “Məhkumların cəza çəkməsinə mane olan ağır xəstəliklərin Siyahısı”nda göstərilən xəstəliklərə uyğunluq barədə rəy verildiyi müəyyən edilmişdir.

Eyni zamanda, statistikaya əsasən həmin rəylər üzrə verilmiş təqdimatlar əsasında 2022-ci il ərzində 2 məhkum, 2023-cü il ərzində isə 4 məhkum məhkəmə qərarı ilə cəza çəkməkdən azad olunmuşdur.

Göründüyü kimi, iki il ərzində cəzanı icra edən müəssisə və ya orqan tərəfindən məhkəmələrə cəmi 7 təqdimat verilmişdir ki, onlardan da 6-sı məhkəmələr tərəfindən təmin olunmuşdur.

Qeyd olunanları diqqətə alaraq, penitensiar müəssisələrdə cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə düçar olmuş məhkumların cəzadan azad olunmalarına dair müraciət etmələri ilə bağlı mümkün məhdudiyyətlərin aradan qaldırılması və onların bu hüququnun effektiv həyata keçilməsi üçün zəruri tədbirlərin görülməsi, habelə cəzanı icra edən müəssisə və ya orqan tərəfindən məhkəmələrə müvafiq təqdimatların göndərilməsində olan problemlərin həlli zəruridir.

Məlum olduğu kimi, Konstitusiya Qanununa əsasən Ombudsman əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə, habelə amnistiya elan edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verə bilər. Bununla yanaşı, Ombudsman dövlət orqanının, bələdiyyənin və digər qurumun, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək hüququna malikdir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş məhkumun xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi haqqında məsələyə o cümlədən Ombudsmanın təqdimatı əsasında baxılması ilə bağlı həmin Məcəllənin 511.2-ci maddəsinə müvafiq dəyişikliklərin edilməsi məqsədəmüvafiq hesab edilir.

Bununla yanaşı, cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə ilə bağlı məsələyə habelə Ombudsmanın vəsatəti əsasında baxılmasına dair Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 513.1-ci maddəsinə də zəruri dəyişikliyin edilməsi təklif olunur.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 65-ci maddəsinə uyğun olaraq, müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər cəzalarını bir qayda olaraq yaşayış yerinə yaxın ərazidə yerləşən cəzaçəkmə müəssisələrində çəkirlər.

Cəzalarını yaşayış yerlərinə yaxın ərazidə yerləşən cəzaçəkmə müəssisələrində çəkmələri ilə əlaqədar bir sıra məhkumlar tərəfindən Ombudsmana ünvanlanmış ərizələrlə bağlı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə sorğular göndərilmiş və görülmüş tədbirlər nəticəsində müraciətlər təmin edilmişdir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 1 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən məhkum A. (10672-24) Ombudsmana müraciət edərək, Şəki şəhərində yaşayan ailə üzvlərinin onunla görüşməsi üçün uzaq yol qət etdiklərini, bu səbəbdən onun Şəki Penitensiar Müəssisəsinə keçirilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı həmin Xidmətə müraciətdən sonra məhkum cəzasının qalan hissəsini çəkməsi üçün qeyd olunan müəssisəyə keçirilmişdir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Tərbiyə Müəssisəsində cəza çəkən məhkum S. (11804-24) Ombudsmana müraciət edərək, on səkkiz yaşının tamam olması ilə əlaqədar olaraq cəza çəkdiyi müəssisədən digər cəzaçəkmə müəssisəsinə keçiriləcəyini bildirmiş, bunu nəzərə alaraq onun qohumlarının yaşadığı ərazidə yerləşən cəzaçəkmə müəssisəsinə keçirilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı həmin Xidmətə müraciətdən sonra məhkumun istəyi nəzərə alınaraq cəzasının qalan hissəsini çəkməsi üçün 6 saylı cəzaçəkmə müəssisəsinə keçirilmişdir.

Xarici ölkələrdə yaşayan və həbs yerlərində saxlanılan Azərbaycan Respublikası vətəndaşı olan şəxslər barəsində daxil olmuş müraciətlər Ombudsmanın həmin ölkələrin

milli insan hüquqları təsisatları ilə qarşılıqlı əməkdaşlığı çərçivəsində araşdırılmış, onların hüquqlarının müdafiəsi üzrə zəruri tədbirlər görülmüşdür.

Ərizəçi M. (1151-24) Ombudsmana müraciət edərək, Belarus Respublikasında həbs olunmuş övladı barəsində məlumat ala bilmədiyini qeyd etmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Ombudsmanın səlahiyyətli dövlət orqanlarına müraciətindən sonra ərizəçinin övladı ilə görüşü təşkil edilmiş, saxlanma şəraitindən narazılığının olmadığı, mütəmadi olaraq tərcüməçi ilə təmin edildiyi və ona lazımi köməkliyin göstərildiyi məlum olmuşdur.

İl ərzində qadın məhkumların hüquqi vəziyyəti də diqqətdə saxlanılmış, Ombudsman və təsisatın əməkdaşları tərəfindən müəssisələrə keçirilmiş müntəzəm baxışlar zamanı onların saxlanılma şəraiti, hüquqlarının təmini vəziyyəti araşdırılmış, əfvetmə haqqında əsasnamənin və digər normativ hüquqi aktların tələbləri barədə məlumat verilmişdir. Bununla yanaşı, bayram günləri ərəfəsində məhkum qadınlarla görüşlər keçirilmiş, anaları ilə birlikdə saxlanılan azyaşlı uşaqlara bayram hədiyyələri verilmişdir.

Göstərilənlərlə yanaşı, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Tərbiyə Müəssisəsində cəza çəkən yetkinlik yaşına çatmayan məhkumların da vəziyyəti öyrənilmiş, həmin müəssisədə həyata keçirilmiş maarifləndirmə tədbirləri zamanı onlara qanunvericiliyin tələbləri, o cümlədən hüquq və vəzifələri, hüquq müdafiə mexanizmləri, preventiv tədbirlər barədə məlumatlar təqdim edilmişdir.

Bundan başqa, qidalanma rejiminin, psixoloji yardımın və göstərilən tibbi xidmətlərin səviyyəsinin yüksəldilməsi, habelə idman-sağlamlıq işinin və asudə vaxtın təşkili ilə bağlı müəssisə rəhbərliyinə də tövsiyələr verilmişdir.

“Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral 2668 nömrəli Sərəncamının 8-ci bəndində ibtidai istintaq orqanları və məhkəmələr tərəfindən qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına ciddi əməl olunması, cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi nəzərdə tutulmuşdur.

Sərəncamın icrası istiqamətində aparılan islahatlar nəticəsində həbs qətimkan tədbirlərinin seçilməsi halları ilə bağlı əvvəlki dövrlə müqayisədə azalma müşahidə edilsə də, alternativ qətimkan tədbirlərinin daha geniş tətbiq edilməsi məqsədəmüvafiqdir.

Ombudsman prokurorluq orqanları tərəfindən həbs qətimkan tədbirlərinin seçilməsi və ya həbs müddətlərinin uzadılması ilə bağlı təqdimatların minimuma endirilməsi, penitensiar müəssisələrdəki sıxlıq probleminin aradan qaldırılması məqsədilə həbsə alternativ qətimkan tədbirlərinin seçilməsi, istintaq hərəkətlərinin mümkün qısa müddətdə yekunlaşdırılması, habelə azadlıqdan məhrum etməklə əlaqədar olmayan cəzalara üstünlük verilməsi istiqamətində tədbirlərin genişləndirilməsini tövsiyə edir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 157.3-cü və 159-1-ci maddəsinə əsasən, məhkəmə qərarı ilə həbs olunmuş şəxs müvəqqəti saxlama yerində 24 saatdan artıq saxlanıla bilməz və bu müddət bitənədək o, istintaq təcridxanasına keçirilməlidir (şəxsin nəqliyyat vasitələri ilə istintaq təcridxanasına aparılması müddəti göstərilən müddətə daxil deyildir). Həmin Məcəllənin 159-1-ci maddəsinə uyğun olaraq istintaq təcridxanasının yerləşdiyi yaşayış məntəqəsindən uzaq yerdə istintaq hərəkətlərinin aparılması və ya həbs edilmiş şəxsin məhkəmə icraatında iştirakının təmin edilməsi zərurəti olduqda və onun hər gün gətirilib aparılması mümkün olmadıqda, həbs edilmiş şəxs məhkəməyədək icraat zamanı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun, məhkəmə icraatı zamanı məhkəmənin əsaslandırılmış qərarı ilə 1 ayda 10 gündən artıq olmayan müddətə istintaq təcridxanasından müvəqqəti

saxlama yerinə keçirilə bilər. Həbs edilmiş şəxsin vəsatəti əsasında həmin müddət məhkəmənin əsaslandırılmış qərarı ilə məhkəmə icraatının sonunadək uzadıla bilər.

Ötən dövrdə daxil olmuş müraciətlərin təhlili göstərir ki, həbs edilmiş şəxsin bir müəssisədən digər müəssisəyə keçirilməsi prosesində ləngimələr mövcud olmuşdur. Nəticədə istintaq hərəkətlərinin vaxtında həyata keçirilməməsinə, süründürməçiliyə yol verilməsinə, habelə şəxsin müddətdən artıq saxlanılmasına və bununla da onun prosessual hüquqlarının pozulmasına səbəb yaradır.

Ombudsman məhkumların və onların ailə üzvlərinin əfv haqqında müraciətlərini nəzərə alaraq, müntəzəm olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasına vəsatətlər göndərmiş, eyni zamanda həmin komissiyanın iclaslarında iştirak etmişdir.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 may tarixli Sərəncamı ilə Ombudsmanın da təklifləri nəzərə alınaraq, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 154 şəxs əfv edilmişdir. Ombudsman müvafiq sərəncamın icrası prosesində iştirak etmiş, azadlığa çıxan şəxslərə sənədlərin təqdim olunması zamanı onlara öz tövsiyələrini vermişdir.

Ötən dövr ərzində ölkəmizdə ümumilikdə 12 amnistiya aktı qəbul edilmiş, 70 əfv fərman və sərəncamları imzalanmış, nəticədə minlərlə məhkum cəzanın çəkilməmiş hissəsindən azad olunmuşdur. Ombudsmanın fəaliyyəti dövründə onun vəsatəti ilə ümumilikdə 879, 2024-cü ildə isə 15 məhkum əfv edilmişdir.

## II fəsil

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2024-cü il ərzində ölkəmizin dünyanı narahat edən problemlərin həllinə və beynəlxalq əməkdaşlığa mühüm töhfə verən qlobal xarakterli tədbirlərə ev sahibliyi etməsi ilə yadda qalmışdır.

Bu gün dünya dövlətlərinin üzləşdiyi və mübarizə apardığı ən böyük problemlərdən biri qlobal iqlim dəyişmələri nəticəsində baş verən və insanlığa mühüm təhdid yaradan fəsadlardır.

Bu problemin həlli üçün təxirəsalınmaz tədbirlərin görülməsi, eləcə də müzakirələr üçün qlobal platformaların təşkili ölkəmizin beynəlxalq səylərə verdiyi əhəmiyyətli töhfələrdən olmuşdur.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi dövlətimizin bu qlobal problemlə mübarizə sahəsində fəal rolunu bir daha təsdiqləmişdir.

Ombudsmanın əsas fəaliyyət istiqamətlərindən biri də iqlim dəyişmələri ilə mübarizə çərçivəsində insan hüquqlarının qorunması məsələsi olmuşdur. Bunun üçün həm yerli, həm də beynəlxalq tərəfdaşlarla əməkdaşlıq genişləndirilmiş, qabaqcıl təcrübələr öyrənilərək milli səviyyədə tətbiqinə dair fəaliyyətlər həyata keçirilmişdir.

Ombudsman iştirak etdiyi beynəlxalq platformalarda, xüsusilə iqlim dəyişikliyinin təsirləri və bu təsirlərin azaldılması zamanı insan hüquqlarının qorunmasının vacibliyi məsələlərini diqqətə çatdırmış, müvafiq təkliflər irəli sürmüşdür.

Pakistanın İslamabad şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatı Ombudsmanlar Assosiasiyasının 10-cu iclasında Ombudsman silahlı münaqişələr və təbii fəlakətlər nəticəsində yaranan insan hüquqları pozuntularına diqqət çəkmiş, bu kimi problemlərin həlli üçün ombudsman təsisatlarının birgə fəaliyyətinin əhəmiyyətini vurğulamışdır.

Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının Cenevrədə keçirilən illik iclasında Ombudsman biznes və insan hüquqları mövzusunda çıxış edərək, bu məsələnin ətraf mühitin qorunması kontekstində böyük əhəmiyyət daşıdığını qeyd etmiş, BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə əsasən dövlətlərin korporativ məsuliyyət çərçivəsində insan hüquqlarına mənfi təsirlərin qarşısını almaq üçün tədbirlər görməli olduğunu diqqətə çatdırmışdır. Bununla yanaşı, tədbirdə Ombudsman təsisatı tərəfindən il ərzində beynəlxalq ekspertlərin tövsiyələri də nəzərə alınmaqla hazırlanmış biznes və insan hüquqlarına dair milli qiymətləndirmə sənədi haqqında da məlumat verilmişdir. Həmin sənəddə biznes fəaliyyəti ilə iqlim dəyişikliyi və dayanıqlı inkişaf məqsədləri arasındakı əlaqələrin təhlilinə də yer verildiyi qeyd edilmişdir.

Mərakeşdə keçirilən İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının 11-ci iclasında Azərbaycan Ombudsmanı ekoloji hüquqların təşviqində ombudsman təsisatlarının rolunu vurğulamış, bu qurumların regional və beynəlxalq əməkdaşlığının gücləndirilməsinin əhəmiyyətini, həmçinin Ermənistanın mina terroru nəticəsində ekosistemə vurulan zərəri və yaranan təhlükələri diqqətə çatdırmış, bu problemin həllində beynəlxalq həmrəyliyin vacib olduğunu bildirmişdir.

"Ətraf mühitlə bağlı çətinliklər: dəyişən dünyada insan hüquqlarının gələcəyi, dayanıqlı həll yolları üçün axtarış" mövzusunda keçirilən İnsan Hüquqları üzrə IV Səmərqənd Forumuna onlayn qaydada qatılan Ombudsman iqlim dəyişikliyi kontekstində insan hüquqlarının müdafiəsi üçün qlobal strategiyaların həyata keçirilməsinə, habelə əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə ehtiyac olduğunu vurğulamışdır. Silahlı münaqişələri ətraf mühitin çirklənməsinə səbəb olan əsas amillərdən biri kimi qiymətləndirən Ombudsman ölkəmizin uzun illər işğaldan əziyyət çəkdiyini, azad olunmuş

ərazilərdə biomüxtəlifliyə, su mənbələrinə, flora və faunaya ciddi zərər vurulduğunu qeyd etmişdir.

Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının 24-cü sessiyası çərçivəsində “Sağlamlıq hüququ: islam və insan hüquqları kontekstində” mövzusunda təşkil olunmuş tematik müzakirələrdə Ombudsman çıxış edərək, iqlim dəyişmələrinin insan hüquqlarına mənfi təsir göstərməsi, ölkəmizdə bu problemin həlli istiqamətində həyata keçirilən kompleks tədbirlər, əldə olunan müsbət təcrübələr barədə məlumat vermiş, bununla bağlı İƏT çərçivəsində birgə əməkdaşlıq istiqamətlərini təklif etmişdir.

Səfər çərçivəsində Ombudsman İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha ilə görüş keçirmişdir. Görüşdə Ermənistanın törətdiyi ekoloji cinayətlər, torpaqlarımızın minalarla çirkləndirilməsi haqqında məlumat verən Ombudsman mülki şəxslərin həyat və sağlamlığına, keçmiş məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıdışına və həyata keçirilən bərpa-quruculuq işlərinə ciddi maneə törədən mina probleminin aradan qaldırılması üzrə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr tərəfindən dəstəyin artırılmasının olduqca mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırmışdır.

Asiya Ombudsmanlar Assosiasiyası ilə səmərəli əməkdaşlıq əlaqələri davam etdirilmişdir. Assosiasiyanın idarə heyətinin Türkiyənin İstanbul şəhərində keçirilən 25-ci iclasının gündəliyinə Ombudsmanın təklifi ilə biznes və insan hüquqları mövzusuna həsr olunmuş sessiya daxil edilmişdir. Pakistan, Türkiyə, İran, Yaponiya, Çin, Honq-Konq və Tatarıstan ombudsmanlarının iştirak etdiyi sessiyada Ombudsman ölkəmizdə biznes və insan hüquqları sahəsində həyata keçirilən işlər barədə məlumat vermişdir. Assosiasiya çərçivəsində bu istiqamətdə müsbət təcrübələrin öyrənilməsi və həyata keçirilən fəaliyyətin təkmilləşdirilməsi məqsədilə regional əməkdaşlıq şəbəkəsinin yaradılması və hər bir üzv qurumdan əlaqələndirici şəxslərin təyin edilməsinə dair irəli sürdüyü təklif iştirakçılar tərəfindən müsbət qiymətləndirilmişdir.

Həmin təklif nəzərə alınaraq, biznes və insan hüquqları sahəsində milli insan hüquqları mexanizmlərinin fəaliyyətinin gücləndirilməsinə dair maarifləndirici tədbirin keçirilməsi 2024-cü il üzrə assosiasiyanın tədbirlər planına daxil edilmiş və dekabr ayında Ombudsman Aparatı ilə birgə üzv qurumlar üçün biznes və insan hüquqları mövzusunda onlayn tədbir təşkil olunmuşdur. Malayziya, İndoneziya, Pakistan, Türkiyə, Tatarıstan və Çin, habelə Asiya regionunun digər ölkələrinin ombudsman və milli insan hüquqları institutlarının iştirak etdiyi tədbirdə Ombudsman iştirakçılara biznes və insan hüquqları sahəsində həyata keçirdiyi maarifləndirmə fəaliyyəti və BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlıq çərçivəsində hazırlanmış milli qiymətləndirmə sənədi barədə məlumat vermişdir.

COP29 öncəsi ölkədə keçirilən tədbirlər çərçivəsində iqlim dəyişikliyi ilə bağlı qlobal gündəm nəzərə alınaraq Ombudsman təsisatı tərəfindən “İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu” mövzusunda Ombudsmanların Beynəlxalq Bakı Forumu təşkil edilmişdir. Foruma 30-a yaxın ölkədən ombudsman və milli insan hüquqları institutlarının nümayəndələri, informasiya komissarları, qanunvericilik, icra və məhkəmə hakimiyyətini təmsil edən dövlət rəsmiləri, beynəlxalq təşkilatların təmsilçiləri, beynəlxalq ekspertlər, çoxsaylı vətəndaş cəmiyyəti institutlarının nümayəndələri daxil olmaqla, ümumilikdə 200-dən çox iştirakçı qatılmışdır. İqlim ədaləti, korporativ məsuliyyət, ətraf mühitlə bağlı informasiyaya çatım və digər aidiyyəti mövzular üzrə geniş müzakirələrin aparıldığı forumun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin forum iştirakçılarına müraciəti dinlənilmişdir. Müraciətdə Beynəlxalq Bakı Forumunun mövzusunun bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb etdiyi, iqlim dəyişmələrinin əsas insan hüquqlarının müdafiəsi və təminatı baxımından bir sıra ciddi çətinliklər yaratdığı, Ermənistanın uzun illər həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində ölkəmizin ekoloji terrora məruz qaldığı, hal-hazırda işğaldan azad edilmiş torpaqlarda aparılan geniş quruculuq işlərində

ekosistemin də yenidən bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirildiyi, ekologiyaya dəymiş zərərin aradan qaldırılması və bu prosesdə preventiv tədbirlərin görülməsində milli insan hüquqları institutlarının üzərinə mühüm vəzifələr düşdüyü, bununla bağlı birgə əməkdaşlığın vacibliyi qeyd olunmuşdur. Müraciət bu sahədə gələcək fəaliyyətin əsas istiqamətlərinin müəyyənləşdirilməsi və insan hüquqlarının müdafiəsi sahəsində yeni prioritetlərin formalaşdırılması baxımından forum iştirakçıları tərəfindən yüksək qiymətləndirilmiş və böyük rəğbətlə qarşılanmışdır.

Tədbirdə həmçinin BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türkün videomüraciəti dinlənilmişdir.

Forumda çıxışı zamanı Ombudsman iqlim dəyişikliyinin qarşısının alınması prosesində insan hüquqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin və bu sahədə qlobal həmrəyliyin əhəmiyyətinə toxunmuşdur.

Forum çərçivəsində Ombudsman Aparatı tərəfindən BMT-nin İnkişaf Proqramının dəstəyi ilə təşkil olunan "İqlim Dəyişikliyi və İnsan Hüquqları" mövzusunda araşdırma-yazı müsabiqəsinin qalibləri mükafatlandırılmışdır. Universitet tələbələri üçün nəzərdə tutulan bu müsabiqənin məqsədi gənclərin diqqətini iqlim dəyişikliyi ilə bağlı məsələlərə yönəltmək, onlarda bu sahə ilə bağlı araşdırma aparmaq həvəsi yaratmaq olmuşdur.

Tədbirin yekununda Ombudsmanların Beynəlxalq Bakı Forumunun Bəyannaməsi səsləndirilmiş və qəbul edilmişdir. Bəyannamədə ekoloji problemlərin həlli sahəsində ombudsman və milli insan hüquqları institutlarının rolunun gücləndirilməsi, məlumatlılığın artırılması və tərəfdaşlığın təşviqi kimi məsələlər nəzərdə tutulmuşdur.

Forum çərçivəsində iştirakçıların işğaldan azad olunmuş ərazilərə səfəri də təşkil edilmişdir. Türkiyə, Macarıstan, Qırğızıstan, Filippin, Keniya, Şimali Makedoniya, Mərakeş və Moldovadan olan ombudsmanlar, milli insan hüquqları institutlarının rəhbərləri, informasiya komissarları və insan hüquqları üzrə ekspertlər bu səfərə qatılmışdır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində törədilmiş genosid, urbisid, ekosid, kultursid cinayətləri və digər faktların dünya ictimaiyyətinə çatdırılması məqsədilə təşkil edilən səfər zamanı Ağdam da daxil olmaqla azad edilmiş ərazilərdə müşahidələr aparılmışdır.

Ombudsmanların Beynəlxalq Bakı Forumunun iştirakçıları Ağdam rayonunun Sarıcalı kəndində minaların zərərsizləşdirilməsi prosesini izləmiş, onlara Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən həyata keçirilən minatəmizləmə işləri, habelə otuz ilə yaxın işğal müddətində qadınlar və uşaqlar da daxil olmaqla minlərlə insanın mina qurbanı olması barədə məlumat verilmiş, basdırılmış minaların hazırda insanların həyat və sağlamlığı ilə yanaşı, regionda həyata keçirilən tikinti və bərpa proseslərinə, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışına maneə yaratmaqda olduğu diqqətə çatdırılmışdır.

Səfər çərçivəsində Tərtər rayonunun Şıxarx qəsəbəsində Forum iştirakçılarının fəal iştirakı ilə ağacəkmə aksiyası təşkil edilmişdir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Ombudsmanın təşəbbüsü ilə "İnsan hüquqlarına əsaslanan iqlim ədaləti: milli insan hüquqları institutlarının rolu" mövzusunda interaktiv müzakirə təşkil edilmişdir. Tədbirdə Milli Məclisinin deputatları, dövlət qurumlarının, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının Katibliyinin nümayəndəsi, Hondurasın İnsan Hüquqları üzrə Müvəkkili təsisatının icraçı direktoru, iqlim dəyişikliyi ilə mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq ekspertlər iştirak etmişlər.

Tədbirdə çıxışı zamanı Ombudsman COP29 kimi mühüm beynəlxalq tədbirə ev sahibliyi edən Azərbaycanda iqlim dəyişikliyi ilə mübarizə istiqamətində genişmiqyaslı və kompleks tədbirlər həyata keçirildiyini bildirmişdir. Azərbaycanda 2030-cu ilə qədər sosial-iqtisadi inkişafın beş milli prioriteti sırasında "Təmiz ətraf mühit və yaşıl artım

ölkəsi", həmçinin Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonaları kimi müəyyən edilməsinin də yer aldığını diqqətə çatdıran Ombudsman milli insan hüquqları institutlarının iqlim ədalətinin təmin olunması, sağlam ətraf mühitdə yaşamaq hüququnun qorunması və iqlim dəyişikliyindən təsirlənən həssas qrupların müdafiəsində mühüm rol oynadığını vurğulamışdır.

COP29 çərçivəsində ölkəmizdə keçirilən mühüm tədbirlərdən biri də Milli İnsan Hüquqları İnstitutlarının Qlobal Alyansının "İqlim dəyişikliyi və insan hüquqları: milli insan hüquqları institutlarının rolu" mövzusunda simpoziumu olmuşdur. BMT-nin İnkişaf Proqramı və Ali Komissarlığının dəstəyi ilə baş tutan bu tədbirdə Avropa, Asiya, Afrika və Amerika regionlarından milli insan hüquqları institutlarının rəhbər və nümayəndələri iştirak etmişdir. Ombudsman Aparatının bir qrup məsul əməkdaşı həmin tədbirdə iştirak edərək, iqlim dəyişikliyi ilə mübarizədə insan hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyəti barədə ətraflı məlumat vermişlər.

Ombudsmanın beynəlxalq əməkdaşlıq fəaliyyətinin əsas istiqamətlərindən biri də beynəlxalq insan hüquqları təşkilatları, ombudsmanlar və milli insan hüquqları institutları ilə əlaqələrin möhkəmləndirilməsi olmuşdur. Bu çərçivədə insan hüquqlarının qorunması sahəsində müsbət təcrübələrin öyrənilməsi və həmin təcrübələrin ölkə daxilində tətbiqi istiqamətində fəaliyyət həyata keçirilmişdir.

BMT-nin saziş qurumları ilə əməkdaşlıq çərçivəsində Ombudsman təsisatı Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın icra vəziyyətinə dair prioritet məsələlərlə bağlı sorğuya cavab olaraq, Paktın implementasiyası sahəsində ölkədə görülən işlərə dair məlumatları BMT-nin İnsan Hüquqları Komitəsinə təqdim etmişdir.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın icrası ilə əlaqədar Azərbaycan Respublikasının dövrü məruzəsinə baxış çərçivəsində Ombudsmanın paralel hesabatı BMT-nin Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Komitəsinə təqdim edilmişdir. Həmin hesabatda əlilliyi olan şəxslərin hüquqlarının daha səmərəli müdafiəsi üzrə Ombudsmanın fəaliyyəti və bu sahədə irəli sürdüyü təkliflər öz əksini tapmışdır.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının həyata keçirilməsi ilə bağlı görülmüş işlərə dair Azərbaycan Respublikasının 5-ci dövri məruzəsi üzrə Ombudsmanın paralel hesabatı İşgəncələr əleyhinə Komitəyə göndərilmişdir. Hesabatda yer alan məsələlərlə bağlı aprel ayında İsveçrənin Cenevrə şəhərində BMT-nin İşgəncələr Əleyhinə Komitəsinin xüsusi iclasında Ombudsman Aparatının nümayəndələri iştirak etmiş, müzakirələrdə Ombudsmanın Milli Preventiv Mexanizmi mandatı çərçivəsində həyata keçirilən fəaliyyət, əldə olunan yeniliklər və preventiv tədbirlər barədə məlumat verilmiş, Komitə üzvlərinin sualları cavablandırılmışdır.

Ermənistan hökumətinin BMT-nin İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya üzrə Komitəsinə təqdim etdiyi hesabata alternativ olaraq, Ombudsman tərəfindən Ermənistanın Azərbaycana qarşı törətdiyi etnik nifrətə əsaslanan cinayətlər, dövlət səviyyəsində aparılan anti-Azərbaycan təbliğatı və azərbaycanlılara qarşı nifrət hissinin aşılanmasına yönəlmiş fəaliyyətə uşaqların da cəlb olunması ilə bağlı faktlara dair hesabat hazırlanaraq həmin Komitəyə göndərilmişdir. Hesabatda həmçinin son 150 ilə yaxın müddət ərzində indiki Ermənistan ərazisindən deportasiya edilmiş azərbaycanlıların pozulmuş hüquqlarına diqqət çəkilmiş, onların qayıdış hüququnun təmini ilə bağlı müddəalar öz əksini tapmışdır.

Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsi ilə Ombudsman təsisatı arasında səmərəli əməkdaşlıq əlaqələri davam etdirilmişdir. Bu çərçivədə qanunun aliliyinin gücləndirilməsi və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə müsbət təcrübə mübadiləri həyata keçirilmişdir.

2024-cü il üzrə həmin təşkilat tərəfindən Avropa regionundakı ölkələrdə qanunun aliliyi prinsipinin həyata keçirilməsi vəziyyətinin təhlilinə dair hesabatın hazırlanması

məqsədilə ölkəmizə aid müvafiq məlumatlar Ombudsman təsisatı tərəfindən təqdim edilmiş və təşkilatın yenilənmiş elektron bazasında yayımlanmışdır.

Bununla yanaşı, Milli İnsan Hüquqları İnstitutlarının Avropa Şəbəkəsinin Baş Assambleyasında və “Silahlı münaqişələr vəziyyətində fəaliyyət göstərən Milli İnsan Hüquqları İnstitutlarının rolu və funksiyaları” mövzusunda keçirilmiş seminarda Ombudsman Aparatının rəhbəri iştirak etmişdir. Sözügedən tədbirlərdə çıxışı zamanı Aparat rəhbəri Ombudsmanın münaqişə dövründə beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq həyata keçirdiyi fəaliyyəti barədə geniş məlumat vermiş, Azərbaycan ərazilərinin otuzillik işğalı dövründə Ermənistan tərəfindən beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulduğunu diqqətə çatdırmışdır.

Ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildikdən sonra Ermənistanın insan hüquqlarına ciddi təhdid yaradan mina terroru haqqında məlumat Ombudsman tərəfindən il ərzində dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmış, bəzi beynəlxalq təşkilatların həmin çağırışlara laqeyd münasibəti ölkəmizə qarşı ikili standartların açıq təzahürü kimi qiymətləndirilmişdir.

Eyni zamanda, ölkəmizə qarşı bəzi Qərb ölkələrinin ikili standartlara əsaslanan qarayaxma kampaniyaları ilə bağlı Ombudsman qətiyyətli mövqe nümayiş etdirmişdir.

Ombudsman ABŞ Dövlət Departamentinin hesabatında Azərbaycanın dini etiqad azadlığını pozan ölkələr siyahısına daxil edilməsinə etiraz edərək, bu iddiaların qərəzli olduğunu və ölkəmizdə dini ayrı-seçkilik hallarının mövcud olmadığını bildirmiş, həmçinin Ermənistanın işğal siyasəti nəticəsində mədəni və dini abidələrimizin məhv edilməsi faktlarını diqqətə çatdırmış, hesabatların əsaslı və obyektiv hazırlanmasının vacibliyini qeyd etmişdir. Ombudsman ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasının “Dağlıq Qarabağın süqutundan sonra Azərbaycanda insan hüquqları” adlı dinləmələrində ölkəmizə qarşı səsləndirilən əsassız və qərəzli fikirlərə reaksiya verərək ABŞ Konqresinin ikili standartlarını pisləmiş, Ermənistanın azərbaycanlılara qarşı törətdiyi etnik təmizləmə və soyqırımına diqqət yetirməyə çağırmışdır.

Ombudsman 12 fevral tarixində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəsin pozulması, Azərbaycan Ordusunun Tovuz rayonunun Koxanəbi yaşayış məntəqəsi, həmçinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeləri istiqamətində atəş açılması və DSX-nın hərbi qulluqçusunun xəsarət almasına münasibət bildirmiş, regionda sülh üçün yaranmış şəraitə, hərbi qulluqçuların həyat və sağlamlığına təhdid yaranması ilə bağlı narahatlığını bildirərək beynəlxalq qurumları Ermənistanın törətdiyi cinayətlərə etinasız qalmamağa səsləmişdir.

Ombudsman tərəfindən 20 Yanvar hadisələrinin 34-cü ildönümü, Xocalı soyqırımının 32-ci ildönümü və 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanatlar yayımlanmış, insanlığa qarşı törədilmiş ağır cinayətlər olan bu hadisələrə beynəlxalq ictimaiyyət tərəfindən hüquqi qiymət verilməsi ilə bağlı çağırış edilmişdir.

Ombudsman Aparatında Ermənistanın işğalından azad edilmiş ərazilərdə insan hüquqları pozuntularının və humanitar vəziyyətin qiymətləndirilməsi məqsədilə İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının həyata keçirdiyi faktaraşdırıcı missiyasının nəticələrinə dair hazırlanmış hesabatın təqdimatı keçirilmişdir.

Hesabatın əsas məqsədi Ermənistan tərəfindən dini-mədəni abidələrin, azərbaycanlılara məxsus qəbiristanlıqların dağıdılması faktlarının yerində araşdırılması, işğal və raket hücumları nəticəsində Ermənistanın beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarını pozması faktlarının beynəlxalq ictimaiyyətə təqdim edilməsi olmuşdur.

Hesabat İƏT Xarici İşlər Nazirləri Şurasının 50-ci Zirvə Görüşü çərçivəsində təsdiq edilmiş, İƏT Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Xarici ölkələrin ombudsmanları və milli insan hüquqları institutları ilə əməkdaşlıq davam etdirilmişdir. Bu əməkdaşlıq çərçivəsində təlim səfərləri, qarşılıqlı görüşlər təşkil edilmiş, xarici ölkələrdə yaşayan və işləyən ölkə vətəndaşlarının hüquqlarının müdafiəsi istiqamətində birgə tədbirlər həyata keçirilmiş, təcrübə mübadiləsi aparılmışdır.

Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumu (TİHEK) ilə Azərbaycan Ombudsman təsisatı arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində təcrübə mübadiləsinin səmərəli təşkili istiqamətində fəaliyyət davam etdirilmişdir.

Ombudsmanın dəvəti ilə TİHEK sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etmişdir. Səfər çərçivəsində Milli Preventiv Mexanizm üzrə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Umbakı Penitensiar Kompleksinə və Qaradağ Rayon Polis İdarəsinin müvəqqəti saxlama yerinə başçəkmələr həyata keçirilmiş, təcrübə mübadiləsi aparılmışdır. Həmçinin TİHEK sədri və rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasının Baş prokuroru, konstitusiya məhkəməsinin sədri, ədliyyə nazirinin müavini və penitensiar xidmətin rəisi ilə görüşləri təşkil olunmuşdur.

Türkiyənin Baş Ombudsmanının ölkəmizə səfəri çərçivəsində Azərbaycan Ombudsmanı ilə keçirilmiş görüşdə iki təsisat arasındakı əməkdaşlıq əlaqələri və həyata keçirilən işlər barədə müzakirələr aparılmışdır. Türkiyənin Baş Ombudsmanı görüşdən məmnunluğunu bildirərək, ombudsman təsisatları arasındakı əlaqələrin inkişafının əhəmiyyətini vurğulamış, eyni zamanda Ombudsman Aparatında təcrübə keçən universitet tələbələri ilə görüşərək onlara gələcək fəaliyyətləri ilə bağlı tövsiyələr vermişdir.

Ombudsman Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) Ombudsmanının dəvəti əsasında həmin ölkəyə səfər etmişdir. Səfər çərçivəsində Ombudsman, həmçinin ŞKTC-nin Prezidenti ilə görüş keçirmişdir. Görüş zamanı Ombudsman insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirdiyi fəaliyyət barədə məlumat vermiş, beynəlxalq təşkilatlarla, xarici ölkələrin ombudsman və milli insan hüquqları institutları ilə əlaqələrindən bəhs etmişdir. Ombudsman, eyni zamanda ŞKTC-nin parlament sədri, baş naziri, baş prokuroru və Vəkillər Kollegiyasının sədri ilə görüşlər keçirmiş, mandatı barədə məlumat vermiş, milli qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən fəaliyyətdən danışmışdır.

Ombudsman Qətər Dövlətinin Milli İnsan Hüquqları Komitəsinin sədrini qəbul etmiş, görüşdə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır.

Ombudsman, həmçinin onun dəvəti ilə ölkəmizə səfər edən Bəhreyn Krallığının Müstəqil Ombudsmanını qəbul etmiş, görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılmışdır. Görüşün yekununda əməkdaşlığın gücləndirilməsi məqsədilə iki qurum arasında Anlaşma Memorandumu imzalanmışdır.

Ombudsman Özbəkistan Ombudsman İnstitutunun təşkil etdiyi "İnsan hüquqları - dövlətlərin davamlı inkişafında mühüm amil" mövzusunda beynəlxalq konfransda onlayn formatda məruzə ilə çıxış etmiş, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına nail olunması, gender bərabərliyinin təmin olunması və əhalinin həssas qruplarının hüquqlarının təmini istiqamətində təşəbbüslərin artırılmasının vacibliyini qeyd etmişdir.

Ombudsman Rusiya Federasiyasının Tatarıstan Respublikasında keçirilən "Rusiya-İslam dünyası: Kazan Forum" 2024 XV Beynəlxalq İqtisadi Forumunda iştirak edərək, "Azərbaycan Respublikasında qadınların səlahiyyətlərinin artırılması" mövzusunda məruzə ilə çıxış etmişdir. Ombudsman çıxışında Azərbaycanda qadınların cəmiyyətdəki rolu və ictimai-siyasi həyatda iştirakının əhəmiyyətini vurğulamışdır. Səfər çərçivəsində Ombudsman Tatarıstan Respublikası Dövlət Şurasının "Mərhəmət" qadın

deputatları assosiasiyasının rəhbəri və qadın deputatlarla, həmçinin "Tatarıstan Respublikasının Azərbaycan Milli-Mədəni Muxtariyyəti" təşkilatında görüşlər keçirmişdir.

Ombudsman Albaniya Respublikasının İnformasiya və Məlumatların Mühafizəsi üzrə Müvəkkilinin dəvəti əsasında dünyanın müxtəlif ölkələrindən olan İnformasiya Komissarlarının qatıldığı XV Beynəlxalq Konfransda iştirak etmişdir.

"Fərdlərin informasiyaya çatım vasitəsilə səlahiyyətləndirilməsi: qarşılıqlı əməkdaşlıqda şəffaflığın və inklüzivliyin təmin edilməsi" mövzusunda keçirilən beynəlxalq konfransın ilk sessiyasında təqdimatla çıxış edən Ombudsman informasiya əldə etmək hüququnun müdafiəsi və təmini istiqamətində fəaliyyəti, bu sahədə həyata keçirilən maarifləndirmə tədbirləri, habelə əhalinin həssas qruplarının hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirilməsi barədə məlumat vermişdir.

Ombudsman və Albaniya Respublikasının İnformasiya və Məlumatların Mühafizəsi üzrə Müvəkkili arasında insan hüquqları, habelə informasiya əldə etmək hüququ sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsi məqsədilə anlaşma memorandumu imzalanmışdır.

Səfər çərçivəsində Ombudsman Albaniya Respublikasının Baş naziri, ədliyyə naziri, Parlament sədrinin müavini, habelə İnformasiya və Məlumatların Mühafizəsi üzrə Müvəkkili ilə görüşlər keçirmişdir.

Ombudsman İtaliyanın Latzio vilayətində keçirilən "Hüquqların təminatçısı kimi Ombudsmanın rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Konfransında iştirak etmişdir. Konfransda "Qlobal böhranlar zamanı insan hüquqları. Ombudsmanın rolu" adlı sessiyada çıxışı zamanı Ombudsman iqlim dəyişikliyi kontekstində insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin ombudsman və milli insan hüquqları institutlarının fəaliyyətində prioritet məsələlərdən birinə çevrildiyini bildirərək, Azərbaycanın Ombudsman təsisatı tərəfindən müvafiq sahədə təşkil olunan çoxsaylı tədbirlər haqqında məlumat vermiş, həmçinin Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii sərvətlərdən daha səmərəli istifadə istiqamətində müxtəlif dövlət proqramlarının, strategiyaların və milli fəaliyyət planlarının həyata keçirildiyini diqqətə çatdırmışdır.

Ombudsman Finlandiyanın Helsinki şəhərində keçirilən Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC) 28-ci illik konfransı və Baş Assambleyasında iştirak etmiş, uşaq hüquqlarının müdafiəsi sahəsindəki fəaliyyəti barədə danışmış, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini səsləndirmiş, Ermənistan tərəfindən basdırılmış minaların uşaqlar da daxil olmaqla mülki şəxslərin həyatına təhdid yaratdığını və bu sahədə qətiyyətli addımların atılmasının vacibliyini bildirmişdir. Tədbir çərçivəsində üzv təşkilatların fəaliyyəti və gələcək iş planları müzakirə edilmiş, "Alternativ qayğıda uşaq hüquqlarının müdafiəsi və təşviqi" üzrə bəyanat qəbul olunmuşdur.

Polşanın Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu tərəfindən təşkil olunan İnsan Ölçüsü Konfransında Ombudsman Aparatının rəhbəri iştirak etmişdir. "Tolerantlıq və ayrı-seçkilik" mövzusunda 8-ci plenar sessiyada, həmçinin qadınlara qarşı zorakılıq hallarının aradan qaldırılması və gender bərabərliyi mövzularına həsr olunmuş 10-cu plenar sessiyada çıxış edən Aparat rəhbəri qadın hüquqlarının müdafiəsi, gender bərabərliyi və qadınlara qarşı zorakılığın aradan qaldırılması sahəsində görülən tədbirlər haqqında məlumat vermişdir. O, Ermənistanın işğal siyasəti nəticəsində qətlə yetirilmiş, həmçinin itkin düşmüş qadınlar və uşaqlar, Ermənistanın mina terrorunun səbəb olduğu çoxsaylı insan tələfatı və hal-hazırda mülki əhaliyə yaratdığı təhlükələri vurğulamış və beynəlxalq ictimaiyyəti bu problemlərə diqqət yetirməyə çağırmışdır. Aparat rəhbəri həmçinin konfrans çərçivəsində Qərbi Azərbaycan İcması tərəfindən təşkil olunmuş və beynəlxalq ekspertlərin də qatıldığı Qərbi azərbaycanlıların qayıdış hüququna həsr olunmuş yan tədbirdə məruzə ilə çıxış etmişdir.

Ombudsman Rusiya Federasiyasının Moskva şəhərində "İnsan hüquqları müdafiəsinin problemləri: ombudsmanların müsbət təcrübələrinin bölüşülməsi" mövzusunda təşkil olunan VIII Beynəlxalq elmi-praktiki konfransda iştirak etmişdir.

60-a yaxın ölkənin ombudsmanlarının və milli insan hüquqları institutlarının rəhbər və nümayəndələrinin iştirak etdiyi tədbirdə “Səhiyyə sahəsində insan hüquqlarının müdafiəsinin aktual problemləri” mövzusunda çıxışı zamanı Ombudsman səhiyyə xidmətlərinə bərabər çıxışın vaxtında təmini ilə bağlı problemlərin araşdırılmasında, normativ-hüquqi aktların beynəlxalq standartlara uyğunlaşdırılmasına dair təkliflərin irəli sürülməsində milli insan hüquqları institutlarının rolundan danışmışdır. Ombudsman həmçinin Ermənistanın davam edən ekoloji terror siyasəti nəticəsində təkcə ölkəmizin deyil, bütünlükdə regionun ekosisteminə zərər vurulduğunu, bununla da insanların sağlamlıq və sağlam ətraf mühitdə yaşamaq hüquqlarının kobud şəkildə pozulduğunu konfrans iştirakçılarının diqqətinə çatdırmışdır. Azərbaycan Ombudsmanının bununla bağlı dəfələrlə beynəlxalq təşkilatlara müraciətlərinə baxmayaraq, Ermənistanda yerləşən Metsamor AES-in hələ də fəaliyyətini davam etdirməsinin region üçün ciddi təhdid olduğu bildirilmişdir.

Rəqəmsal texnologiyaların səhiyyə sahəsində istifadəsinə toxunan Ombudsman süni intellektin imkanlarından yararlanmaqla müvafiq sahədə görülən işlərin səmərəliliyinin artırıla biləcəyini vurğulamış, rəqəmsal texnologiyalara çıxışı olmayan bəzi həssas əhali qrupları üçün səhiyyə xidmətlərinin göstərilməsində müəyyən məhdudiyyətlər yaratdığını qeyd etmişdir.

Ombudsman və Aparatın əməkdaşlarının da təmsil olunduğu heyət Özbəkistan Respublikasında Ali Məclisin Qanunvericilik Palatasına və yerli şuralara keçirilən seçkilərdə müşahidəçi qismində iştirak etmişdir. Ombudsman və rəhbərlik etdiyi nümayəndə heyəti seçkilərə hazırlıq səviyyəsi ilə maraqlanaraq, seçki məntəqələrində yaradılmış şəraitlə tanış olmuş, seçki prosesini izləmişlər. Səfər çərçivəsində Ombudsman Daşkənd Dövlət Hüquq Universitetinin müəllim və tələbə heyəti ilə görüş keçirmiş, İkinci Qarabağ müharibəsi və postmüharibə dövründə həyata keçirilmiş faktaraşdırıcı missiyaların nəticələrinə əsaslanan, eləcə də Azərbaycan torpaqlarının otuzillik işğalı dövründə Ermənistan tərəfindən törədilmiş insan hüquqları pozuntularına, nifrət cinayətlərinə dair hesabatların hazırlandığı, beynəlxalq təşkilatlara, xarici ölkələrin ombudsman və milli insan hüquqları institutlarına göndərildiyi barədə görüş iştirakçılarına məlumat vermiş, tələbələri maraqlandıran suallar ətraflı cavablandırmışdır.

Ombudsman Ankara şəhərində Türk Dünyası Mediatorlar Birliyinin ilk beynəlxalq toplantısında iştirak etmiş, çıxışı zamanı təsisat ilə Azərbaycan Mediasiya Şurası arasında sıx əməkdaşlıq əlaqələri barədə iştirakçılara məlumat vermişdir. O, mediasiya prosesi ilə bağlı şikayətlərin araşdırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və maarifləndirmə işinin təşkili istiqamətində birgə fəaliyyətin əhəmiyyətinə toxunmuşdur.

Çin Xalq Respublikasının Xüsusi İnzibati Bölgəsi olan Honq-Konqun Ombudsman İnstitutunun yaradılmasının 35 illik yubileyi münasibətilə təşkil olunan Beynəlxalq Ombudsmanlar Sammitində Ombudsman Aparatının rəhbəri iştirak etmişdir. Həmin tədbirdə Ombudsmanın insan hüquq və azadlıqlarının təmini və müdafiəsi, həmçinin ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə sahəsində fəaliyyəti, Ermənistanın ekoloji terrorunun nəticələri barədə iştirakçılara məlumat verilmişdir.

2024-cü ildə Ombudsman Parlamentlərarası İttifaqın Baş katibi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının ölkəmizdəki rezident nümayəndəsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyasının nümayəndə heyəti, Moldova Respublikası Parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri, BMT-nin İqtisadi, sosial və mədəni hüquqlar komitəsinin üzvü, Türkiyə Respublikasının Konstitusiya Məhkəməsinin sədri, Özbəkistan Respublikasının İnsan Hüquqları üzrə Milli Mərkəzinin direktorunun birinci müavini və Özbəkistan Respublikası Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunun direktoru, BMT Uşaq Fondunun (UNICEF) Azərbaycana yeni təyin olunmuş nümayəndəsi, Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsinin (ENNHRI) baş katibi, Gürcüstanın Xalq Müdafiəçisi, Çin Xalq

Respublikasının Kommunist Partiyasının İntizam Təftişi üzrə Mərkəzi Komissiyası Katibinin müavini və Milli Nəzarət Komissiyası sədrinin müavininin rəhbərlik etdiyi nümayəndə heyəti, Meksika Birləşmiş Ştatları, Almaniya Federativ Respublikası, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının və Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri ilə görüşlər keçirmişdir. Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər, əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

**III fəsil**

## HÜQUQİ MAARİFLƏNDİRMƏ, ELMİ-ANALİTİK FƏALİYYƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ

***İnsan hüquqları sahəsində maarifləndirmə.*** İnsan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətin səmərəliliyinin artırılması, aidiyyəti dövlət qurumlarının əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının hüquq və azadlıqlarının təbliği, həmçinin müvafiq dövlət proqramları, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri, Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, eləcə də ölkəmizin COP29-a ev sahibliyi etməsi ilə əlaqədar olaraq, Ombudsman tərəfindən 2024-cü il üzrə hüquqi maarifləndirmə sahəsində Tədbirlər Planı təsdiq edilmiş və respublikanın bütün regionları əhatə olunmaqla icrası təmin edilmişdir.

2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri və sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər ərəfəsində Ombudsman Aparatı ilə Mərkəzi Seçki Komissiyasının birgə təşkilatçılığı əsasında Bakıda, Naxçıvanda, respublikanın bir sıra digər şəhər və rayonlarında, o cümlədən işğaldan azad olunmuş ərazilərimizdə "Vətəndaşların seçki hüququnun təmini", "Müşahidəçilərin hüquq və vəzifələri", "Gəncin səsi - Gələcəyin səsi" və "Demokratik cəmiyyətdə seçkilərin rolu" mövzularında silsilə maarifləndirmə tədbirləri keçirilmişdir.

Elm və Təhsil Nazirliyinin Bakı şəhəri üzrə fəaliyyət göstərən internat tipli ümumi təhsil müəssisələrinin rəhbər heyəti və əməkdaşları üçün "Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti" mövzusunda keçirilmiş təlimdə, ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə, o cümlədən təhsil müəssisələrində rəftar məsələləri və saxlanma şəraitinin araşdırılması məqsədilə müntəzəm olaraq keçirilən başçəkmələr, verilmiş tövsiyələr və onların icrası vəziyyətinə dair təqdimatlar edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Bakı Şəhər İcra Hakimiyyətinin əməkdaşları üçün "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyanın həyata keçirilməsinin təşviqi və müstəqil monitorinqi: Ombudsmana verilmiş yeni səlahiyyətlər" mövzusunda keçirilmiş təlimdə həmin Konvensiyada nəzərdə tutulmuş öhdəliklər və müqavilə qurumunun tövsiyələri, Konvensiyanın həyata keçirilməsinin təşviqi və müstəqil monitorinqi üzrə Ombudsmana verilmiş yeni səlahiyyətlər, həmçinin bu istiqamətdə görülmüş işlər və qarşıda duran vəzifələr barədə təqdimatlar edilmişdir. Bununla yanaşı, təlimdə 2 Aprel – Dünya Autizm Məlumatlandırma Günü barədə məlumat verilmiş və autizm spektrli pozuntulardan əziyyət çəkən şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı məsələlərə də toxunulmuşdur.

İnformasiya sahibi olan bir sıra dövlət qurumlarının əməkdaşları üçün "İnformasiya əldə etmək hüququnun təmin edilməsi sahəsində Ombudsmanın fəaliyyəti" mövzusunda keçirilmiş təlimdə informasiya əldə etmək hüququnun təmin olunması üzrə mövcud beynəlxalq və milli qanunvericilik aktları, Ombudsmanın müvafiq sahə üzrə fəaliyyəti, o cümlədən informasiya sahiblərinin "İnformasiya əldə etmək haqqında" Qanunun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarət funksiyası, daxil olan şikayətlər və onların təmini vəziyyətinə dair təqdimatlar edilmiş, eyni zamanda Ombudsman təsisatı tərəfindən bu sahə üzrə hazırlanmış maarifləndirici vəsaitlər barədə ətraflı məlumat verilmişdir.

Bakı şəhəri üzrə yerli icra hakimiyyətlərinin başçılarının müavinləri və icra hakimiyyətləri yanında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların üzvlərinin iştirakı ilə keçirilmiş "Uşaq hüquqlarının müdafiəsində yerli icra hakimiyyətlərinin rolu" mövzusundakı təlimdə iştirakçılara "Uşaq hüquqları haqqında" Konvensiyanın təşviqi və monitorinqi üzrə Ombudsmanın mandatı, Müvəkkilə ünvanlanan müraciətlər nəticəsində aşkar olunan məsələlər, BMT-nin Uşaq Hüquqları Komitəsinin ölkənin beşinci və altıncı birgə dövri məruzəsinə verdiyi tövsiyələr və Ombudsmanın illik məruzələrində irəli sürülən təkliflər barədə məlumatlar təqdim edilmişdir.

Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, hüquq bərabərliyinin təbliği və ayrı-seçkiliklə mübarizə sahəsində vətəndaş cəmiyyəti institutlarının nümayəndələri üçün keçirilmiş maarifləndirmə tədbirində "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilən dəyişikliklərə əsasən, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Uşaq hüquqları haqqında" konvensiyaların həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması ilə bağlı Ombudsmana verilmiş yeni səlahiyyətlər haqqında məlumat verilmiş, həmçinin bu sahədə yaradılmış monitorinq qrupları və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

Əhalinin insan hüquqlarına dair məlumatlılıq səviyyəsinin artırılması yolu ilə cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsinə xidmət edən mövzular üzrə digər hüquqi maarifləndirmə tədbirləri də təşkil olunmuş, Ombudsman Aparatı və regional mərkəzlərinin əməkdaşlarının digər qurumlar tərəfindən keçirilmiş analoji tədbirlərdə məruzəçi və təlimçi qismində iştirakı təmin edilmişdir.

Ombudsman tərəfindən ənənəvi olaraq 2024-cü ildə də 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü münasibətilə 18 may - 18 iyun tarixlərinin "İnsan Hüquqları Aylığı" elan olunması ilə əlaqədar aidiyyəti qurumlara çağırış edilmişdir. Dövlət orqanları, bələdiyyələr, elm, təhsil, mədəniyyət, sosial xidmət, tibb, penitensiar müəssisələri, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları, media subyektləri, həmkarlar ittifaqları və digər aidiyyəti qurumlar təşəbbüsümüzə fəal şəkildə qoşularaq analoji mövzulara həsr olunmuş müxtəlif aktual mövzular üzrə silsilə maarifləndirmə tədbirləri təşkil etmiş, hüquqi maarifləndirici vəsaitlərin hazırlanması, nəşri və əhali arasında yayılması, keçirilən tədbirlərin, çəkilən reklam çarxlarının audiovizual, çap, onlayn media, həmçinin teleradio kanalları, sosial şəbəkə hesabları vasitəsilə işıqlandırılması işində fəallıq nümayiş etdirmiş və bu barədə məlumatları #İnsanHüquqlarıAylığı və #HumanRightsMonth həştəqləri ilə sosial şəbəkə hesablarında paylaşmışlar.

BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının qəbulunun ildönümü ilə əlaqədar 20 oktyabr - 20 noyabr tarixlərini "Uşaq Hüquqları Aylığı" elan etməklə, Ombudsman tərəfindən aidiyyəti qurumlara edilən növbəti çağırış nəticəsində, uşaqların fəal şəkildə cəlb olunduğu, uşaq hüquqlarını təbliğ edən mövzulara həsr olunmuş hüquqi maarifləndirmə tədbirləri təşkil edilmişdir. Bu tədbirlər cəmiyyətdə geniş maraq doğurur, uşaqlara diqqət və qayğının artırılmasına, onların hüquqlarının daha səmərəli təmin olunmasına xidmət edir. Ümumilikdə, "Uşaq Hüquqları Aylığı" çərçivəsində Ombudsman Aparatı və Ombudsmanın regional mərkəzləri tərəfindən Bakı, Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Gəncə, Tovuz, Ağdaş, Göyçay, Masallı, Astara, Cəlilabad, Salyan, Neftçala, Lerik, Lənkəran, Quba, Qusar, Siyəzən, Şabran, Şəki, Mingəçevir, Balakən şəhər və rayonlarında uşaq hüquqlarının müdafiəsinə həsr olunmuş müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Qeyd olunmalıdır ki, ölkə Prezidentinin sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı", "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı", "Uşaqlara dair

Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı", "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı", həmçinin Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" çərçivəsində maarifləndirmə tədbirləri 2024-cü ildə də davam etdirilmişdir. Bu tədbirlər uşaqları, əlilliyi olan şəxsləri, ahılları, qaçqın, məcburi köçkün və miqrantları, habelə əhalinin digər sosial cəhətdən həssas qruplarını da əhatə etmişdir.

Yeri gəlmişkən, Ombudsman Aparatı tərəfindən Elm və Təhsil Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi ilə əməkdaşlıq çərçivəsində Bakı şəhəri Xətai rayonu 221 nömrəli və Xəzər rayonu 216 nömrəli tam orta məktəblərində "Uşaqların cinsi mənsubiyyətə görə ayrı-seçkilikdən müdafiəsi: tibbi-sosial və hüquqi aspektlər" mövzusunda təlimlər təşkil olunmuşdur. Təlimlərdə uşaq hüquqlarının müdafiəsi və uşaqlara qarşı cinsi zəmində ayrı-seçkilik hallarının aradan qaldırılması sahəsində Ombudsmanın həyata keçirdiyi fəaliyyət barədə məlumat verilmişdir. Bundan əlavə, təlim iştirakçıları gender bərabərliyi, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin formaları, erkən evlilik və təhsildən yayınma məsələləri ilə bağlı mövcud qanunvericilik aktları barədə məlumatlandırılmışdır. Təlimlər zamanı valideynlər və təhsil işçilərinin müvafiq sahədə hüquq və vəzifələri barədə ətraflı müzakirələr aparılmış və iştirakçıların sualları cavablandırılmışdır.

Ombudsman Aparatının və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Azərbaycandakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Məcburi köçkün və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi" mövzusunda təşkil olunmuş seminarda BMT QAK-ın Baş Ofisinin və Azərbaycandakı Nümayəndəliyinin ekspertləri, o cümlədən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının və UNICEF-in yerli nüməyəndəliklərinin, eləcə də Beynəlxalq Miqrasiya Təşkilatının Baş Qərargahının ekspertləri tərəfindən təqdimatlar edilmişdir. Təqdimatlarda qaçqınların beynəlxalq himayəsi, beynəlxalq hüquq çərçivəsində məcburi köçkünlərin və miqrantların hüquqları, onların inteqrasiyası, vətəndaşsızlığın aradan qaldırılması, doğumun qeydə alınması, o cümlədən bu sahədə müvafiq prosedurlara dair məsələlər əhatə olunmuşdur.

İnsan hüquqları sahəsində fəaliyyət göstərən mütəxəssislərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə Ombudsman Aparatı və Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Masallı şəhərində Ombudsmanın Cənub Regional Mərkəzində "Beynəlxalq humanitar hüquq çərçivəsində xüsusi kateqoriyaya aid şəxslərin hüquqlarının müdafiəsinin praktiki aspektləri" mövzusunda seminar təşkil olunmuşdur. "Beynəlxalq humanitar hüquq və milli qanunvericilik kontekstində Ombudsman Aparatının saxlanılma üzrə mandatı və fəaliyyəti", "Ombudsman Aparatının itkin düşmüş ailələrə dəstək sahəsində fəaliyyəti", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya və "Ombudsman Aparatının mina qurbanlarına dəstək fəaliyyətləri" mövzularında təqdimatların edildiyi seminarda tədbir iştirakçılarının sualları cavablandırılmış, yekunda sertifikatlar təqdim olunmuşdur.

Ədliyyə Akademiyasında hakimliyə namizədlər, penitensiar xidmətə, tibb xidmətinə, ekspertiza mərkəzinə qəbul olunmuş əməkdaşlar üçün "Ombudsmanın insan hüquqlarının müdafiəsi və Milli Preventiv Mexanizm fəaliyyəti" mövzusunda Milli Preventiv Qrupun rəhbəri tərəfindən keçirilmiş mühazirədə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunun icrasının təmin edilməsi ilə bağlı ölkə Prezidentinin müvafiq Sərəncamı ilə Ombudsmanın Milli Preventiv Mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən olunması, bu sahədə fəaliyyətin daha səmərəli aparılması üçün ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə müntəzəm keçirilən başçəkmələr, verilmiş tövsiyələr və onların icrası vəziyyətinə dair məlumatlar milli və xarici ölkə təcrübəsindən misallar gətirməklə dinləyicilərin diqqətinə çatdırılmışdır.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Konstitusiya Məhkəməsi Aparatının,

Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşlarının, Akademiyanın müəllim-zabit heyəti və kursantların iştirakı ilə “Müasir dövrdə insan hüquqlarının aktual problemləri” mövzusunda keçirilən dəyirmi masada Ombudsman Aparatı əməkdaşının “İnsan hüquq və azadlıqlarının təminatı Azərbaycan dövlətinin əsas məqsədidir” adlı məruzəsində ölkəmizdə həyata keçirilən hüquqi islahatlar, o cümlədən Ombudsmanın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat verilmişdir.

Fövqəladə Hallar Nazirliyi (FHN) və Ombudsman Aparatının birgə təşkilatçılığı ilə FHN-nin Akademiyasında “Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasında insan hüquqlarına əsaslanan islahatlar” mövzusunda konfrans keçirilmişdir. Konfransda Milli Məclisin deputatları, AMEA Tarix İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri, FHN yanında İctimai şuranın üzvləri, Akademiyanın müəllim-zabit heyəti, kursantları və digər şəxslər iştirak etmişdir. Tədbirdə Ümummilli Liderin hüquqi dövlətin qurulması və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində apardığı islahatların ölkəmizin beynəlxalq hüquq sisteminə inteqrasiyasını sürətləndirdiyi və vətəndaşların hüquq və azadlıqlarını qorumaq məqsədilə müasir çağırışlara uyğun təsirli mexanizmlərin yaradılmasına zəmin yaratdığı vurğulanmışdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları üçün keçirilən hüquqi maarifləndirmə tədbirində Ombudsman Aparatının nümayəndəsi tərəfindən iştirakçılara təhsil sahəsində inklüzivliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyan “Təhsil hamı üçün” prinsipi, insan hüquqları və azadlıqlarının mahiyyəti, əhalinin müxtəlif qruplarının hüquqları, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlərdən irəli gələn öhdəliklər, beynəlxalq müqavilə qurumlarının fəaliyyəti, məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsmanın mandatı və ona verilən yeni səlahiyyətlər barədə ətraflı məlumat verilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan Şəxslərin Peşə-Əmək Reabilitasiya Mərkəzində “Əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının dövlət təminatı” mövzusunda keçirilmiş maarifləndirmə tədbirində “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyada nəzərdə tutulmuş öhdəliklər, Konvensiyanın həyata keçirilməsinin təşviqi və müstəqil monitorinqi üzrə Ombudsmana verilmiş yeni səlahiyyətlər, bu istiqamətdə görülmüş işlər haqqında məlumat verilmiş, əlilliyi olan şəxslərin hüquqları ilə bağlı Ombudsmana ünvanlanan müraciətlərin məzmunu, əlilliyi olan şəxslərin sağlamlıq, təhsil, əmək və digər hüquqlarının təşviqi və müdafiəsi, o cümlədən müyəssərliyin təmini, inklüziv cəmiyyətin formalaşdırılması istiqamətində aparılan işlər barədə danışılmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl Şəxslər üçün Sosial Xidmət Müəssisəsində təşkil olunmuş “Fiziki aktivliyin yaşı yoxdur” adlı tədbirdə ahıl şəxslərin hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyəti, ahılların bərabərlik hüquqlarının müdafiəsi və ahıllara göstərilən dövlət qayğısı ilə bağlı iştirakçılara məlumat verilmiş, müsbət təcrübələrlə bağlı fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası və Azərbaycan Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən “Əmək sahəsində beynəlxalq hüquqi standartlar və onların Azərbaycanda tətbiqi” mövzusunda keçirilmiş birgə seminarda Ombudsmanın insan hüquq və azadlıqları sırasında mühüm yerlərdən birini tutan əmək hüququnun müdafiəsi sahəsindəki fəaliyyəti barədə məlumatlar diqqətə çatdırılmışdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasına həsr olunmuş mərasimdə DİA-nın rektoru “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin innovativ dövlət idarəçiliyi konsepsiyası: nəticələr və perspektivlər” mövzusunda təqdimatla çıxış etmişdir. Daha sonra Ombudsman təsisatı ilə DİA arasında

əlaqələrin daha da genişləndirilməsi, insan hüquqlarının təbliği, tədrisi və tətbiqi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədini daşıyan Anlaşma Memorandumu imzalanmışdır.

Yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, hüquq mühafizə orqanlarının, səhiyyə qurumlarının, regional təhsil idarələri, rayon (şəhər) təhsil sektorlarının və informasiya sahibi olan digər dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə informasiya əldə etmək hüququna həsr edilmiş maarifləndirmə tədbirləri təşkil olunmuşdur. Tədbirlərdə Ombudsmanın insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyəti, Ombudsman tərəfindən dövlət orqanlarının, bələdiyyələrin, publik hüquqi şəxslərin, onların vəzifəli şəxslərinin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarətin həyata keçirilməsi funksiyasının icrası barədə məlumat verilmiş, daha sonra bununla əlaqədar təqdimat və müvafiq sahədə videoçarx nümayiş etdirilmişdir.

Ombudsmanın təşəbbüsü əsasında Milli Məclisin deputatlarının, aidiyyəti dövlət orqanlarının və Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Nümayəndəliyinin rəsmilərinin, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, psixiatr və ekspertlərin iştirakı ilə "Azərbaycanda psixi sağlamlıq məsələləri və psixi pozuntulardan əziyyət çəkən şəxslərin hüquqları" mövzusunda keçirilmiş seminarda ölkədə tibbi xidmətə əlçatanlığın yüksəldilməsi, psixi sağlamlığın təmini sahəsindəki mövcud problemlərin həlli istiqamətində görülən işlər barədə iştirakçılara məlumat verilmiş, mövzu ətrafında müzakirələr aparılmış, fikir və təkliflər bildirilmişdir. Qeyd olunmalıdır ki, bu tədbirdə irəli sürülmüş rəy və təkliflər nəzərə alınaraq, aidiyyəti sahədə fəaliyyətin səmərəliliyinin və effektivliyinin təmin edilməsi, habelə qurumlararası əlaqələndirmənin təşkili məqsədilə Ombudsman Aparatının əməkdaşlarından, müvafiq dövlət qurumlarının nümayəndələrindən və aidiyyəti sahə üzrə ekspertlərdən ibarət tərkibdə "Psixi sağlamlıq və insan hüquqları" sahəsində İşçi Qrupu da yaradılmışdır.

Ombudsman Aparatı tərəfindən Bakı şəhərindəki 189-190 saylı tam orta məktəblərdə "Mənim hüquq və vəzifələrim" mövzusunda keçirilmiş maarifləndirici görüşdə uşaq hüquqlarının qorunmasında Ombudsmanın rolu, zorakılığın və ayrı-seçkiliyin bütün formalarından uşaqların müdafiəsi, həmçinin erkən evlilik, internet təhlükəsizliyi, uşaq əməyi, bullinq və digər məsələlər barədə məlumat verilmişdir.

Müvafiq sahədə bilik və bacarıqların artırılması məqsədilə bir sıra dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının və beynəlxalq qurumların nümayəndələrinin, habelə yerli və beynəlxalq ekspertlərin iştirakı ilə "Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi" mövzusunda keçirilmiş seminarda Ombudsmanın Milli Preventiv Mexanizm mandatı çərçivəsində həyata keçirilən fəaliyyət, eləcə də yerli və beynəlxalq təcrübə, ölkə təcrübəsində bu sahədə əldə olunan yeniliklər barədə təqdimatlar edilmişdir.

Ombudsmanın regional mərkəzləri tərəfindən uşaqların, əlilliyi olan şəxslərin, miqrantların, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanılanların, habelə əhalinin digər sosial cəhətdən həssas qruplarının hüquqlarının müdafiəsi, erkən evlilik, zorakılıq, narkomaniya, korrupsiya hallarına qarşı mübarizə, ekoloji hüquqların qorunması, psixi sağlamlıq və insan hüquqları, tolerantlıq və multikulturalizm kimi əhəmiyyətli mövzular üzrə də maarifləndirici tədbirlər təşkil olunmuşdur.

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Gəncə şəhərində yerləşən 2 saylı İstintaq Təcridxanasında Ombudsmanın Qərb Regional Mərkəzi tərəfindən "Ombudsmanın Milli Preventiv Mexanizm mandatı işgəncələrin qarşısının alınmasında mühüm vasitə kimi" mövzusunda keçirilmiş hüquqi maarifləndirmə tədbirində iştirakçılar Ombudsmanın bu sahədə mandatı, həbs yerlərində saxlanılan şəxslərin, o cümlədən qadınların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirdiyi fəaliyyəti barədə məlumatlandırılmışlar.

2024-cü il ərzində 20 Yanvar faciəsinin 34-cü ildönümü, Xocalı soyqırımının 32-ci

il dönümü, Azərbaycanlıların Soyqırımının 106-cı ildönümü, o cümlədən 27 Sentyabr – Anım Günü ilə əlaqədar Ombudsman Aparatı və Ombudsmanın regional mərkəzləri tərəfindən anım tədbirləri, 28 May – Müstəqillik Günü, 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü, Ulu Öndərin anadan olmasının 101-ci ildönümü ilə bağlı insan hüquqlarını təbliğ edən mövzular üzrə silsilə maarifləndirmə tədbirləri keçirilmişdir.

Ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Bakı Dövlət Universitetinin (BDU), Azərbaycan Dillər Universitetinin, Qərbi Kaspi Universitetinin, Bakı Avrasiya Universitetinin, Xəzər Universitetinin müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrindən, habelə BDU-nun Hüquq fakültəsinin "İnsan hüquqları" və "Tibbi hüquq" ixtisaslaşmaları üzrə magistrantlarından ibarət olmaqla təsisatda 88 tələbə və magistrant istehsalat və elmi-tədqiqat təcrübəsi keçmişdir.

Ombudsman 2024-cü ildə BDU-nun Hüquq fakültəsində "İnsan hüquqları" ixtisaslaşması üzrə magistrlik dissertasiyalarının müdafiəsi üçün yaradılmış ixtisaslaşdırılmış Elmi Şuraya sədrlik etmiş, dissertasiya müdafiələri zamanı magistrantların mövzu ilə bağlı nəzəri və praktiki bilikləri qiymətləndirilmişdir.

Gənclərin potensialından daha səmərəli istifadə etmək, peşə vərdişlərini inkişaf etdirmək və təcrübi biliklərini artırmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək məqsədilə Ombudsman Aparatında insan hüquq və azadlıqlarının müdafiəsi üzrə könüllülük proqramı 2024-cü ildə də davam etdirilmiş, yerli və xarici ali təhsil müəssisələrinin tələbə və məzunları bu proqramdan faydalanmışlar. "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, könüllü kimi müqavilə öhdəliklərini uğurla başa vuran gənclərə yekunda Ombudsman tərəfindən sertifikatlar təqdim olunmuşdur.

Onu da qeyd etmək lazımdır ki, könüllü kimi fəaliyyət göstərən gənclər içərisində məzunlar fərqləndirilmiş, karyera inkişafına dəstək istiqamətində onlar müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıqda keçirilən təlimlərə göndərilmişlər. Belə ki, 2024-cü ildə Ombudsman Aparatının 18 könüllüsü Avropa İttifaqı və Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı III (PGG III) "Azərbaycanda bərabərliyin təşviqi" layihəsi çərçivəsində "Bərabərliyin təşviqi və ayrı-seçkiliyin qarşısının alınması" mövzusunda silsilə təlimlərdə, Ombudsman Aparatının, Dövlət Miqrasiya Xidmətinin və UNICEF-in birgə təşkilatçılığı ilə miqrasiya kontekstində uşaqların hüquqlarının müdafiəsinə həsr edilmiş təlimdə, Ombudsman Aparatı və BMT-nin İnkişaf Proqramının ölkəmizdəki nümayəndəliyinin birgə əməkdaşlığı ilə keçirilmiş "İqlim dəyişikliyi və insan hüquqları: Gənc baxış" mövzusunda seminarda iştirak etmiş və sertifikatla mükafatlandırılmışlar.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planına uyğun olaraq, Ombudsman Aparatında könüllü fəaliyyətə cəlb olunmuş gənclərin iştirakı ilə keçirilmiş maarifləndirmə tədbirində iştirakçılara istifadə olunmuş kağızların təkrar emal müəssisələrinə təhvil verilməsi və elektrik enerjisindən qənaətlə istifadənin əhəmiyyəti, həmçinin bu sahədə qanunvericilikdən irəli gələn vəzifələr barədə ətraflı məlumat verilmiş, eyni zamanda gənclərin ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə məsələləri ilə bağlı fikirləri dinlənilmiş və onların sualları cavablandırılmışdır.

Ombudsmanın fəaliyyətində dövlətdaxili tədbirlərlə yanaşı, beynəlxalq səviyyəli maarifləndirmə tədbirlərinin təşkili də mühüm rol oynayır, çünki bu, insan hüquqları sahəsində ölkənin beynəlxalq imicini möhkəmləndirir, hüquqi bilik və təcrübə mübadiləsi üçün zəmin yaradır və müxtəlif ölkələrlə insan hüquqları sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafına təkan verir.

Bu baxımdan 2024-cü ildə ölkəmizin COP29-a ev sahibliyi etməsi ilə əlaqədar Ombudsmanın təşəbbüsü ilə "İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Bakı Beynəlxalq Forumunun, habelə

“İnsan hüquqlarına əsaslanan iqlim ədaləti: milli insan hüquqları institutlarının rolu” mövzusunda interaktiv müzakirənin keçirilməsi ekoloji insan hüquqlarının təşviqi və bu sahədə məlumatlılıq səviyyəsinin yüksəldilməsinə mühüm töhfə vermişdir.

Ombudsmanın təşəbbüsü və Asiya Ombudsman Assosiasiyasının (AOA) təşkilatçılığı ilə “Biznes və İnsan Hüquqları” mövzusunda keçirilmiş onlayn maarifləndirmə tədbirində Pakistan, İndoneziya, Türkiyə, Malayziya, Tailand, Tatarıstan və digər ölkələrin ombudsman və milli insan hüquqları institutlarının nümayəndələri, İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının üzvləri, dövlət qurumlarının və transmilli şirkətlərin nümayəndələri iştirak etmişdir.

Asiya regionunda fəaliyyət göstərən ombudsman və milli insan hüquqları institutları üçün təşkil olunmuş həmin tədbirdə Ombudsman Aparatı tərəfindən beynəlxalq ekspertlərin rəy və təklifləri nəzərə alınmaqla hazırlanmış, eyni zamanda ölkəmizdə bu sahənin inkişafına təkan verən təklifləri də ehtiva edən “Biznes və İnsan Hüquqları” üzrə milli qiymətləndirmə sənədi barədə geniş məlumat təqdim olunmuşdur. BMT-nin İnkişaf Proqramının ölkəmizdəki nümayəndəliyinin dəstəyi ilə dəvət olunmuş beynəlxalq ekspert tərəfindən BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri barədə təqdimat edilmiş, həmçinin ombudsmanların və milli insan hüquqları institutlarının bu sahədəki rolunun gücləndirilməsi istiqamətində geniş müzakirələr aparılmışdır.

Ombudsmanın təşəbbüsü ilə 2002-2024-cü illər ərzində Azərbaycan, Ukrayna, rus, ingilis, fransız dillərində 259 adda maarifləndirici vəsait (kitab, buklet, liflet, disklər və s.) hazırlanaraq nəşr etdirilmiş və Ombudsman Aparatının İnsan Hüquqları Kitabxanası tərəfindən dövlət qurumlarına, kitabxanalara, qonaqlara, təhsil, sosial xidmət, cəzaçəkmə və tərbiyə müəssisələrinə təqdim olunmaqla, geniş oxucu kütləsi arasında yayılmışdır. Bununla yanaşı, Ombudsman və Aparatın əməkdaşları tərəfindən həm yerli, həm də beynəlxalq tədbirlər, xarici ölkələrə səfərlər zamanı tədbir və görüş iştirakçılarına müvafiq çap vəsaitləri təqdim edilmişdir.

Mədəniyyət Nazirliyi tərəfindən Bakı Ekspo Mərkəzində təşkil edilmiş 10-cu Bakı Beynəlxalq Kitab Sərgisində Ombudsman Aparatının nəşrləri sərgilənmişdir. Sərgidə uşaqların, əlilliyi olan şəxslərin, məhkumların, miqrantların hüquqlarının müdafiəsi, məişət zorakılığının qarşısının alınması, biznes və insan hüquqları, informasiya əldə etmək hüququ və digər mövzularda təsisat tərəfindən hazırlanmış maarifləndirici vəsaitlər yer almışdır. Eyni zamanda, Ombudsman tərəfindən İkinci Qarabağ müharibəsi və postmüharibə dövründə həyata keçirilmiş faktaraşdırıcı missiyaların nəticələrinə əsaslanan, eləcə də Azərbaycan torpaqlarının otuzillik işğalı dövründə Ermənistan tərəfindən törədilmiş insan hüquqları pozuntularına, nifrət cinayətlərinə dair hesabatlar da sərgidə nümayiş edilmişdir.

Ombudsman Aparatının İnsan Hüquqları Kitabxanasında əlamətdar və tarixi günlər təqviminə uyğun olaraq “20 Yanvar”, “Xocalı faciəsi”, “31 Mart - Azərbaycanlıların Soyqırımı Günü”, o cümlədən “Ombudsman Aparatının nəşrləri” və “Yeni nəşrlər”, “18 İyun - Milli İnsan Hüquqları Günü” başlıqlı sərgilərin, habelə “İqlim dəyişikliyi və İnsan Hüquqları: Ombudsman və Milli İnsan Hüquqları İnstitutlarının rolu” mövzusunda Beynəlxalq Bakı Forumu çərçivəsində “Yaşıl kitabxana”, “Ombudsman Aparatının nəşrləri”, “Azərbaycan tarixi və mədəniyyəti”, “Yurdumun təbiəti” başlıqlı sərgilərin təşkil edilməsi də insan hüquqlarının təbliği işinə öz töhfəsini vermişdir.

***Elmi-analitik fəaliyyət.*** İnsan hüquq və azadlıqlarının müdafiəsi və təmini sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların icrası prosesinin, həmçinin beynəlxalq sənədlərin təhlili, beynəlxalq təcrübənin öyrənilməsi və milli səviyyədə tətbiqi, vətəndaşlardan daxil olan şikayət və müraciətlər əsasında aşkarlanan hüquq pozuntularının aradan qaldırılması və bunların təkrarlanmasının qarşısının alınmasına dair rəy və təkliflərin hazırlanması və təqdim olunması Ombudsmanın prioritet fəaliyyət istiqamətlərindən biri olmuşdur.

İl ərzində Ombudsmana baxılması üçün təqdim edilmiş “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Konstitusiya Qanunu layihəsinə, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının yeni qanun layihəsinə, “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihələrinə, habelə “Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı layihəsinə, habelə digər normativ hüquqi akt layihələrinə dair rəy və təkliflər hazırlanmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş “Özünüməşğulluğun təşkili Qaydası”na dəyişikliklərin edilməsi ilə bağlı müvafiq təkliflər hazırlanmış və nəzərə alınmışdır.

“Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2025–2029-cu illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə Tədbirlər Planı layihəsinə, “Azərbaycan Respublikasında Gender Bərabərliyi üzrə 2025-2027-ci illər üçün Milli Fəaliyyət Planı”nın layihəsinə dair təkliflər hazırlanmış və həmin layihələrdə nəzərə alınmışdır.

Qeyd olunanlarla yanaşı, “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli Konstitusiya Qanununun tələblərindən irəli gələrək, Azərbaycan Respublikası Nazirlər Kabinetinin bir sıra normativ hüquqi aktlarına, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına və normativ xarakterli aktlara dəyişikliklər edilməsinə dair rəy və təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Ombudsmanın qanunvericiliyin təkmilləşdirilməsi sahəsində fəaliyyətinin effektivliyinin əhəmiyyətli dərəcədə artırılması, yeni normativ hüquqi akt layihələrinin vaxt itkisinə yol verilmədən, operativ qaydada qanunvericilik orqanına təqdim edilməsi, bununla da hüquq və azadlıqların daha səmərəli müdafiəsinə nail olunması məqsədilə xarici ölkələrin müsbət təcrübəsi də nəzərə alınmaqla Ombudsmanın “qanunvericilik təşəbbüsü hüququ”nun təsbit olunması təklif olunur.

Ombudsmanın Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə əməkdaşlığı insan hüquq və azadlıqlarının müdafiəsi üzrə dövlətin ali məqsədinin həyata keçirilməsində xüsusi önəm daşıyır. Belə ki, bu əməkdaşlıq Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsi, qanunvericiliyin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması və hüquqi müdafiə mexanizmlərinin effektivliyinin artırılması məqsədlərinə xidmət edir.

Ombudsmanın Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə, Konstitusiya Qanununun 13.2.8-ci, habelə “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə ünvanladığı sorğular əsasında qərar və qərardadlar qəbul edilmişdir:

“Azərbaycan Respublikası Əmək Məcəlləsinin 47-ci maddəsinin “f” bəndinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə və 35-ci maddəsinin I-IV və VIII hissələrinə uyğunluğunun yoxlanılmasına dair” Ombudsmanın Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə təqdim olunan sorğusunda qeyd edilmişdir ki, Əmək Məcəlləsinin 47-ci maddəsinin “f” bəndinin müddəaları işçinin mənafeyinə xidmət etmir, həmin normaya əsasən əmək müqaviləsi bağlanarkən yalnız işəgötürənin iradə ifadəsinin və şərtlərinin əsas götürülməsi müqavilə üzrə tərəflərin bərabərlik hüququnun pozulması ilə nəticələnir.

Həmin sorğuda qeyd olunan məsələ araşdırılmış və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu tərəfindən 2024-cü il 31 yanvar tarixində Qərar qəbul edilmişdir. Həmin Qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilmişdir ki, əmək qanunvericiliyinə əsasən, əmək funksiyasının yerinə yetirilməsi şərtlərinə görə işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda, Əmək Məcəlləsinin 47-ci maddəsi ilə müəyyən edilən hallar istisna olmaqla, əmək müqaviləsi müddəti müəyyən edilmədən bağlanmalıdır.

"Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli, 833 IIIQ nömrəli Qanununun 36-2.3-cü və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın 1.4-cü maddələrinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 79-cu maddəsinə (Əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilər və hallar), Azərbaycan Respublikasının Konstitusiyasının 35-ci (Əmək hüququ), 149-cu maddəsinin (Normativ hüquqi aktlar) I, III, V və VII hissələrinə uyğunluğunun yoxlanılmasına dair Ombudsmanın Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə təqdim olunan sorğusunda qeyd edilmişdir ki, Əmək Məcəlləsinin 79-cu maddəsinə əsasən, müəyyən kateqoriyalı işçilərin əmək müqaviləsinin ləğv edilməsi qadağan olsa da (məsələn, 18 yaşına qədər əlilliyi olan ailə üzvlərinə baxanlar, şəkərli diabet və ya dağınıq skleroz xəstələri), bu şəxslər "Təhsil haqqında" Qanunda və Sertifikatlaşdırma Qaydalarında nəzərə alınmamışdır. Bu da, nəticədə əmək hüquqlarının pozulmasına səbəb ola bilər.

Konstitusiya Məhkəməsi 6 noyabr 2024-cü il tarixli Qərarında Ombudsmanın sorğusunu əsaslı hesab edərək qeyd etmişdir ki, sertifikatlaşdırmadan keçməyən təhsilverənlərin əmək müqaviləsinin ləğvi Əmək Məcəlləsinin 70-ci maddəsinə uyğun olsa da, bu zaman 79-cu maddədə nəzərdə tutulan məhdudiyyətlər mütləq nəzərə alınmalıdır və mövcud hüquqi uyğunsuzluqların aradan qaldırılması üçün ədalətli tənzimləmə təmin edilməlidir.

Ombudsmanın fəaliyyəti dövründə ümumilikdə Konstitusiya Məhkəməsinə ünvanlanmış 45 sorğudan 32 sorğu üzrə məhkəmənin plenumu tərəfindən müvafiq olaraq 25 qərar və 7 qərardad, palata tərəfindən isə 13 qərardad qəbul edilmişdir.

Həmin qərar və qərardadlar istər nəzəri, istərsə də praktiki əhəmiyyət kəsb etməklə, qanunvericiliklə təsbit olunmuş əsas insan və vətəndaş hüquq və azadlıqlarının vahid qaydada düzgün anlaşılması və tətbiqi baxımından önəmlidir.

Ombudsmanın insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə səmərəli əməkdaşlığından irəli gələrək, habelə bu sahədə İspaniya, Portuqaliya, Rumıniya, Qazaxıstan, Özbəkistanın və digər ölkələrin təcrübəsi nəzərə alınaraq, Ombudsmanın Konstitusiya Məhkəməsi ilə qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi, habelə insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun qanunvericiliklə təsbit edilməsi məqsədəmüvafiqdir.

İl ərzində Ombudsmana ünvanlanan ayrı-seçkiliklə bağlı şikayət və müraciətlər təhlil edilmiş, hüquq pozuntularının təkrarlanmasının qarşısının alınması ilə bağlı təkliflər təqdim olunmuşdur. Ayrı-seçkiliyin qarşısının alınması və hüquq bərabərliyinin təmin olunması istiqamətində beynəlxalq təcrübə təhlil edilmiş və beynəlxalq hüquqi normalar da nəzərə alınaraq "Ayrı-seçkiliyin qarşısının alınması haqqında" Qanun layihəsi hazırlanmışdır.

2024-cü ildə Ombudsmanın insan hüquqlarının müxtəlif aspektlərinə dair elmi-analitik təhlillər əsasında hazırlanmış məqalələri dərc edilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyev və insan hüquqları" başlıqlı məqalədə Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilmiş insan hüquqlarının müdafiəsinə zəmanət verən əsas qanunvericilik və institusional islahatlara dair məlumatlar yer almışdır. Məqalədə insan hüquqlarının, xüsusilə də yaşamaq hüququnun qorunması və cəza siyasətinin humanistləşdirilməsi istiqamətində atılmış mühüm addımlardan, ölüm cəzasının tətbiqinə moratorium qoyulması və onun tamamilə ləğvi, habelə əfv və amnistiya aktlarının qəbul edilməsi kimi məsələlərdən bəhs olunmuşdur.

20 Noyabr - Ümumdünya Uşaqlar Gününə həsr edilmiş "Uşaq hüquqlarının təmin edilməsi Ombudsmanın əsas fəaliyyət istiqamətlərindən biridir" adlı məqalədə isə uşaq hüquqlarının təsbit edildiyi beynəlxalq hüquqi sənədlər, ölkəmizdə uşaq hüquqlarının müdafiəsi və təmini istiqamətində aparılmış islahatlar, Ombudsmana "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi səlahiyyətinin verilməsi və bu kimi digər məsələlər öz əksini tapmışdır.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, dünyanın ən böyük tədbirlərindən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası öncəsi keçirilən tədbirlər planı çərçivəsində Ombudsmanların Beynəlxalq Bakı Forumunun konsepsiya sənədi hazırlanmış və həmin sənəd əsasında tədbirin proqramı tərtib olunmuşdur. Bundan əlavə, iqlim dəyişikliyinin qarşısının alınmasında insan hüquqlarının müdafiəsi istiqamətində bir sıra təşəbbüsləri ehtiva edən və Forum iştirakçıları tərəfindən qəbul edilmiş Ombudsmanların Beynəlxalq Bakı Forumunun Bəyannaməsi hazırlanmışdır.

Bəyannamə iqlim dəyişikliyinin insan hüquqlarına təsirini azaltmaq, sağlam ətraf mühit hüququnu təşviq etmək, beynəlxalq əməkdaşlığı gücləndirmək, qabaqcıl təcrübələri öyrənmək və tətbiq etmək, həmçinin ekosid cinayətlərinə qarşı mübarizə məqsədilə birgə fəaliyyət göstərməyi hədəfləyir.

2024-cü ildə gənc araşdırmaçılar arasında iqlim dəyişikliyi və insan hüquqları sahəsinə marağın artırılması məqsədilə Ombudsmanın təşəbbüsü və BMT-nin İnkişaf Proqramının dəstəyi ilə "Hakaton" formatında universitet tələbələri arasında "İqlim dəyişikliyi və insan hüquqları" mövzusunda araşdırma-yazı müsabiqəsi elan olunmuşdur. Hazırlanan konsepsiya sənədinə əsasən "İqlim dəyişikliyi və insan hüquqlarına gənclərin baxışı" şüarı altında baş tutmuş həmin müsabiqədə ölkəmizin müxtəlif universitetlərindən 6 komandadan ibarət 30 tələbə iştirak etmişdir. Araşdırmalarda iqlim dəyişikliyi səbəbindən məcburi yerdəyişmə, sağlamlığa təsirlər, həssas əhali qruplarına və gender bərabərliyinə təsirlər, korporativ məsuliyyət, siyasət və idarəetmə kimi mövzulara toxunulmuşdur.

Ombudsmanın 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Gününə həsr edilmiş "Qlobal iqlim dəyişmələri və insan hüquqları perspektivindən yeni çağırışlar, onların həlli yolları" adlı məqaləsində Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əhəmiyyətinə toxunulmuş, eyni zamanda ekoloji hüquqlar, son dövrlərdə baş verən təbiət hadisələrinin, iqlim dəyişmələrinin insan hüquqlarına təsirləri təhlil edilmişdir.

Azərbaycan Respublikasının insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilələrə qoşulması ilə bağlı tədbirlərin tərkib hissəsi kimi, Ombudsman aşağıdakı beynəlxalq müqavilələrin ratifikasiya edilməsini bir daha təklif edir:

- "Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə" Beynəlxalq Konvensiya (BMT-nin Baş Assambleyasının 61-ci sessiyası çərçivəsində qəbul edilmiş və 2007-ci il 6 fevral tarixdən üzv dövlətlər üçün imzalanmaq, ratifikasiya və qoşulmaq üçün açıq elan edilmişdir. Ölkəmiz tərəfindən 6 fevral 2007-ci il tarixində imzalanmış, lakin ratifikasiya edilməmişdir.)
- Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 2-ci (ədalətli əmək şəraiti hüququ), 3-cü (təhlükəsiz və sağlam əmək şəraiti hüququ), 10-cu (peşə hazırlığı hüququ), 13-cü (sosial

və tibbi yardım hüququ), 23-cü (ahıl yaşlı şəxslərin sosial müdafiə hüququ), 15-ci (əlil şəxslərin müstəqillik, sosial inteqrasiya və cəmiyyətin həyatında iştirak etmək hüququ), 30-cu (yoxsulluq və sosial təcridolunmadan müdafiə hüququ), 31-ci (yaşamaq yeri hüququ) ilə bağlı maddələri;

- "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın Fakültativ Protokolu (2008-ci il 10 dekabr tarixində BMT Baş Məclisinin 63/117 saylı Qətnaməsi ilə qəbul olunmuş və 2009-cu il 24 sentyabr tarixində ölkəmiz tərəfindən imzalanmışdır).

***İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq***. İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişafı məqsədilə Ombudsmanın fəaliyyəti 2024-cü ildə də uğurla davam etdirilmiş və bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bu əməkdaşlıq əhalinin hüquqi biliklərinin artırılması, hüquqi yardıma çıxış imkanlarının genişləndirilməsi, ictimai iştirakçılığın təmin edilməsi, insan hüquqlarına hörmətin təşviqi və fikir mübadiləsinin aparılması baxımından böyük əhəmiyyət kəsb etmişdir.

Qanunçuluq, könüllülük, şəffaflıq, plüralizm, bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi kimi ictimai iştirakçılıq prinsiplərinə əsaslanan tədbirlərin keçirilməsi, əhalinin hüquqi biliklərinin artırılması sahəsində mühüm addımların atılmasına şərait yaratmışdır.

Vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə təşkil edilən insan hüquqları sahəsində müxtəlif təlimlər, seminarlar və ictimai müzakirələr hüquq mədəniyyətinin inkişafı baxımından əhəmiyyətli olmuşdur.

Ombudsmanın təşəbbüsü əsasında vətəndaş cəmiyyəti institutlarının da iştirakı ilə təşkil edilmiş müzakirə mövzuları arasında əlilliyi olan qadın və qızların ictimai xidmətlərə çıxışının təkmilləşdirilməsi, erkən evlilik hallarının qarşısının alınması, sağlamlıq məsələləri, psixi pozuntulardan əziyyət çəkən şəxslərin hüquqlarının müdafiəsi və iqlim dəyişikliyi kontekstində insan hüquqları kimi əhəmiyyətli sahələr yer almışdır. Ombudsman həmin məsələlər üzrə vətəndaş cəmiyyəti institutları ilə birgə müxtəlif tədbirlər keçirərək, geniş müzakirələr aparmış və bu sahələrdə mövcud problemləri həll etmək üçün yeni yanaşmalar və təkliflər irəli sürmüşdür.

Əlilliyi olan şəxsləri təmsil edən 40-dan çox qeyri-hökumət təşkilatını öz ətrafında birləşdirən Əlilliyi olan Şəxslərin Təşkilatları İttifaqı, habelə Azərbaycan Ağsaqqallar Şurası, "Əlilliyi Olan Qadınlar Cəmiyyəti" İctimai Birliyi, "Konstitusiya" Araşdırmalar Fondu, "Müasir Azərbaycan Psixoloqları" İctimai Birliyi, "Psixoloji Xidmət və Tədqiqatlar Mərkəzi" İctimai Birliyi, "Psixoloji İnkişaf və Maarifləndirməyə Dəstək" İctimai Birliyi, "Gənc Psixoloqlar" İctimai Birliyi, "Birgə və Sağlam" İctimai Birliyi, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi, "Femida Könüllüləri" Təşkilatı, "İnklüziv Cəmiyyət Naminə" Əlilliyi Olan Şəxslərə Dəstək İctimai Birliyi, "Ahıllara və Tənhalara Dəstək" İctimai Birliyi, Gənclərin Gender Bərabərliyi Mərkəzi "Gender Hub" İctimai Birliyi, "Əlilliyi Olan Şəxslərin Müstəqil Həyat Mərkəzi" İctimai Birliyi, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi, "Ümidli Gələcək Sosial Təşəbbüslər" İctimai Birliyi və digər müvafiq təşkilatlarla əməkdaşlıq edilmişdir.

Aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə birgə müvafiq sahələrdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri də Ombudsman təsisatı tərəfindən təşkil edilmiş tədbirlərdə fəal iştirak etmiş, müzakirələrə qoşulmuş və əhalinin müxtəlif qruplarının sosial-hüquqi müdafiəsi məsələlərinə dair öz təkliflərini irəli sürmüşlər.

Ombudsmanın təşəbbüsü ilə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi məsələlərinin müzakirəsində Azərbaycan Milli QHT Forumu, Əlilliyi olan Şəxslərin Təşkilatları İttifaqı və digər vətəndaş cəmiyyəti institutları da iştirak etmişlər.

"Ətraf mühitin qorunması və insan hüquqları" şüarı altında Ombudsman və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə keçirilmiş "Yaşıl dünya

naminə həmrəylik ili"nə həsr olunan sahilyanı təmizlik aksiyası, ətraf mühitin qorunması və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində mühüm bir addım olmuşdur.

Bu aksiyanın əsas məqsədi yalnız sahilyanı ərazilərin məişət tullantılarından təmizlənməsi deyil, eyni zamanda Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunun artırılmasını təşviq etmək olmuşdur.

Aksiya zamanı toplanan tullantılar Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna təhvil verilmişdir. Bu da həm təbiətə zərərin azaldılmasına, həm də tullantıların düzgün idarə olunmasına xidmət etmişdir.

Ətraf mühitin qorunması sahəsində ictimai maarifləndirmə və fəallıq səviyyəsinin artırılmasına hədəflənmiş bu aksiyanın təşkili, eyni zamanda, cəmiyyətdə ekoloji məsələlərə ciddi yanaşma və məsuliyyətli davranış formalaşdırmağa xidmət etmişdir.

Ombudsmanın təşəbbüsü ilə keçirilən "İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Bakı Beynəlxalq Forumuna vətəndaş cəmiyyəti institutlarının nümayəndələri də fəal şəkildə qatılaraq, sessiyalarda məruzəçi qismində çıxış etmişlər.

COP29 çərçivəsində Ombudsman Aparatı tərəfindən "İnsan hüquqlarına əsaslanan iqlim ədaləti: milli insan hüquqları institutlarının rolu" mövzusunda təşkil edilmiş interaktiv müzakirədə vətəndaş cəmiyyəti institutlarından "Əlilliyi Olan Şəxslərin Müstəqil Həyat Mərkəzi" İctimai Birliyinin, Əlilliyi olan Şəxslərin Təşkilatları İttifaqının, "EkoSfera" Ekoloji-Sosial Mərkəzi İctimai Birliyinin, UNEC İnklüziv Təhsil Mərkəzinin, "İnklüziv Cəmiyyət Naminə" Əlilliyi Olan Şəxslərə Dəstək İctimai Birliyinin, "Qadın, İnkişaf, Gələcək" İctimai Birliyinin, "Ümidli Gələcək Sosial Təşəbbüslər" İctimai Birliyinin, "Ahıllara və Tənhalara Dəstək" İctimai Birliyinin nümayəndələri iştirak etmişlər.

Vətəndaş cəmiyyəti institutlarının nümayəndələri üçün əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi barədə məlumatlılığın artırılması məqsədilə təşkil olunan seminarda Əlilliyi olan Şəxslərin Təşkilatları İttifaqının, Pasient Təşkilatları İttifaqının, "İnklüziv Cəmiyyət Naminə" Əlilliyi olan Şəxslərə Dəstək İctimai Birliyinin, "Əlilliyi olan şəxslərin Müstəqil həyat Mərkəzi" İctimai Birliyinin, "Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası" İctimai Birliyinin, "Əlilliyə Erkən Yardım Portec Şəbəkəsi" İctimai Birliyinin, "ÜMMAN" Əlilliyi olan Uşaqlara Qayğı İctimai Birliyinin, "Ümidli Gələcək Sosial Təşəbbüslər" İctimai Birliyinin, "Ahıllara və Tənhalara Dəstək" İctimai Birliyinin, "Əlilliyi olan Qadınlar Cəmiyyəti" İctimai Birliyinin, "Mələk" Yardıma Ehtiyacı olan Uşaqlara Dəstək İctimai Birliyinin nümayəndələri iştirak etmişlər.

Seminar iştirakçılarına "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması ilə bağlı müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi barədə Ombudsmana verilmiş yeni səlahiyyətlər haqqında məlumat verilmişdir. Eyni zamanda, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilən dəyişikliklərə əsasən Ombudsman Aparatında "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Uşaq hüquqları haqqında" konvensiyaların həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması üzrə monitorinq qruplarının yaradıldığı, habelə həmin sahələr üzrə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın zəruriliyi diqqətə çatdırılmışdır.

***Media ilə əməkdaşlıq.*** Media ilə əlaqələrinin daha sıx və səmərəli təşkili məqsədilə Ombudsmanın təsdiq etdiyi 2024-2026-cı illər üzrə Kommunikasiya Strategiyasına uyğun olaraq, ənənəvi, eləcə də sosial media üzərindən beynəlxalq və yerli media ilə əməkdaşlıq daha da genişləndirilmişdir.

Ombudsmanın çoxşaxəli fəaliyyəti təsisatın rəsmi internet səhifəsində, sosial şəbəkə hesablarında ("Facebook", "X", "Instagram", "Youtube", "Telegram", "Whatsapp"),

həmçinin radio və televiziyada, habelə yerli və xarici informasiya agentliklərində, dövri mətbu nəşrlərdə mütəmadi olaraq işıqlandırılmışdır.

Ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi üzrə həyata keçirilmiş tədbirlər və Ombudsmanın bu sahədə fəaliyyəti barədə beynəlxalq səviyyədə məlumatlılığın artırılması məqsədilə hazırlanmış məlumatlar “BBC”, “CNN”, “Anadolu Ajansı”, “TASS” və digər xəbər agentlikləri və media qurumları vasitəsilə ictimaiyyətin diqqətinə çatdırılmışdır. Ümumilikdə, müvafiq sahə üzrə 203 adda məlumat beynəlxalq mediada işıqlandırılmışdır.

İl ərzində insan hüquqları ilə əlaqədar mediada yayımlanan xəbərlərin monitorinqi həyata keçirilmiş və aşkarlanan hüquq pozuntuları ilə bağlı Ombudsmanın səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görülmüşdür. İnsan hüquq və azadlıqlarının pozulması halları ilə bağlı, həmçinin ölkəmizə qarşı qərəzli yanaşmalar nümayiş etdirən, dini, etnik və milli zəmində nifrəti aşılayan çıxış, bəyanat və yazılara qarşı Ombudsman tərəfindən verilmiş reaksiya və bəyanatlar Azərbaycan və ingilis dillərində yayımlanmışdır.

Bununla yanaşı, 44 günlük Vətən müharibəsindən başlayaraq, Ermənistan tərəfindən beynəlxalq hüquq normalarının, o cümlədən insan hüquqlarının pozulması ilə nəticələnən təxribatlara yol verilməsi ilə bağlı faktların dünya ictimaiyyətinə çatdırılması da Ombudsmanın fəaliyyətinin əsas hissəsini təşkil etmişdir. Belə ki, postmüharibə dövründə regionda dayanıqlı sülhün təmini məsələsinin zəruriliyi barədə dəfələrlə çağırışlar edilmiş, Ermənistanın həyata keçirdiyi mina terrorunun nəticələri, işğaldan azad olunmuş torpaqlarımızda kütləvi məzarlıqların aşkar edilməsi barədə müraciət və açıqlamalar beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmış, bu barədə məlumatların geniş şəkildə yayımlanması, eləcə də Ombudsmanın sosial şəbəkə hesabları vasitəsilə dərhal reaksiya verilməsi təmin olunmuşdur.

Ombudsman, eyni zamanda sosial şəbəkə hesabları üzərindən daxil olmuş 370 məlumatla bağlı müvafiq tədbirlər görmüşdür.

İl ərzində Ombudsmanın fəaliyyəti ilə bağlı Azərbaycan və ingilis dillərində 268 mətbuat açıqlaması yayımlanmışdır.

Qlobal əhəmiyyətli hadisə və xüsusi günlərlə bağlı ictimaiyyətdə məlumatlılığı artırmaq məqsədilə təsisatın sosial media hesablarında posterlər yayımlanmışdır. Ombudsman həmçinin fəaliyyəti ilə bağlı ölkəmizdə və xaricdə fəaliyyət göstərən televiziya kanallarına müsahibələr vermişdir.

Eyni zamanda, 20 Yanvar faciəsi, Xocalı soyqırımı və 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü, habelə insan hüquqlarına dair tematik mövzularda Ombudsmanın bəyanat, reaksiya, münasibət, çağırışlarının, eləcə də təşviqat və təbliğat xarakterli materialların radio və televiziya kanallarında, yerli və xarici elektron və çap mediada yayımlanması təmin edilmiş, həmin sənədlər beynəlxalq təşkilatlara, müxtəlif ölkələrin ombudsman və milli insan hüquqları institutlarına göndərilmişdir.

Bununla yanaşı, Ombudsmanın “Ümummilli Lider Heydər Əliyev və insan hüquqları”, “Uşaq hüquqlarının təmin edilməsi Ombudsmanın əsas fəaliyyət istiqamətlərindən biridir” və “Qlobal iqlim dəyişmələri və insan hüquqları perspektivindən yeni çağırışlar, onların həlli yolları” adlı genişməzmunlu məqalələri “Respublika” qəzetində dərc edilmişdir. Eləcə də “Vətən Müharibəsi Tarixi. Azərbaycanın Ərazi Bütövlüyünün Bərpası. Şəxsiyyət Faktoru” kitabında Ombudsmanın “Ermənistanın müharibə cinayətlərinin ifşası” adlı məqaləsi yer almışdır.

Ombudsman “Qarabağın dirçəlişi: faciədən zəfərə (Azərbaycan intibahının hekayəsi)” adlı kitab üçün “Media Prima Advertising” şirkətinin rəhbəri Qrem Vilsona müsahibə vermiş və bu barədə xəbərlər yerli və xarici mediada geniş yayımlanmışdır.

Eyni zamanda, Ombudsman tərəfindən “İqlim dəyişikliyi və insan hüquqları” mövzusunda jurnalist yazı müsabiqəsi elan olunmuşdur. Həmin müsabiqənin qalibləri Ombudsman Aparatının təşkilatçılığı ilə 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş tədbirdə mükafatlandırılmışlar.

2024-cü ildə Ombudsman təsisatı barədə həm yerli, həm də xarici mediada ümumilikdə 5412 məlumat yayımlanmışdır.

Ombudsmanın sosial şəbəkə hesablarında, o cümlədən “Facebook” səhifəsində 432, “Instagram” səhifəsində 390, “X” səhifəsində 228, “Youtube” səhifəsində 22, “Teleqram” səhifəsində 380, “Whatsapp” səhifəsində isə 380 paylaşım edilmişdir.

## TƏKLİF VƏ TÖVSİYƏLƏR

Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin və əldə edilmiş məlumatların təhlili, habelə monitorinq və müşahidələr nəticəsində insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli təmin olunması, insan hüquq pozuntularının qarşısının alınması, qanunvericiliyin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələr hazırlanmışdır. Əsas məqsəd insan hüquqlarının müdafiəsi sahəsində qarşıya çıxan çətinliklərin aradan qaldırılması, qanunvericiliyin və icra mexanizmlərinin təkmilləşdirilməsi, həmçinin dövlət qurumları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın daha da genişləndirilməsindən ibarətdir. Təqdim olunan təklif və tövsiyələr insan hüquq və azadlıqlarının təmin olunmasına dair dövlətin ali məqsədinə xidmət etməklə, bu sahədə beynəlxalq norma və prinsiplərə uyğun islahatların reallaşdırılmasına töhfə verməyi hədəfləyir.

Qeyd edilənləri nəzərə alaraq, Ombudsman aşağıdakıları *təklif edir:*

- *insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində səmərəliliyin artırılması, xüsusilə əhalinin həssas qruplarının hüquq və azadlıqlarının daha effektiv təmini məqsədilə yeni prioritet istiqamətlərin müəyyən edilməsi, aidiyyəti qurumların bu sahədə fəaliyyətinin daha səmərəli əlaqələndirilməsi, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, beynəlxalq hüquq normalarının və beynəlxalq təşkilatların tövsiyələrinin milli qanunvericiliyə implementasiyası və bununla da normativ hüquqi bazanın, habelə hüquq müdafiə sisteminin təkmilləşdirilməsi üzrə tədbirlərin davamlılığının təmin olunması məqsədilə yeni Milli Fəaliyyət Proqramının hazırlanması və qəbul olunması;*

- *BMT-nin "Biznes və insan hüquqları üzrə rəhbər prinsiplər"ini və "Biznes və insan hüquqları üzrə Milli Fəaliyyət Proqramlarına dair Təlimat"ını, eləcə də bu sahədə xarici ölkələrin müsbət təcrübəsini nəzərə alaraq, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarına hörmət və riayət edilməsini, hüquq-müdafiə vasitələrinin daha əlçatan olmasını təmin etmək, korporativ sosial məsuliyyətin təbliği və tətbiqi ilə sahibkarların ölkənin sosial iqtisadi həyatında daha fəal iştirakına şərait yaratmaq, bu sahədə aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirilməsinə nail olmaq məqsədilə "Biznes və insan hüquqları üzrə Dövlət Proqramı"nın hazırlanması və qəbul edilməsi;*

- *yaşayış yeri özgəninkiləşdirildikdə yeni mülkiyyətçi tərəfindən həmin ünvana əvvəllər qeydiyyata götürülmüş şəxslərin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmasının məhkəmədənkənar sadələşdirilmiş mexanizminin (yeni mülkiyyətçinin ərizəsi əsasında) tətbiqi ilə bağlı "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq dəyişikliyin edilməsi;*

- *ölkədən getmək və ölkəyə gəlmək hüququ məhdudlaşdırılan şəxslər barədə məlumatların "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edilərkən həmin şəxslərə bu barədə bildirişin dərhal göndərilməsinə dair imperativ tələbin qanunvericiliklə təsbit olunması;*

- *şəxsiyyət vəsiqəsi olmayan 16 yaşına çatmış şəxslərə doğum haqqında təkrar şəhadətnamənin verilməsində mövcud problemlərin və süründürməçilik hallarının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli, 145 nömrəli Qərarı*

*ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nın 9.7-ci bəndində bu şəxslərə doğum haqqında təkrar şəhadətnamənin verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının sorğusu əsasında doğumun qeydə alınmasına dair məlumatların həmin orqana təqdim edilməsi ilə bağlı müddəanın daxil edilməsi;*

- *borclu dövlət orqanlarına münasibətdə məhkəmə qərarlarının icrasının təmin edilməsi və borcun ödənilməsinin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Büdcəsində maliyyə vəsaitinin nəzərdə tutulması ilə bağlı “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq dəyişikliyin edilməsi;*

- *bəzən vətəndaşların texniki vasitələrə və internet resurslarına çıxış imkanlarının məhdud olması səbəbindən “elektron məhkəmə” informasiya sistemindən istifadə ilə bağlı çətinliklərlə üzləşmələrini, birinci instansiya məhkəmələrinin qərar və qərardadlarından elektron kabinet vasitəsilə apellyasiya şikayəti verilməsi üçün nəzərdə tutulmuş formanın mürəkkəb olması səbəbindən vəkil xidmətlərindən istifadə etməyə məcbur qalmalarını, habelə bəzi hallarda “elektron məhkəmə” informasiya sistemində yaranmış nasazlıqların məhkəmələrdə süründürməçillik hallarına səbəb olduğunu nəzərə alaraq, vətəndaşların “elektron məhkəmə” sistemindən istifadəsinin imperativ qaydada deyil, seçim imkanı müəyyən edilməklə tətbiqinə dair zəruri tədbirlərin görülməsi;*

- *şəxsi toxunulmazlıq hüququndan irəli gələrək və beynəlxalq təcrübə nəzərə alınaraq, cinayət təqibi barədə məlumatlardan şübhəli və təqsirləndirilən şəxslərin, eləcə də məhkumların ailə üzvlərinə, xüsusən də onların azyaşlı övladlarına qarşı psixoloji təzyiq vasitəsi (bullinq) kimi istifadə edilməsinin və bu təzyiqin səbəb ola biləcəyi xoşagəlməz nəticələrin (özünü öldürmə həddinə çatdırma, özünə xəsarət yetirmə, tərəflər arasında ağır nəticələrə səbəb ola biləcək münaqişələrin baş verməsi və s.) qarşısının alınması məqsədilə mediada şübhəli və təqsirləndirilən, məhkum, habelə inzibati qaydada məsuliyyətə cəlb olunan şəxslər barəsində verilən (dərc edilən) foto və video materiallarda onların üz görüntüsünün yayğın (bulanıq, pikselli və s.) şəkildə təsvir edilməsi ilə bağlı qanunvericiliyə zəruri əlavə və dəyişikliklərin edilməsi;*

- *alimentin uşaqların fiziki, emosional və sosial rifahının təmin olunmasında mühüm rol oynamaqla onların hüquqlarının qorunmasında mühüm təminat vasitəsi kimi çıxış etdiyini nəzərə alaraq, habelə aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi ilə bağlı şikayətlərin çoxluq təşkil etməsini diqqətdə saxlayaraq, bu sahədə məhkəmə qərarlarının icrası metodlarının təkmilləşdirilməsi və alimentin ödənilməsinə vahid dövlət nəzarəti mexanizminin (Aliment Fondunun) yaradılması;*

- *qəyyumluq və himayə, ünsiyyət tələbinə dair məhkəmə qərarlarının icrası zaman bəzi hallarda tərəflər və icra məmurları tərəfindən uşaqların mənafelərinin üstünlüyü prinsipinin nəzərə alınmadığını və belə halların uşaqların psixoloji durumuna neqativ təsir etdiyini diqqətdə saxlayaraq, “Uşaq hüquqları haqqında” Konvensiyanın və uşaq hüquqları sahəsində qəbul edilmiş milli qanunvericilik aktlarının tələblərini rəhbər tutaraq icra mexanizmlərinin təkmilləşdirilməsi, icra prosesində psixoloqun iştirakının təmin olunması ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi;*

*- Uşaq hüquqlarının müdafiəsi üzrə rayon (şəhər) komissiyalarında (yerli komissiyalarda) profil üzrə ixtisaslı kadrlara olan ehtiyacı nəzərə alaraq, həmin komissiyaların zəruri insan resursları ilə təmin olunması və peşəkarlığının artırılması;*

*- uşaqların sağlamlığına və təhlükəsizliyinə nəzarətin effektivliyinin artırılması məqsədilə həmin müəssisələrdə olan uşaq sayı nəzərə alınmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında" 23 iyun 2006-cı il tarixli, 157 nömrəli Qərarında "gecə dayəsi" və "psixoloq" ştatlarının sayının artırılması ilə bağlı müvafiq dəyişikliklərin edilməsi;*

*- "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun sahibkarlıq subyektləri tərəfindən əmək hüquqlarının pozulması hallarında məhkəməyədək hüquq müdafiə mexanizmlərinə çıxış imkanlarını məhdudlaşdırdığından insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların siyahısına sahibkarlıq subyektləri tərəfindən insan hüquq və azadlıqlarının, o cümlədən əmək hüquqlarının pozulması hallarında şikayətlərin araşdırılmasını birbaşa nəzərdə tutan dəyişikliklərin edilməsi;*

*- işaxtaran şəxslərin işəgötürənlər tərəfindən əmək müqaviləsi bağlanılmadan işə cəlb edilməsi probleminə diqqətin artırılması və qeyd olunan məsələnin həlli məqsədilə nəzarət tədbirlərinin gücləndirilməsi;*

*- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yaratdığı müvafiq yerli komissiyanın özünüməşğulluğa cəlb edilmə barədə qərarının işsiz və işaxtaran şəxsin elektron kabinetinə yerləşdirildiyi, poçt ünvanına və SMS-lə mobil telefonuna göndərildiyi tarixdən hesablanmaqla əmlakın verilməsi barədə müqavilənin bağlanılmasınadək müddətin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Özünüməşğulluğun təşkili Qaydası"na dəyişikliyin edilməsi;*

*- özünüməşğulluğun təşkili prosesi tam başa çatanadək (əmlak təhvil verilənədək) işsiz şəxslərə, xüsusən də bir sıra hallarda həmin şəxslərin müvafiq əmlakla təmin olunması prosesinin bir ildən artıq müddətə uzandığını nəzərə alaraq, məşğulluğun digər formasından yararlanması və ya ünvanlı dövlət sosial yardımı barədə müraciət etməsi ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması məqsədilə qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi;*

*- süründürməçilik və digər qanunazidd halların qarşısının alınması, habelə aztəminatlı ailələrin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli, 37 saylı Qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na aşağıdakı dəyişikliklərin edilməsi:*

- *Qaydaların 3.3-cü bəndində ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması üçün son müddətin (və ya müddət aralığının) müəyyən olunması;*

- *ünvanlı sosial yardımın təyin edilməsi zamanı istismara yararsız nəqliyyat vasitəsinin nəzərə alınmaması.*

- *“Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli, 213 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi Qaydası”na əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsi məqsədilə kvotanın tətbiqinə nəzarətin gücləndirilməsi, habelə kvotanın tətbiqinin stimullaşdırılması və bu işdə müəssisə rəhbərlərinin marağının artırılmasını təmin etmək üçün müsbət təcrübələrin öyrənilməsi və qanunvericiliklə həmin müəssisələrə münasibətdə həvəsləndirmə tədbirlərinin və güzəştlərin tətbiqi imkanlarının nəzərdən keçirilməsi;*

- *“Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 5.8.3-cü maddəsində işaxtaran kimi qeydiyyata alınmış şəxslərə 2 (iki) il ərzində təklif edilən münasib işlərin dəqiq sayının müəyyən olunması (məsələn, 2 (iki) il ərzində azı 4 iş təklif olunması), bununla əlaqədar həmin maddəyə müvafiq dəyişikliklərin edilməsi;*

- *şəxsin ona təklif olunan münasib işlərdən imtina etdiyi halda onun işsiz kimi qeydiyyatdan müvəqqəti çıxarılmasına dair “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 5.10.3-cü maddəsində nəzərdə tutulan 1 (bir) il müddətinin 6 (altı) aya endirilməsi ilə bağlı dəyişikliyin edilməsi;*

- *pensiya yaşına az qalmış işsiz şəxslərin məşğulluğunun təmin edilməsi sahəsində səmərəliliyin artırılması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş “Özünüməşğulluğun təşkili Qaydası”nın 1.2-ci bəndində həmin şəxslərə münasibətdə nəzərdə tutulmuş iki il müddətin beş il müddətlə əvəz edilməsi, habelə çoxuşaqlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həmin bənddə himayəsində üç və ya daha çox uşağı olan şəxslərin də nəzərə alınması ilə bağlı dəyişikliklərin edilməsi;*

- *sağlamlığın qorunması hüququnun effektiv təmin olunması məqsədilə icbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlər zərfinin genişləndirilməsi, həmin zərfə daxil olan xidmətlər çərçivəsində ambulator müalicə alan şəxslərə yazılan dərman vasitələrinin sığorta hesabına qarşılanması üçün zəruri tədbirlərin görülməsi;*

- *onkoloji xəstəliklərin müalicəsində istifadə olunan dərman preparatlarının spektrinin genişləndirilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 19 iyul tarixli 178 nömrəli qərarı ilə təsdiq edilmiş “Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı”nın müasir tələblərə uyğun olaraq yenidən işlənilməsi;*

- *həkim-məsləhət komissiyaları tərəfindən əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin (Forma 88) rəsmiləşdirilməsində mövcud problemlərin həlli, bu sahədə tibb işçilərinin*

*peşəkarlığının artırılması və onların müvafiq qaydada təlimatlandırılması, mürəkkəb və detallı sənədləşmə prosesinin sadələşdirilməsi, texniki dəstək və resursların artırılması, habelə tibb müəssisələri ilə tibbi sosial ekspert komissiyalarının fəaliyyətinin daha effektiv əlaqələndirilməsi;*

- *sağlamlığın qorunması ilə bağlı internet səhifələrində və sosial şəbəkələrdə çoxsaylı tibbi əsaslandırılmamış məlumatların yayımlanmasının, habelə internet platformaları üzərindən keyfiyyəti şübhə doğuran dərman preparatlarının satılmasının nəticə etibarilə insan sağlamlığına neqativ təsir göstərə biləcəyini nəzərə alaraq, səlahiyyətli dövlət qurumları tərəfindən bu sahəyə nəzarətin gücləndirilməsi, davamlı monitorinqlərin aparılması və problemlərin qanunvericilik səviyyəsində həll edilməsi;*

- *yeni doğulanların sağlamlığının təmin edilməsi, perinatal və neonatal ölümlərin qarşısının alınması məqsədilə istər hamiləlik dövründə, istərsə də doğuşdan sonra immunizasiya tədbirlərinin və digər tibbi xidmətlərin keyfiyyətinin artırılması;*

- *ölkəyə idxal edilən dərman preparatlarının və digər tibbi vasitələrin (ləvazimatların) keyfiyyətinə nəzarətin gücləndirilməsi;*

- *ölkəmizdə orta təhsilin icbari olduğunu və tədris proqramlarında dərsliklərlə yanaşı, digər çalışma və köməkçi vəsaitlərdən komplekt şəkildə istifadə edilməsinin nəzərdə tutulduğunu diqqətə alaraq, şagirdlərə həmin vəsaitlərin dövlət hesabına verilməsi;*

- *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 22 iyun tarixli 212 saylı qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsində siniflər üzrə şagird sıxlığı Normaları"nın 4-cü bəndinə əsasən, ibtidai təhsil səviyyəsinin bir sinfində şagird sayının 10 nəfərdən az olması halında, həmin sinfin ibtidai təhsil səviyyəsinin şagird sayı 10 nəfərdən az olan digər bir sinfi ilə birləşdirilərək komplektləşdirilməsi zamanı ayrı-ayrı yaş qrupları və təhsil səviyyələri arasında tədris prosesinin təşkilində yaranan problemlər, habelə təhsilin keyfiyyətinə və təhsilalanların proqram materiallarını mənimsəmələrinə neqativ təsirləri barədə Ombudsmana ünvanlanmış şikayətlər nəzərə alınaraq, bununla bağlı normalara yenidən baxılması, təhsilalanların dövlət təhsil standartlarına uyğun bilik və bacarıqlara yiyələnməsini təmin etmək məqsədilə həmin təhsil müəssisələrində müəllim sayının artırılması;*

- *müəllim-şagird münasibətlərinin tənzimlənməsində, bununla əlaqədar psixoloji yardımın təşkilində psixoloqların müəllim və valideynlərlə əməkdaşlığının gücləndirilməsi, təhsil müəssisələrində psixoloqlara ayrılan ştat vahidinin şagird sayına uyğunlaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi;*

- *orta məktəb kitabxanalarının fəaliyyətinə nəzarətin gücləndirilməsi, elektron kitabxanalara çatım imkanlarının genişləndirilməsi, kitab və kompüter təminatına diqqətin artırılması, şagirdlərin kitabxanalara cəlb edilməsi istiqamətində həvəsləndirici tədbirlərin görülməsi;*

- *insan həyatı və ya sağlamlığı üçün xüsusi əhəmiyyətini nəzərə alaraq, məktəbəqədər, orta və ali təhsil müəssisələrində qidanın keyfiyyətinə, təhlükəsizliyinə və rasionuna diqqətin artırılması, yetkinlik yaşına çatmayanlar üçün qəbul edilməsi qadağan olunan və ya məqsədəmüvafiq hesab edilməyən*

*qida məhsullarının satışına nəzarətin gücləndirilməsi, habelə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə birgə müntəzəm olaraq planlı və plandankənar monitorinqlərin keçirilməsi;*

- *yetkinlik yaşına çatmayanların təhsil hüququnun təmin olunmasında, onların təlim-tərbiyəsində valideynlərin və ya onları əvəz edən şəxslərin müstəsna rolunu və istənilən vəziyyətdə uşağın mənafeyinin üstünlüyü prinsipini nəzərə alaraq, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 189-cu maddəsində nəzərdə tutulmuş sanksiyaların sərtləşdirilməsi;*

- *uşaqların şəxsiyyətinin formalaşdırılmasında, onların sosial bacarıqlarının inkişafında və təhsil həyatına hazırlığında məktəbəqədər təhsilin əhəmiyyətini nəzərə alaraq, həmçinin bir sıra hallarda valideynlərin övladlarının yaşadıqları ərazi üzrə məktəbəqədər təhsil müəssisələrinə yerləşdirilməsi ilə bağlı üzləşdikləri problemləri diqqətdə saxlayaraq, mövcud tələbata uyğun olmaqla dövlət əsaslı məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi;*

- *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 yanvar tarixli, 6 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əqli və fiziki inkişafında pozuntular olan uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəblərinin rəhbər işçiləri, inzibati təsərrüfat, tədris-yardımçı və xidmət işçiləri heyətinin nümunəvi ştatları"nda "tibb bacısı", "gecə dayəsi" və "psixoloq" ştatlarının sayının artırılması ilə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi;*

- *"Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaq bağçalarının nümunəvi ştatı"na (1 №-li əlavə) və "Körpələr evi-uşaq bağçalarının nümunəvi ştatları"na (2 №-li əlavə) "uşaq psixoloqu" ştatının əlavə edilməsi;*

- *18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün nəzərdə tutulmuş sosial xidmət müəssisələrində uşaqlara qulluq göstərən işçilərin sayının artırılması;*

- *Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nda və "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nda təsbit olunmuş müddəaların icrası məqsədilə təhsil müəssisələrində zorakılığa məruz qalmış uşaqların reabilitasiyası üçün dəstəkləyici proqramların hazırlanıb tətbiq edilməsi;*

- *zorakılığı təbliğ edən halların müəyyən edilməsi və qarşısının alınması məqsədilə ölkəmizdə uşaqların daha çox istifadə etdikləri sosial şəbəkə, platforma və internet saytları, o cümlədən televiziya proqramları, filmlər və oyunlar üzrə davamlı monitorinqlərin aparılması, bu yaşda olan şəxslərin psixikasına, sağlamlıq durumuna və davranışına mənfi təsir edə biləcək halların müəyyən edilməsi və məhdudlaşdırıcı tədbirlərin görülməsi, bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi;*

- *təhsil müəssisələrində psixoloji zorakılığın ağır nəticələrə səbəb ola biləcəyini, habelə təhsildən yayınma hallarının erkən evlilik, məcburi əmək və digər*

*hüquq pozuntuları ilə nəticələnə biləcəyini nəzərə alaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 181-ci maddəsi ilə fiziki şəxslərə və vəzifəli şəxslərə münasibətdə nəzərdə tutulmuş sanksiyaların sərtləşdirilməsi, habelə həmin maddənin dispozisiyasında qeyd olunan əməllərin məzmunu nəzərə alınaraq, 181.0.1, 181.0.2 və 181.0.3-ci yarımbəndlərin ayrıca bir maddədə komplektləşdirilməsi;*

- *Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 228.2-ci maddəsinə yetkinlik yaşına çatmamış şahidin dindirilməsi zamanı psixoloqun iştirakının təmin olmasına dair müddəanın daxil edilməsi, habelə 16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılması zamanı psixoloqun iştirakının məcburiliyinin müəyyən edilməsi ilə bağlı həmin Məcəllənin 432.5-ci maddəsinə dəyişikliyin edilməsi;*

- *Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 197.1-ci maddəsində nəzərdə tutulmuş yetkinlik yaşına çatmayan şahidin dindirilməsi zamanı psixoloqun iştirakının təmin olunması ilə bağlı həmin maddəyə dəyişikliklərin edilməsi;*

- *məişət zorakılığından zərər çəkmiş şəxslərə xidmət göstərən, akkreditasiyadan keçməyən qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyətinə nəzarət mexanizminin formalaşdırılması ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi;*

- *uşaq müəssisələrində çalışan mütəxəssislərin, o cümlədən psixoloqların, sosial işçilərin və loqopedlərin uşaq hüquqları, uşaqlarla rəftar qaydaları sahəsində bilik və bacarıqlarının artırılması, onların təlimlərə cəlb edilməsi;*

- *ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrin əmək qabiliyyətini müvəqqəti itirməsi (xəstəlik, karantin və digər səbəblərdən) ilə əlaqədar fənn üzrə auditoriya saatlarının 25%-dən çoxunda iştirak edə bilmədiyi hallarda, müvafiq tibbi arayışa əsasən həmin tələbələrin imtahanlara buraxılmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına dəyişikliklər edilməsi;*

- *yetkinlik yaşına çatmayan uşaqlar arasında qanunazidd əməllərin qarşısının alınması məqsədilə ümumtəhsil müəssisələrində psixoloq və ərazi polis orqanının müvafiq əməkdaşları tərəfindən aparılan profilaktik işin effektivliyinin artırılması;*

- *baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan uşaqlar üçün regionlarda günərzi qayğı və icma əsaslı sosial reabilitasiya mərkəzlərinin, sığınacaqların sayının artırılması, mövcud mərkəzlərin işinin təkmilləşdirilməsi;*

- *respublika tabeli şəhərlər və rayon mərkəzləri də əhatə olunmaqla əlilliyi olan uşaqlar üçün reabilitasiya və günərzi qayğı xidmətləri şəbəkəsinin genişləndirilməsi, onlara maliyyə dəstəyinin dayanıqlılığının təmin edilməsi, habelə bu müəssisələrə ixtisaslı kadrların cəlb edilməsi;*

- *bir çox insanların yaşayış yeri və olduğu yer üzrə qeydiyyatla əlaqədar üzləşdikləri problemlərin aradan qaldırılması və onların öz hüquqlarından*

*yetərincə istifadə etmələrinə şərait yaradılması məqsədilə özbaşına tikililərin və yeni tikililərdə olan mənzillərin dövlət qeydiyyatına alınması prosesinin sürətləndirilməsi;*

- *mənzil hüququnun daha səmərəli təmin edilməsi məqsədilə, real bazar qiymətləri və əhalinin alıcılıq qabilliyyəti nəzərə alınmaqla güzəştli ipoteka kreditinin şərtlərinə yenidən baxılması, habelə kreditin maksimal məbləğinin artırılması;*

- *"Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 739- VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 iyul tarixli, 1531 nömrəli Fərmanının 1.3-cü bəndində nəzərdə tutulmuş və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 141-1.1-ci maddəsinə uyğun olaraq, çoxmənzilli binanın idarə edilməsi qaydasının müəyyən edilməsinin sürətləndirilməsi;*

- *Azərbaycan SSR Nazirlər Sovetinin 1983-cü il 14 oktyabr tarixli, 418 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan SSR ərazisində mənzil ehtiyacını yaxşılaşdırmağa ehtiyacı olan vətəndaşları uçota götürməyin və yaşayış sahələrini bölüşdürməyin Nümunəvi Qaydaları"nın 2009-cu ildən qüvvədən düşmüş Azərbaycan SSR Mənzil Məcəlləsinə əsasən qəbul edildiyini, normativ aktda həmin Məcəlləyə istinadlar olunduğunu, bununla da Qaydaların hüquqi və funksional əhəmiyyətini itirdiyini nəzərə alaraq, habelə "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust, 153 saylı Fərmanın tələblərindən irəli gələrək:*

  - *Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 49.5-ci maddəsində nəzərdə tutulmuş dövlət mənzil fondunun yaşayış sahələri ilə təmin edilmə məqsədləri üçün yaşayış sahəsinin uçot normasının təsdiq edilməsi;*

  - *Azərbaycan Respublikası Mənzil Məcəllənin 51.7-ci maddəsində nəzərdə tutulmuş vətəndaşların yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydasının təsdiq edilməsi prosesinin sürətləndirilməsi;*

  - *mənzil fondunun dövlət uçotu qaydasının təsdiq edilməsi prosesinin sürətləndirilməsi, o cümlədən müvafiq Fərmandan irəli gələn digər tapşırıqların icrasının təmin edilməsi;*

- *"Əlilliyi olan şəxslərin hüquqlarının təşviqi və müdafiəsi (sosial dəstəklənməsi və reabilitasiyası) haqqında" Dövlət Proqramının hazırlanması və təsdiq edilməsi;*

- *əlilliyi müəyyən edilmiş şəxslərin sosial kirayə müqaviləsi əsasında mənzillə təmin olunmaları ilə bağlı qanunvericilikdə mövcud boşluqların aradan qaldırılması;*

*- tikinti layihələrində müyəssərliyin təmin edilməsi məqsədilə beynəlxalq standartlara uyğun norma və memarlıq-planlaşdırma elementlərini, şərtlərini əks etdirən, bununla da bina və qurğularda əlilliyi olan şəxslər üçün zəruri həyat və fəaliyyət şəraitinin yaradılmasını təmin edəcək qaydaların hazırlanması və ya qüvvədə olan qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi, habelə mövcud normaların icrasına nəzarətin gücləndirilməsi;*

*- dövlət qurumlarına, idarə, müəssisə və təşkilatlarına məxsus olan binalarda, habelə ictimai binalarda və sosial infrastruktur obyektlərində əlilliyi olan şəxslərə münasibətdə müyəssərliyin təmin olunması, o cümlədən beynəlxalq standartlara uyğun yeni pandusların quraşdırılması və mövcud pandusların standartlara uyğunlaşdırılması;*

*- ictimai nəqliyyat infrastrukturunun əlilliyi olan şəxslər üçün əlçatanlığının təmin edilməsinə diqqətin artırılması, yerüstü və yeraltı keçidlərin, habelə metro stansiyalarının onların sərbəst hərəkəti üçün uyğunlaşdırılması və ya yenidən qurulması;*

*- yolların əlilliyi olan şəxslər üçün müyəssərliyinin təmini və hərəkətin sərbəstləşdirilməsinə dair standartlara uyğunlaşdırılması məqsədilə tədbirlərin davam etdirilməsi, o cümlədən yol ayrıclarında quraşdırılmış işıqforların səsli-vibrasiyalı siqnallara malik (toxunma və səs siqnallarının təkrarlanması ilə) xüsusi işıqforlarla əvəz edilməsi;*

*- pensiya yaşına çatanadək əlilliyi müəyyən edilməsi səbəbilə dövlət qulluğundan çıxan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə pensiya yaşına çatmasına görə öz arzusu ilə dövlət qulluğundan çıxan şəxslərlə yanaşı, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edildiyi üçün dövlət qulluğundan çıxan şəxslərə də ümumi qaydada hesablanmış aylıq pensiyasının 6 misli məbləğində vergi tutulmayan birdəfəlik haqqın verilməsi və bununla bağlı "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33.2-ci maddəsinə əlavələrin edilməsi;*

*- autizm spektr pozuntusu olan şəxslərə dövlət qayğısı haqqında xüsusi normativ hüquqi aktın və sahəvi dövlət proqramının qəbul edilməsi, onlar üçün müvafiq təhsil müəssisələrinin və reabilitasiya mərkəzlərinin genişləndirilməsi, kadr hazırlığının gücləndirilməsi;*

*- hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onlara ərzaq üçün ödənilən aylıq pul kompensasiyasının məbləğinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 iyun tarixli, 118 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibi"ndəki ərzaq məhsullarının aylıq dəyərinə uyğunlaşdırılması;*

*- "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsində təhsili davam etdirmək üçün çağırışa möhlət verilməsi zamanı, ümumi təhsil müəssisələrində tam orta, orta ixtisas, habelə əyani təhsilalma formasında bakalavriatda və magistraturada təhsil alanlara fərqli yaş hədlərinin müəyyən edildiyini nəzərə alaraq, həmin Qanunun 38-ci maddəsində orta ixtisas, magistr təhsili olanlar üçün ayrıca xidmət müddətinin müəyyən edilməsi;*

*- "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən şəxsin müddətli həqiqi hərbi xidmətdə olduğu müddətdə onun uşaqlarına ödənilən müavinətin məbləğinə ölkə üzrə uşaqlar üçün müəyyən edilmiş yaşayış minimumu nəzərə alınmaqla yenidən baxılması;*

*- Yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun daha səmərəli təmini məqsədilə "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli, 31 saylı Qərarının 1-ci bəndində göstərilən Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 193.2, 193.4-cü və 194-cü maddələrində nəzərdə tutulmuş hallarda hüquqi yardımın göstərilməsinə görə müdafiəçiyə (vəkilə) hər iş saatı üçün ödənilən məbləğin (6 manat) artırılması, habelə həmin Qərarın 2-ci və 3-cü bəndlərində nəzərdə tutulan cinayət mühakimə icraatı zamanı tərcüməçi, mütəxəssis və ya ekspert tərəfindən görülən işlər üçün müəyyən edilmiş (0,35 manat) məbləğə yenidən baxılması;*

*- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin respublika tabeli rayon polis şöbələrində yerləşən müvəqqəti saxlama yerlərində sıxlığın aradan qaldırılması məqsədilə inzibati qaydada həbs olunan şəxslər üçün Bakı şəhərindən kənarda regional inzibati həbs olunanların saxlanılması mərkəzinin təşkil olunması;*

*- narkoloji müalicə müəssisələrindəki sıxlığı və müalicə gözləyən şəxslərin sayının çoxluğunu nəzərə alaraq, bu müəssisələr şəbəkəsinin genişləndirilməsi, narkoloq və klinik psixoloqların sayının artırılması, yeni reabilitasiya mərkəzlərinin yaradılması, eyni zamanda narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir metodların tətbiq edilməsi;*

*- məhkumun sağlamlıq vəziyyətinə görə cəzanı çəkməsinə mane olan halları nəzərə alaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş "Məhkumların xəstəliyə görə cəza çəkməkdən azad edilmələri üçün əsas olan xəstəliklərin siyahısı"na yenidən baxılması;*

*- həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıq hüquqlarının daha effektiv təmini üçün tibbi məlumatların elektron qeydiyyatının aparılması, müəssisələrdə tibbi xidmətlərin sosial xidmətlərə daha sıx inteqrasiyası üzrə zəruri tədbirlərin görülməsi;*

*- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş məhkumun xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi haqqında məsələyə o cümlədən Ombudsmanın təqdimatı əsasında baxılması ilə bağlı həmin Məcəllənin 511.2-ci maddəsinə müvafiq dəyişikliklərin edilməsi;*

*- cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə ilə bağlı məsələyə, habelə Ombudsmanın vəsatəti əsasında baxılmasına dair Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 513.1-ci maddəsinə zəruri dəyişikliyin edilməsi;*

*- penitensiar müəssisələrdə sıxlıq probleminin tibbi xidmətlərə çatımla bağlı neqativ təsirlərinin aradan qaldırılması məqsədilə, xüsusən də istintaq təcridxanalarında saxlanılan şəxslərin sayının çox olması nəzərə alınaraq, həm*

*tibbi heyət, həm də dərman və digər tibbi ləvazimatların müəssisənin saxlanma limitinə deyil, saxlanılan şəxslərin faktiki sayına uyğunlaşdırılması;*

- *ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzalarını daha yüngül rejimli cəzaçəkmə müəssisələrində çəkmələri ilə bağlı xarici ölkələrin müsbət təcrübəsi də nəzərə alınmaqla, məntəqə tipli cəzaçəkmə müəssisələrinin əsasında ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər üçün nəzərdə tutulan ayrıca cəzaçəkmə müəssisələrinin yaradılması və təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin cəzasının həmin müəssisələrdə çəkilməsinin qanunvericiliklə təsbit edilməsi.*

Qeyd edilənlərlə yanaşı, Ombudsmanın insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, hüquq pozuntularının qarşısının alınması, nəzarət və monitorinq funksiyalarının həyata keçirilməsi sahəsində fəaliyyətinin effektivliyinin artırılması, habelə mandatının BMT Baş Assambleyasının 20 dekabr 1993-cü il tarixli Qətnaməsi ilə qəbul edilmiş Paris Prinsiplərinə tam uyğunlaşdırılması məqsədilə aşağıdakılar təklif olunur:

- *Ombudsmanın qanunvericiliyin təkmilləşdirilməsi sahəsində fəaliyyətinin effektivliyinin əhəmiyyətli dərəcədə artırılması, yeni normativ hüquqi akt layihələrinin vaxt itkisinə yol verilmədən, operativ qaydada qanunvericilik orqanına təqdim edilməsi, bununla da hüquq və azadlıqların daha səmərəli müdafiəsinə nail olunması məqsədilə xarici ölkələrin müsbət təcrübəsi də nəzərə alınmaqla Ombudsmanın “qanunvericilik təşəbbüsü hüququ”nun təsbit olunması;*

- *Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Ombudsmanın parlamentlə əməkdaşlığının əhəmiyyətindən irəli gələrək, onun insan hüquqlarına dair qanun layihələrinin parlamentdə müzakirəsində iştirak etməsi və rəy bildirməsi ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliyin edilməsi;*

- *Ombudsmanın insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə səmərəli əməkdaşlığından irəli gələrək, habelə bu sahədə İspaniya, Portuqaliya, Rumıniya, Qazaxıstan, Özbəkistanın və digər ölkələrin müsbət təcrübəsi nəzərə alınaraq, Ombudsmanın konstitusiya məhkəməsi ilə qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi, habelə insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun qanunvericiliklə təsbit olunması;*

- *Ombudsmanın məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxılması üzrə mandatından irəli gələrək, eləcə də qeyd olunan sahə üzrə şikayətlərin mütəmadi təhlilinin aparıldığını nəzərə alaraq, Məhkəmə-Hüquq Şurasının fəaliyyətinə töhfə vermək məqsədilə Ombudsmanın Məhkəmə-Hüquq Şurasının tərkibində təmsil olunması məsələsinə baxılması;*

Göstərilənlərlə yanaşı, Ombudsman Aparatının strukturunun təkmilləşdirilməsi və fəaliyyətinin daha effektiv təşkili məqsədilə aşağıdakılar təklif olunur:

- *Ombudsmanın Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə,*

*ləğv edilməsinə və ya qanunlarda dəyişikliklər edilməsinə dair təkliflər verməklə bağlı mandatından və bu sahədə aktiv fəaliyyətindən irəli gələrək, qanunvericiliklə müəyyən edilmiş qaydada rəy və təkliflərin verilməsi və vizalanması məqsədilə Ombudsmana çoxlu sayda normativ hüquqi akt layihələrinin təqdim edildiyini nəzərə alaraq, habelə müxtəlif dövlət qurumlarının fəaliyyətinə və beynəlxalq təcrübəyə uyğun olaraq, Ombudsmanın aidiyyəti sahədə fəaliyyətinin daha səmərəli təşkilini təmin etmək üçün müvafiq sahə üzrə struktur bölmənin yaradılmasına dəstək verilməsi;*

- *BMT-nin "Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri"ndən, habelə BMT-nin təşəbbüsü ilə qəbul edilmiş və beynəlxalq səviyyədə milli insan hüquqları təsisatlarının biznes və insan hüquqları sahəsi üzrə fəaliyyət istiqamətlərini müəyyən edən Edinburq Bəyannaməsinin tələblərindən irəli gələn tövsiyələrin ölkəmizdə icrası, bununla da qeyd olunan sahədə Ombudsmanın fəaliyyətinin effektivliyinin artırılması məqsədilə əlavə resursların təmin edilməsi baxımından, həmçinin xarici təcrübəni nəzərə alaraq, Ombudsman Aparatında "Biznes və insan hüquqları" sahəsində struktur bölmənin yaradılmasının dəstəklənməsi;*

- *Konstitusiya Qanununun 1.2 və 1.3-1-ci maddələrinə əsasən Ombudsmanın "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm funksiyalarını həyata keçirən Milli Preventiv Qrupunun, habelə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirən monitorinq qruplarının kadr və maddi-texniki təminatının gücləndirilməsi, həmin qrupların fəaliyyətinin maliyyələşdirilməsinə zəruri dəstəyin göstərilməsi;*

- *Ombudsmanın fəaliyyətinin əsas təminatlarından olan sənədlərin effektiv idarə olunmasını, məlumatların qorunmasını, şəffaflığın və nəzarət mexanizmlərinin tətbiqini, daha dolğun hesabatların və statistik məlumatların hazırlanmasını təmin edən daxili elektron sənəd dövriyyəsi sisteminin təkmilləşdirilməsinə maliyyə dəstəyinin verilməsi;*

- *Qlobal səviyyədə yüksək texnologiyaların tətbiqinin genişləndirilməsi praktikasından, habelə bu sahədə xarici ölkələrin müsbət təcrübəsindən irəli gələrək, Ombudsman Aparatında müraciət, sənəd və məlumatların ilkin sistemləşdirilməsi və işlənilməsində innovativ həllərin tətbiqi, analitik hesabatların hazırlanması və təhlillərin aparılması prosesində effektivliyin artırılması, risklərin və preventiv tədbirlərin proqnozlaşdırılması, Çağrı Mərkəzinin fəaliyyətində səmərəliliyin təmin olunması və bununla da insan hüquq və azadlıqların müdafiəsi sahəsində fəaliyyətin əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi, vətəndaşlara göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə "Süni intellekt"in tətbiqinə zəruri dəstəyin göstərilməsi.*

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) ünvanına 2024-cü ildə daxil olmuş müraciətlərin aylar üzrə statistikası (ədədlə)




## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) 2024-cü ildə ünvanlanmış müraciətlərin daxilolma üsulu üzrə statistikası (ədəd və faizlə)



**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Çağrı Mərkəzinə**
**2024-cü ildə daxil olmuş zənglərin aylar üzrə statistikası**




**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Çağrı Mərkəzinə**
**daxil olmuş zənglərin 2022-2024-cü illər üzrə müqayisəli statistikası**



## Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində müvafiq dövlət qurumlarının tabeliyində olan saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə 2024-cü ildə keçirilmiş başçəkmələrin statistikası




| Dövlət qurumları | Say |
|---|---|
| Ədliyyə Nazirliyinin Penitensiar Xidməti (ƏN) | 126 |
| Daxili İşlər Nazirliyi (DİN) | 90 |
| Elm və Təhsil Nazirliyi (ETN) | 75 |
| Səhiyyə Nazirliyi (SN) | 25 |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) | 21 |
| Dövlət Miqrasiya Xidməti (DMX) | 9 |
| Dövlət Təhlükəsizliyi Xidməti (DTX) | 3 |
| Müdafiə Nazirliyi (MN) | 2 |
| İqtisadiyyat Nazirliyi | 1 |

## Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə keçirilmiş başçəkmələrin 2022-2024-cü illər üzrə müqayisəli statistikası



# MÜNDƏRİCAT


**Giriş sözü** 3

**I fəsil. İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ** **7- 60**

**1.1. Mülki və siyasi hüquqların müdafiəsi** 7
- Azadlıq hüququ 7
- Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi 9
- İnformasiya əldə etmək hüququ 14
- Seçki hüququ 15
- Məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsi 16
- Hüquq və azadlıqların məhkəmə təminatı 19

**1.2. İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi** 21
- Əmək hüququ 21
- Sosial təminat hüququ 24
- Sağlamlığın qorunması hüququ 26
- Təhsil hüququ 28
- Mənzil hüququ 31

**1.3. Əhali qruplarının hüquqlarının müdafiəsi** 33
- Ermənistandan qaçqın düşmüş azərbaycanlıların hüquq və azadlıqları 33
- Qaçqınların, məcburi köçkünlərin və miqrantların hüquqlarının müdafiəsi 35
- Şəhid ailələri və müharibə iştirakçılarının hüquqlarının müdafiəsi 38
- Hərbi qulluqçuların hüquqlarının müdafiəsi 41
- Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi 43
- Uşaq hüquqlarının müdafiəsi 45
- Ahılların hüquqlarının müdafiəsi 51
- Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi 53
- Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi 55

**II fəsil. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ** **61-69**

**III fəsil. HÜQUQİ MAARİFLƏNDİRMƏ, ELMİ-ANALİTİK FƏALİYYƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ** **70-83**

- İnsan hüquqları sahəsində maarifləndirmə 70
- Elmi-analitik fəaliyyət 76
- İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq 80
- Media ilə əməkdaşlıq 81

**TƏKLİF VƏ TÖVSİYƏLƏR** **84**

- Diaqramlar 96

**MÜNDƏRİCAT** **99**